RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 274 (9441) 15 DEKABR 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Qlobal Liderə etimad böyükdür



## Azərbaycan İlham Əliyevlə daha möhtəşəm zəfərlərə doğru addımlayır

Mühüm qlobal layihələrin müəllifi və təşəbbüskarı kimi dünyada tanınan İlham Əliyevin həyata keçirdiyi enerji siyasəti ilə ölkəmizin geosiyasi mövqeyi getdikcə möhkəmlənir, xüsusən də Avropa ölkələri ilə strateji əməkdaşlıq daha da güclənir. İmzalanan enerji sazişləri, həyata keçirilən mühüm qlobal layihələr bunu təsdiqləyən reallıqdır. Təsadüfi deyil ki, Avropa Komissiyası, onun yüksəkvəzifəli şəxsləri Azərbaycanı etibarlı tərəfdaş və Pan Avropa qaz təchizatçısı kimi dəyərləndirirlər.

Məhz cənab İlham Əliyevin yürütdüyü tam müstəqil siyasətlə Azərbaycanın təkcə son 20 ildə əldə etdiyi tarixi uğurları, möhtəşəm zəfərləri bəlkə də dünyanın bir çox ölkələri son 100 ildə qazana bilməyiblər.

Azərbaycan xalqını son 20 illik zaman ərzində uzun, bir o qədər də məsuliyyətli yol qət edərək tarixində bənzərinə rastlanmayan qələbə günlərinə qovuşduran İlham Əliyev adını tariximizə Qarabağın xilaskarı, suverenliyin təminatçısı, ən qüdrətli Sərkərdə kimi yazdırıb.

20 il öncə, 2003-cü il oktyabrın 31-də Prezident kimi əlini "Qurani-Kərim"ə basaraq and içən İlham Əliyev xalqa söz verdi ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı davam etdirəcək və Azərbaycanı möhtəşəm zəfərlərə doğru aparacaq. Azərbaycan Ermənistanın işğalçı siyasəti ilə barışmayacaq və nəyin bahasına olursa-olsun, işğal altında olan torpaqlarını azad edəcək.

İlham Əliyevin 20 illik fəaliyyətinin əsas mahiyyəti də məhz bu iki fikrin doğrulmasına yönəldi. Bu fikirlər, əslində həm də Ulu Öndərin layiqli varisi qarşısında müəyyənləşdirdiyi tarixi vəzifələr idi. Ümummilli Liderin özü qədər inandığı İlham Əliyevə xalqımız inandı, güvəndi, etimad göstərdi. Xalqdan güc alan İlham Əliyev isə həyata keçirdiyi siyasətlə tarixin ən qüdrətli Azərbaycanını qurdu. Yəni Ulu Öndərin axıra çatdıra bilmədiyi taleyüklü məsələləri İlham Əliyev başa çatdırdı və Azərbaycanın tam suverenliyini təmin edən zəfərlərlə dünyaya gücünü, qüdrətini göstərdi.

→ 7

## "Bu seçki Prezident İlham Əliyevə xalqın etimadının və inamının növbəti ifadəsi kimi tarixə düşəcək"

Dövlətimizin başçısı dünyada baş verən hadisələri diqqətlə analiz edir və xalqımızın xoşbəxtliyini, dövlətimizin suverenliyini və müstəqilliyini özünün həyat amalına çevirib. Otuz il işğal altında qalan torpaqlarımızın azad edilməsi, antiterror tədbirləri nəticəsində Qarabağda separatizmin kökünün kəsilməsi, Azərbaycanın bütün dünyada tanıdılması və beynəlxalq aləmdə böyük nüfuz qazanması məhz Prezidentin əvəzolunmaz xidmətlərinin nəticəsidir.

→ 7

## Əlaqələrimiz daha da möhkəmlənəcək

### Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Dövlət başçıları və digər səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə töhfə verdiyi bildirildi.

Söhbət zamanı əlaqələrimizin bundan sonra da bütün istiqamətlərdə daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ilə bağlı fikir mübadiləsi aparıldı.

## Prezident gənclərin hərbi sahədə təhsil almasının təşviqini zəruri hesab edir

### Bununla bağlı fərman imzalanıb



Azərbaycan Respublikasının Nazirlər Kabineti peşəkar gizir heyətinin hazırlanması məqsədilə Bakı, Gəncə şəhərlərində və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində 3 xüsusi təyinatlı hərbi kolleci (bundan sonra - hərbi kollec) üç ay müddətində yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

→ 2

## Sülhə yaxınlaşırıq

### Əsirlərin dəyişdirilməsi Azərbaycanla Ermənistan arasında vasitəçiyə ehtiyac olmadığını göstərir

Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılığa əsasən, bu mübadilə humanist bir addımdır və gələcəkdə iki ölkə arasında sülh müqaviləsinin imzalanması istiqamətində atılacaq addımlarda çox mühüm əhəmiyyət kəsb edəcək. Bundan başqa, Ermənistan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf dövlətlərin 29-cu konfransına evsahibliyinə öz namizədliyini geri götürərək Azərbaycanın namizədliyini dəstəkləyib. Bu da çox mühüm addımdır və Azərbaycan-Ermənistan arasında, həmçinin regionda sülhün bərqərar olması üçün önəmli bir hadisədir.

→ 5

## Daha 20 ailənin Laçın sevinci

Dünən daha bir köç karvanı Laçın şəhərinə yola salınıb. Bu mərhələdə şəhərə 20 ailə - 86 nəfər köçürülüb. Doğma yurda qovuşan keçmiş məcburi köçkünlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər. Onlar bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər. Artıq Laçın şəhərində 383 ailənin, yəni 1475 nəfərin daimi məskunlaşması təmin edilib. Köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb. Burada, həmçinin vətəndaşların rifahının yüksəldilməsi və işlə təminatı istiqamətində də mühüm tədbirlər görülüb, rahat və firavan həyat şəraiti üçün lazım olan infrastruktur yaradılıb və proses davam edir.

→ 12

## Cenevrədə Fransa müstəmləkəçiliyinə qarşı dinc aksiya



Bakı Təşəbbüs Qrupu (BTQ) tərəfindən Cenevrədə təşkil olunan "Neokolonializm: İnsan hüquqları, sülh və təhlükəsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçıları BMT-nin bu şəhərdəki ofisi qarşısında dinc aksiya keçiriblər.

AZƏRTAC xəbər verir ki, aksiyanın Fransanın keçmiş və indiki müstəmləkələrindən olan iştirakçıları beynəlxalq ictimaiyyətin diqqətini rəsmi Parisin müstəmləkə siyasətinə cəlb ediblər.

Etirazçılar əllərində "Pıçıldayan dəyişiklik: müstəmləkəyə son qoyun, humanist olun, sülhü təmin edin!", "Sükutla tələb edirik: Hüquqlar, Sülh və Təhlükəsizlik naminə müstəmləkəyə son!", "Səssiz səslər, gurultulu dəyişiklik: Sülh və hüquqlar naminə müstəmləkəyə son!", "Dekolonizasiya, sülh və insan ləyaqəti uğrunda səssiz yürüş!", "Ədaləti pıçıldayaraq, Sülh qışqıraraq: Hamı üçün müstəmləkəyə son qoyaq!", "Hər kəsin azadlıqda yaşamaq hüququ var, niyə də bizim də olmasın?!" yazılmış plakatlarla BMT binasının qarşısına toplaşıblar. Beynəlxalq ictimaiyyəti onları dəstəkləməyə çağırıb, müstəmləkə ölkələrini kolonializmə son qoymağa səsləyiblər.

Onlar Fransa müstəmləkəçiliyinə son qoymaq uğrunda apardıqları mübarizələrini qətiyyətlə sona qədər davam etdirəcəklərini bildiriblər.

## "Qarabağ" tarix yazdı

### Ağdam klubu Avropa Liqasında ilk dəfə olaraq pley-offa yüksəldi






Dünən "Qarabağ" Avropa Liqasının H qrupunun sonuncu turunda Bakıda İsveçin "Hekken" komandasını qəbul etdi. Qarşılaşma Azərbaycan futbolu üçün çox önəmli idi. Belə ki, görüşdə qazanacağımız qələbə Ağdam klubunu tarixdə ilk dəfə Avropa Liqasında pley-off mərhələsinə yüksəldəcəkdi.

Hakimin start fitindən sonra "Qarabağ" hücuma atıldı və bu, dərhal öz bəhrəsini verdi - artıq 44-cü saniyədə qonaqların qapıçısının səhvindən istifadə edən Leandro Andrade hesabı açdı.

Komandamız bu qarşılaşmada da öz ənənəvi oyun planına sadiqlik nümayiş etdirərək rəqibi meydançanın özlərinə aid hissəsində qarşılayırdı. Tətbiq edilən pressinq qonaqları səhv etməyə məcbur edirdi və belə epizodların birində - birinci hissənin son dəqiqəsində Yasin Benzia effektli zərbə ilə hesabı 2:0-a çatdırdı.

Fasilədən sonra "Qarabağ" Marko Veşoviçin qırmızı vərəqə aldığına görə azlıqda qalmasına baxmayaraq qonaqların təzyiqi qarşısında yüksək əzmkarlıq nümayiş etdirdi. Ancaq oyunun artırılmış dəqiqələrində avtoqol sayəsində hesabdakı fərq azaldı.

Yekunda qarşılaşmadan 2:1 hesablı qələbə ilə ayrılan ağdamlılar Azərbaycan futbolu tarixində bir ilkə imza ataraq Avropa Liqasında pley-off mərhələsinə yüksəldilər.

*"Azərbaycan"*

# Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti peşəkar gizir heyətinin hazırlanması məqsədilə Bakı, Gəncə şəhərlərində və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində 3 xüsusi təyinatlı hərbi kolleci (bundan sonra - hərbi kollec) üç ay müddətində yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

2. 2024-2025-ci tədris ilindən başlayaraq təhsil almaq üçün Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki ali təhsil müəssisəsinin bakalavriat səviyyəsinə, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursuna (bundan sonra - ali təhsil müəssisəsi) və hərbi kolleclərə qəbul olunmuş kursantlar üçün 500 (beş yüz) manat, hərbi liseylərə qəbul olunmuş kursantlar üçün 300 (üç yüz) manat məbləğində birdəfəlik ödəmə təsis edilsin.

3. 2024-2025-ci tədris ilindən başlayaraq bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan təhsil müəssisələrində təhsil alan kursantlar üçün təhsil müddətində aşağıdakı aylıq ödəmələr təsis edilsin:

3.1. ali təhsil müəssisəsi üzrə:

3.1.1. 150 (yüz əlli) manat məbləğində təqaüd;

3.1.2. 200 (iki yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

3.1.3. 200 (iki yüz) manat məbləğində hesabda yığılan ödəniş;

3.2. hərbi kolleclər üzrə:

3.2.1. 100 (yüz) manat məbləğində təqaüd;

3.2.2. 200 (iki yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

3.2.3. 150 (yüz əlli) manat məbləğində hesabda yığılan ödəniş;

3.3. hərbi liseylər üzrə:

3.3.1. 50 (əlli) manat məbləğində təqaüd;

3.3.2. 100 (yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

3.3.3. 100 (yüz) manat məbləğində hesabda yığılan ödəniş.

4. 2024-2025-ci tədris ilindən başlayaraq ali təhsil müəssisəsinə və hərbi kolleclərə daxil olan kursantlar həmin təhsil müəssisələrindən məzun olaraq Azərbaycan Ordusunda 5 təqvim ili zabit və ya gizir kimi həqiqi hərbi xidmət keçdikdən sonra yaşayış sahəsinin alınması üçün Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına güzəştli ipoteka kreditindən istifadə etdikdə müvafiq yaşayış sahəsinin qiymətinin 15 faizədək olan hissəsi dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilsin.

5. Müəyyən edilsin ki:

5.1. bu Fərmanın 3.1.3-cü, 3.2.3-cü və 3.3.3-cü yarımbəndlərində göstərilən ödənişlər bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan kursantların hər biri üçün açılmış hesabda yığılır;

5.2. bu Fərmanın 5.1-ci bəndinə uyğun olaraq hesabda yığılan vəsait və həmin vəsaitin idarə olunmasından əldə edilən gəlir aşağıdakı hallarda ödənilir:

5.2.1. ali təhsil müəssisəsini və hərbi kollecləri bitirmiş məzunlara - Azərbaycan Ordusunda müvafiq qaydada zabit və ya gizir kimi vəzifəyə təyin edilərək həmin vəzifənin icrasına başladıqda;

5.2.2. hərbi liseyləri bitirmiş məzunlara - ali təhsil müəssisəsinə qəbul olduqda;

5.3. bu Fərmanın 2-ci və 3-cü hissələrində nəzərdə tutulan ödəmələr (bundan sonra - ödəmələr) dövlət büdcəsinin vəsaiti hesabına Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən ödənilir;

5.4. bu Fərmanın 4-cü hissəsində nəzərdə tutulan şəxslər güzəştli ipoteka kreditindən istifadə etdikdə onlara "Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli 569 nömrəli Fərmanının müddəaları şamil olunmur.

6. Hərbi kolleclərin fəaliyyətinin təşkili və zəruri infrastrukturun yaradılması məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ilkin olaraq 2 (iki) milyon manat məbləğində vəsait ayrılsın.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

7.1. "Gənclərin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almalarına dair 2024-2033-cü illər üçün Tədbirlər Planı"nın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

7.3. bu Fərmanın 4-cü hissəsinə uyğun olaraq güzəştli ipoteka krediti üzrə yaşayış sahəsinin qiymətinin 15 faizədək olan hissəsinin maliyyələşdirilməsi, habelə güzəştli ipoteka kreditinin bir hissəsinin ödənilməsinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi:

8.1. bu Fərmanın 2-4-cü hissələrində nəzərdə tutulan ödəmələrin maliyyələşdirilməsi məqsədilə tələb olunan vəsaitə dair təkliflərini müvafiq illərin dövlət büdcəsində nəzərdə tutulması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

8.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

9. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 6-cı hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 dekabr 2023-cü il*

# Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti ilə görüşüb

**Dekabrın 13-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova ilə görüşüb.**



Fonddan AZƏRTAC-a bildiriblər ki, görüşdə Hikmət Hacıyev Aktotı Raimkulovanı türk dövlətlərinin başçıları tərəfindən Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti təyin olunması münasibətilə təbrik edib. O, müasir dövrdə türk xalqlarının hərtərəfli inteqrasiya proseslərinin gücləndirilməsinin önəmindən bəhs edərək, türk dövlətlərinin mədəni əlaqələrinin inkişafında Təşkilatın rolunu vurğulayıb.

Söhbət zamanı Aktotı Raimkulova Qarabağın işğaldan azad olunmasını Azərbaycan və bütövlükdə türk dünyası üçün tarixi əhəmiyyətə malik hadisə kimi qiymətləndirib. Təşkilatın rəhbəri bu il türk dünyasında təntənəli şəkildə qeyd olunan əlamətdar yubileylər sırasında müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illiyinə diqqət çəkib.

Aktotı Raimkulova Türk Mədəniyyəti və İrsi Fondunun yaradılmasında və qurulduğu ilk illərdən təşkilatın fəaliyyətinə dəstək verilməsində Prezident İlham Əliyevin müstəsna rolunu vurğulayıb. O, fondun Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yenidənqurma və bərpa prosesinə töhfə verilməsinə, eləcə də ölkənin təklifləri əsasında təşkilatın bundan sonrakı fəaliyyətlərində yeni strateji istiqamətlərin həyata keçirilməsinə hazır olduğunu vurğulayıb.

Görüş qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi ilə davam edib.

# Bakı şəhərinin Xəzər rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Xəzər rayonunun Qala və Buzovna qəsəbələri ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 500,0 (beş yüz) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 dekabr 2023-cü il*

# "Hərbi kadrlar hazırlayan təhsil müəssisələri kursantlarının müavinətlərinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 noyabr tarixli 1789 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Hərbi kadrlar hazırlayan təhsil müəssisələri kursantlarının müavinətlərinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 noyabr tarixli 1789 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 11, maddə 978; 2008, № 6, maddə 496; 2010, № 7, maddə 684; 2014, № 11, maddə 1497; 2018, № 9, maddə 1859; 2022, № 3, maddə 240) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədən "Heydər Əliyev adına Hərbi İnstitutun," sözləri çıxarılsın;

1.2. 2-ci hissədən "Heydər Əliyev adına Hərbi Liseyin, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və" sözləri çıxarılsın.

2. Bu Sərəncam 2024-cü il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 dekabr 2023-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 452**

QƏRAR

**Bakı şəhəri, 14 dekabr 2023-cü il**

## ”Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiya arasında iclasların və birgə işçi görüşlərin təşkilinin və keçirilməsinin Reqlamenti”nin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 23 may tarixli 3272 nömrəli Sərəncamı ilə yaradılmış Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiya arasında iclasların və birgə işçi görüşlərin təşkilinin və keçirilməsinin Reqlamenti" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 dekabr tarixli 452 nömrəli Qərarı ilə təsdiq edilmişdir.**

## Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiya arasında iclasların və birgə işçi görüşlərin təşkilinin və keçirilməsinin Reqlamenti

1. Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiya (bundan sonra - Komissiyalar) arasında iclasların və birgə işçi görüşlərin təşkili və keçirilməsi qaydası.

1.1. İclasların və birgə işçi görüşlərin keçirilməsi tarixi, vaxtı və yeri Komissiyaların Sədrləri arasında razılaşma ilə müəyyən olunur.

1.2. İclasların və birgə işçi görüşlərin işçi dilləri rus və ya ingilis dilləridir.

1.3. İclaslar və birgə işçi görüşlər Komissiyaların Sədrlərinin rəhbərliyi altında keçir.

1.4. İclaslar və birgə işçi görüşlər Komissiyaların Sədrlərinin razılaşması ilə bir qayda olaraq növbə ilə Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazilərində və ya Azərbaycan Respublikası ilə Ermənistan Respublikasının sərhədində və ya üçüncü ölkələrin ərazisində və ya videokonfrans formatında keçirilir.

1.5. İclasların və birgə işçi görüşlərin gündəlikləri, nümayəndə heyətlərinin siyahısı (Komissiyaların üzvləri istisna olmaqla) və iclasların və birgə işçi görüşlərin təşkilinin protokol məsələləri Komissiyaların Sədrlərinin razılaşması ilə müəyyən olunur.

1.6. Nümayəndə heyətlərinin tərkibində iştirak edən xarici ekspertlər yalnız nümayəndə heyətlərinin tərkibinə daxil olduqları Komissiyanın adından çıxış edə bilərlər.

1.7. Komissiyaların razılaşması ilə və birgə sorğu əsasında üçüncü tərəflər iclaslarda və birgə işçi görüşlərdə məşvərətçi yardım göstərə bilərlər.

1.8. İclasların və birgə işçi görüşlərin Komissiyalarla təmsil olunan dövlətlərdən birinin ərazisində keçirildiyi hallarda qəbul edən tərəf onların keçirilməsi üçün bütün zəruri şəraiti yaradır, habelə gələn nümayəndə heyətinin bütün üzvlərinin təhlükəsizliyini təmin edir və zəmanət verir.

1.9. Komissiyaların Sədrləri başqa cür razılaşmadıqları təqdirdə iclaslar və birgə işçi görüşlər qapalı rejimdə keçirilir.

1.10. İşçi və razılaşdırılmış sənədlərin layihələri və iclasların və birgə işçi görüşlərin protokolları da daxil olmaqla iclasların və birgə işçi görüşlərin gedişatı və yekunları barədə istənilən məlumat yalnız Komissiyaların Sədrləri arasında ilkin razılaşma olduğu halda üçüncü tərəfə ötürülə bilər.

**2. İclasların və birgə işçi görüşlərin yekunları üzrə protokolların tərtib olunması qaydası.**

2.1. İclasların və birgə işçi görüşlərin yekunları üzrə yazılı formada iki əsl nüsxədə rus və ya razılaşma ilə ingilis dillərində protokol tərtib olunur.

2.2. Protokol Komissiyaların Sədrlərinin hər ikisi tərəfindən imzalanır.

2.3. Protokolda "Konfidensial" qrifi qoyulduğu halda Komissiyalar tərəfindən təmsil olunan dövlətlərin vəzifəli şəxsləri Sədrlər tərəfindən imzalanmış protokollara hər hansı ictimai, rəsmi istinadlardan çəkinirlər.

**3. Kütləvi informasiya vasitələri (bundan sonra - KİV) üçün iclasların və birgə işçi görüşlərin yekunları üzrə məlumatın dərc olunması qaydası.**

3.1. Bir qayda olaraq iclasların və birgə işçi görüşlərin yekunları üzrə məzmunu Komissiyaların Sədrləri tərəfindən təsdiq olunan KİV üçün məlumat tərtib olunur və dərc olunur.

3.2. Komissiyalar KİV üçün məlumatın razılaşdırılmış mətnlərini eyni vaxtda dərc edirlər.

3.3. 2.3-cü bənddə nəzərdə tutulmuş hallar istisna olmaqla, Komissiyalar tərəfindən təmsil olunan dövlətlərin vəzifəli şəxslərinin iclasların və birgə işçi görüşlərin sənədlərinə istənilən rəsmi istinadları müstəsna olaraq razılaşdırılmış və təsdiq olunmuş KİV üçün məlumatın hərfi məzmunu ilə məhdudlaşmalıdır.

3.4. Komissiyalar tərəfindən təmsil olunan dövlətlərin vəzifəli şəxslərinin iclasların və birgə işçi görüşlərin yekunları üzrə KİV üçün məlumatın hərfi məzmunundan kənar hər hansı rəsmi istinadları, habelə onların təfsiri və ya şərhi yolverilməzdir və etibarsızdır.

3.5. Komissiyaların Sədrlərinin razılaşması ilə Komissiyaların KİV üçün məlumatının məzmunu qarşılıqlı müəyyən olunmuş məsələlər üzrə fərqlənə bilər.

3.6. Komissiyalar KİV üçün məlumatın məzmunu üzrə razılığa gəlmədikləri təqdirdə qarşılıqlı razılıq ilə Komissiyalar yalnız iclasların və birgə işçi görüşlərin keçirilməsi faktının qeyd olunması ilə məhdudlaşan məlumat dərc edirlər. Bu halda, Komissiya ilə təmsil olunan bir dövlətin vəzifəli şəxsləri öz ictimai bəyanatlarında Komissiya ilə təmsil olunan digər dövlətin iclasların və birgə işçi görüşlərin gedişində hər hansı razılaşmalarına, elanlarına, bəyanatlarına, çıxışlarına və fikirlərinə toxunmaq hüququna malik deyildir.

3.7. Bu Reqlament Azərbaycan Respublikasının və Ermənistan Respublikasının Hökumətləri tərəfindən təsdiq edilir və rəsmi dərc edildiyi tarixdən qüvvəyə minir.

Bu Reqlamentin müddəalarının təfsirində fikir ayrılıqları yarandığı təqdirdə rəsmi razılaşdırılmış və bir-birinə göndərilmiş rus dilində olan mətndən istifadə ediləcəkdir.

# Milli Məclisin Sədri Sahibə Qafarova Mərakeş Krallığına rəsmi səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Mərakeş Krallığına rəsmi səfərə gedib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Rabat Beynəlxalq Hava Limanında nümayəndə heyətini Mərakeş Krallığının Nümayəndələr Palatasının Sədri Raşid Talbi El Alami, Azərbaycanın Mərakeşdəki səfiri Nazim Səmədov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər müddətində keçiriləcək görüşlərdə parlamentlərarası əlaqələrin bu günü, gələcək inkişaf perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılacaq.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Mərakeş Krallığı Parlamentinin Nümayəndələr Palatasının Sədri ilə görüşüb

**Dekabrın 14-də Milli Məclisin Sədri Sahibə Qafarova Mərakeş Krallığına rəsmi səfəri çərçivəsində bu ölkə Parlamentinin Nümayəndələr Palatasının Sədri Raşid Talbi El Alami ilə görüşüb.**





Mərakeş Parlamentinin Nümayəndələr Palatasının Sədri Raşid Talbi El Alami Milli Məclisin Sədri Sahibə Qafarovanı səmimiyyətlə salamlayaraq, dəvəti qəbul edib səfərə gəldiyinə görə Azərbaycan parlamentinin rəhbərinə təşəkkür edib. Azərbaycanın ölkəsi üçün qardaş ölkə olduğunu deyən Raşid Talbi El Alami ölkələrimiz arasında əlaqələrin genişlənməsinin vacibliyini qeyd edib. O, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın, işgüzar dairələr arasında əlaqələrin əhəmiyyətini diqqətə çatdırıb.

Söhbət zamanı Azərbaycan və Mərakeşin bir-birinin suverenliyini və ərazi bütövlüyünü qarşılıqlı şəkildə dəstəklədikləri qeyd olunaraq, beynəlxalq təşkilatlarda birgə fəaliyyətin və həmrəyliyin əhəmiyyəti vurğulanıb. Nümayəndələr Palatasının Sədri Azərbaycanı öz suverenliyini bərpa etməsi münasibətilə təbrik edib.

Raşid Talbi El Alami ölkəmizə səfərləri çərçivəsində 2022-ci ilin iyun ayında Qoşulmama Hərəkatının Bakı konfransında və 2023-cü ilin may ayında Milli Məclisin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirakını məmnunluqla xatırladaraq, ölkəmizlə bağlı xoş fikirlərini ifadə edib.

Milli Məclisin Sədri Sahibə Qafarova göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, Azərbaycan və Mərakeş arasında siyasi, iqtisadi, humanitar əlaqələrin vacibliyini diqqətə çatdırıb.

Görüşdə ikitərəfli əlaqələrin inkişafında parlamentlər arasında əməkdaşlığın vacib rolu diqqətə çatdırılıb. Spiker Sahibə Qafarova qanunvericilik orqanlarımız arasında əlaqələrin inkişaf etdiyini bildirib. Qeyd olunub ki, hər iki ölkənin parlamentində dostluq qrupları uğurla fəaliyyət göstərir və nümayəndə heyətlərimiz beynəlxalq parlament təşkilatlarında bir-birinə dəstək verirlər.

Görüşdə ali qanunvericilik orqanlarının komitələri və parlament aparatları arasında da əməkdaşlıq məsələləri müzakirə olunub. Həmçinin qanunverici orqanlarımızın hüquqi, iqtisadi, humanitar, ailə dəyərləri və qadın məsələləri üzrə birgə əməkdaşlıq imkanları nəzərdən keçirilib. Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcəyi nəzərə alınaraq, parlamentlərimizin iqlim dəyişiklikləri üzrə də əməkdaşlığı ilə bağlı fikir mübadiləsi aparılıb.

Raşid Talbi El Alami Azərbaycanın bu tədbirə evsahibliyi etmək hüququ əldə etməsi münasibətilə öz təbriklərini çatdırıb.

Milli Məclisin Sədri parlamentlərimizin Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində də əməkdaşlığının vacibliyini ifadə edərək, şəbəkənin bu günə qədər keçirilən bütün konfranslarında Mərakeşin ən yüksək səviyyədə təmsil olunduğunu məmnunluqla xatırladıb. Sahibə Qafarova Nümayəndələr Palatası Sədrinin Qoşulmama Hərəkatının Bakı konfransında və Milli Məclisin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirakına görə minnətdarlığını bildirib.

2024-cü il fevralın 7-də Azərbaycanda keçiriləcək prezident seçkilərindən danışan spiker Sahibə Qafarova bu seçkiləri tarixi seçkilər kimi xarakterizə edib. O deyib ki, bu seçkiləri əvvəlkilərdən fərqləndirən əsas cəhət ondan ibarətdir ki, bu dəfə seçkilər Azərbaycanın bütün suveren ərazisində keçiriləcək.

Görüşdə spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, 30 il ərzində Azərbaycan torpaqları Ermənistanın işğalı altında olub. Bu 30 ildə beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan ərazilərinin dərhal və qeyd-şərtsiz azad edilməsinə dair bir çox sənədlər və qətnamələr qəbul olunsa da, bu sənədlər icra olunmayıb. 2020-ci ildə isə Azərbaycan öz gücü hesabına, 3000 şəhidin qanı bahasına torpaqlarını işğaldan azad edib.

Milli Məclisin Sədri ölkəmizin Vətən müharibəsində qazandığı Qələbədən sonra regionda yaranmış yeni reallıqlar barədə də məlumat verib. Sahibə Qafarova cari ilin sentyabr ayında uğurla yekunlaşan lokal antiterror tədbirləri nəticəsində Qarabağda separatizmə son qoyulduğunu, suverenliyimizin tam bərpa edildiyini diqqətə çatdırıb. O, hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyinə görə Mərakeş tərəfinə təşəkkürünü ifadə edib.

Milli Məclisin Sədri son günlərdə Azərbaycan və Ermənistan arasında etimad quruculuğu istiqamətində həyata keçirilmiş tədbirlər haqqında da məlumat verib. O deyib ki, hazırda Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına heç bir maneə yoxdur. Ümid etdiyini bildirib ki, saziş tezliklə imzalanacaq.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Mərakeşlə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri İmamverdi İsmayılov, qrupun üzvü Ağalar Vəliyev, Azərbaycanın Mərakeşdəki səfiri Nazim Səmədov və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Mərakeş Krallığı Parlamentinin Müşavirlər Palatasının Sədri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova dekabrın 14-də Mərakeş Krallığı Parlamentinin Müşavirlər Palatasının Sədri Naam Miyara ilə görüşüb.**





Azərbaycanın parlament sədrini səmimiyyətlə salamlayan Naam Miyara ölkələrimiz arasında siyasi təmasların vacibliyini vurğulayıb. O bu mənada qarşılıqlı səfərin əhəmiyyətini qeyd edib. Müşavirlər Palatasının Sədri ölkəsinin Azərbaycanla bir çox sahələrdə əlaqələri gücləndirmək niyyətini ifadə edib.

Görüşdə ölkələrimiz arasında dini və mədəni köklərə bağlı əlaqələrin mövcud olduğu, xalqımızın oxşar dəyərləri bölüşdüyü bildirilib. Həmçinin Azərbaycan və Mərakeşin beynəlxalq təşkilatlarda əməkdaşlıq etdiyi, həmrəylik nümayiş etdirdiyi vurğulanıb.

Söhbət zamanı ölkələrimizin hər zaman bir-birinin ərazi bütövlüyünə qarşılıqlı dəstək verdikləri qeyd olunub. Naam Miyara Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi münasibətilə təbriklərini çatdıraraq deyib ki, bu, Azərbaycanın mütləq haqqı idi.

Naam Miyara görüşdə, həmçinin Müşavirlər Palatasının fəaliyyəti, onun beynəlxalq parlament təşkilatlarında təmsilçiliyi haqqında məlumat verib.

Səmimi sözlər üçün təşəkkürünü ifadə edən Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan və Mərakeşin dost, tərəfdaş ölkələr olduğunu bildirib. Spiker Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1994-cü ildə Kasablankaya səfər etdiyini və Mərakeş Kralı mərhum II Həsənlə görüşünü qeyd edib. Onun sözlərinə görə, bu görüş ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafına mühüm təkan verib.

Görüşdə iqtisadi əlaqələrin ölkələrimiz arasında ikitərəfli münasibətlərin əsas komponentlərindən biri olduğu, bu sahədə əməkdaşlığı genişləndirmək üçün potensial imkanların mövcudluğu qeyd edilib.

Söhbətdə parlament diplomatiyasının vacibliyi, parlamentlərarası əlaqələrin gücləndirilməsi ilə bağlı ortaq mövqe ifadə edilərək, bu sahədə atıla biləcək addımlar nəzərdən keçirilib.

Spiker Sahibə Qafarova söhbətdə postmünaqişə dövründə regionda mövcud olan vəziyyət barədə də məlumat verib. Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan 2020-ci ildə öz gücü hesabına torpaqlarını Ermənistanın 30 illik işğalından azad edib. O, Vətən müharibəsindən sonra Azərbaycanın Ermənistana beynəlxalq hüququn 5 prinsipi əsasında sülh sazişi imzalamasını təklif etdiyini, lakin Ermənistanın son 3 il ərzində siyasi və hərbi təxribatlarını davam etdirdiyini, üzərinə götürdüyü öhdəliklərə əməl etmədiyini diqqətə çatdırıb. Spiker bu təxribatların Azərbaycanın Qarabağ bölgəsində antiterror tədbirlərinin keçirilməsini qaçılmaz etdiyini, həyata keçirilən tədbirlərin beynəlxalq hüquq normalarına tam uyğun olduğunu, mülki şəxslər arasında heç bir itki olmadığını vurğulayıb. O deyib ki, bu tədbirlər nəticəsində Azərbaycan öz suverenliyini bərpa edib.

Milli Məclisin Sədri hazırda Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərini "yaşıl enerji", "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında yenidən qurduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, bu işlərə ən böyük maneə Ermənistan tərəfindən ərazilərin minalanmasıdır.

Görüşdə, həmçinin Azərbaycan və Ermənistan arasında etimad quruculuğu istiqamətində həyata keçirilən tədbirlər barədə də məlumat verilərək, tezliklə sülh sazişinin imzalanacağına dair ümid ifadə edilib.

Milli Məclisin sədri görüşdə 2024-cü il fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərinə toxunaraq, bu seçkilərin tarixi əhəmiyyətini qeyd edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib

**Dekabrın 14-də Baş prokuror Kamran Əliyevin sədrliyi ilə Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti, sayca doqquzuncu iclası keçirilib.**

İclasda müvafiq dövlət orqanları nümayəndələri, aparıcı ali təhsil müəssisələri, ixtisaslaşmış akademiyaları, elm ocaqlarını təmsil edən görkəmli hüquqşünaslarla yanaşı, ölkəmizdə təcrübə mübadiləsi ilə səfərdə olan Rusiya Federasiyası Baş Prokurorluğunun nümayəndə heyəti də iştirak edib.

Giriş nitqi ilə çıxış edən Baş prokuror Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, mübariz xalqımızın dəstəyi ilə rəşadətli ordumuz tərəfindən ölkə suverenliyinin bütün ərazilərimizdə bərpa olunduğunu, üçrəngli bayrağımızın Xankəndi şəhərimizdə dalğalanması ilə əbədiyyət qazandığını, genişmiqyaslı quruculuq və yenidənqurma işlərinin artıq Xankəndi, Ağdərə, Əsgəran və digər yaşayış məntəqələrini əhatə etdiyini iclas iştirakçılarının diqqətinə çatdırıb.

Qeyd olunub ki, Qarabağda mövcud olmuş ali təhsil ənənələrinin davamı olaraq, ölkə başçısı cənab İlham Əliyevin 28 noyabr 2023-cü il tarixli sərəncamı ilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradılıb. Əminliklə həmin universitetin bölgənin elm və təhsil mərkəzi olacağı, işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələblərinə uyğun regionda yüksəkixtisaslı kadrların hazırlığına öz layiqli töhfəsini verəcəyi bildirilib.

Daha sonra Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən hazırlanmış "Həkim səhvləri ilə bağlı məlumatlar üzrə istintaq-araşdırma təcrübəsi", "Azərbaycan Respublikasının Prokurorluğunda kriminoloji proqnozlaşdırma metodologiyasına yanaşma" adlı vəsaitlərin təqdimatı həyata keçirilib.

Şura iclasının növbəti hissəsində istintaq-məhkəmə, eləcə də cinayət təqibindən kənar fəaliyyət təcrübəsindən irəli gələn aktual məsələlərin müzakirəsi reallaşdırılıb.

İclasın yekun hissəsində müxtəlif hüquqi məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Niderland Krallığı hökumətinin açıqlamasında Azərbaycana qarşı səsləndirdiyi fikirlər qəbuledilməzdir

**Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Niderland Krallığı hökumətinin Ermənistana yardım ayrılması barədə verdiyi 13 dekabr tarixli açıqlamada "etnik erməni anklavına qarşı Azərbaycanın hücumu nəticəsində 100 min erməninin öz evlərindən güclə qovulduqları"nı bəyan etməsinə münasibət bildirib.**

AZƏRTAC xəbər verir ki, A.Hacızadə bununla bağlı deyib: "Niderland Krallığı hökumətinin sözügedən açıqlamasında ölkəmizə qarşı səsləndirdiyi fikirlər qəbuledilməzdir.

Niderland 30 il ərzində Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün işğalçı və təcavüzkar Ermənistan tərəfindən pozulması, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti yürütməsi, 1 milyondan çox azərbaycanlının məcburi köçkün və qaçqın vəziyyətinə düşməsi faktlarını heç zaman diqqətə almayıb.

Azərbaycanın dəfələrlə ərazilərimizdə qanunsuz mövcudluğunu davam etdirən erməni silahlı qüvvələrinin bölgədə təhlükə mənbəyi olduğunu bildirməsinə və beynəlxalq hüquqa uyğun olaraq onların dərhal çıxarılmasına dair çoxsaylı çağırışlar etməsinə baxmayaraq, Niderland tərəfinin Azərbaycanın öz ərazilərində həyata keçirdiyi antiterror tədbirlərini tənqid etməsi qərəzli yanaşmanın bariz nümunəsidir.

Vətən müharibəsinin, habelə bu ilin sentyabrında həyata keçirilən 24 saatlıq antiterror tədbirlərinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın suveren ərazilərində reallaşdırıldığını, ölkəmizin legitim üsullarla öz suverenliyini bərpa etdiyini bir daha xatırladırıq.

Azərbaycan heç vaxt erməni sakinləri Qarabağdan çıxarmayıb və bölgəni tərk etməmək barədə ölkəmizin çağırışlarına baxmayaraq, Ermənistana və digər ölkələrə miqrasiya etmək onların qərarı olub. Birləşmiş Millətlər Təşkilatının bölgəyə missiyaları Azərbaycan tərəfinin mülki əhalini hədəf almadığını təsdiqləyib və Niderland Krallığında yerləşən Beynəlxalq Ədalət Məhkəməsi də bu istiqamətdə Ermənistanın son iddialarını rədd edib.

Niderland tərəfinin bölgənin beynəlxalq hüquq prinsiplərinə hörmət əsasında gələcək inkişafına və tərəqqisinə maneə törədən belə bəyanatlara son qoyması faydalı olardı".

# Türkiyənin xarici işlər naziri Ulu Öndərin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət edib

**Ölkəmizdə işgüzar səfərdə olan Türkiyənin xarici işlər naziri Hakan Fidan Ulu Öndərin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Fəxri xiyabana gələn Hakan Fidan xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının da məzarları ziyarət olunub, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Sonra şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsi ziyarət edilib, abidə önünə əklil qoyulub, gül dəstələri düzülüb.









# Azərbaycanın və Türkiyənin XİN başçıları regional və çoxtərəfli əməkdaşlıq gündəliyinin perspektivlərini müzakirə ediblər

Dekabrın 14-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizə rəsmi səfəri çərçivəsində Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər arasında keçirilən təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Geniştərkibli görüşdə iki ölkə arasında ikitərəfli, regional və çoxtərəfli əməkdaşlıq gündəliyinin perspektivləri, bölgədəki cari vəziyyət, habelə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə 2023-cü ildə Azərbaycanda Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinin, qardaş Türkiyədə isə Cümhuriyyətin 100 illik yubileyinin qeyd edilməsi fonunda iki ölkə arasında bütün səviyyələrdə təmaslarımızın daha intensiv, daha məhsuldar xarakter aldığı vurğulanıb.

Çoxşaxəli və zəngin Azərbaycan-Türkiyə strateji müttəfiqlik gündəliyinin cari vəziyyətindən məmnunluq ifadə edilib, siyasi, iqtisadi, ticarət, hərbi, müdafiə sənayesi, enerji təhlükəsizliyi, investisiyalar, humanitar, təhsil, mədəniyyət və digər sahələr üzrə münasibətlərin tarixi yüksəliş mərhələsində olduğu bildirilərək, Şuşa Bəyannaməsinin bu xüsusda mühüm zəmin olduğu qeyd olunub.

Habelə beynəlxalq və regional təşkilatlar çərçivəsində qarşılıqlı faydalı tərəfdaşlığın nümunəvi xarakter daşıdığı diqqətə çatdırılıb. Çoxtərəfli platformalarda, o cümlədən BMT və onun təsisatları, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Mərkəzi Asiya ölkələri ilə üçtərəfli və dördtərəfli formatlar çərçivəsində birgə tədbirlərin intensivliyinin artırılmasının, yeni çoxtərəfli təşəbbüslərin irəli sürülməsinin əhəmiyyətindən söz açılıb.




Nazirlər, həmçinin bölgəmizdə sabitliyin qorunmasında Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərinin vacib roluna toxunub, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası ilə bu gün bölgədə tarixi məqamın yarandığını, dövlətlərin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı tanınmasının və bu kimi təməl prinsiplərə hörmətlə yanaşılmasının bölgədəki davamlı sülh, sabitlik və firavanlığa aparan yeganə yol olduğunu bir daha bəyan ediblər.

Görüşdə nazir Ceyhun Bayramov həmkarını Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Ermənistanın 30 illik işğalı nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş vətəndaşlarımızın geri qayıdış prosesi, habelə Azərbaycan Ermənistan arasında etimad quruculuğu istiqamətində atılan son addımlar barədə məlumatlandırıb.

Nazir işğaldan azad edilmiş ərazilərdə fəaliyyətlərində Türkiyə tərəfinin aktiv iştirakının yüksək qiymətləndirildiyini vurğulayıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra nazirlərin iştirakı ilə keçirilmiş mətbuat brifinqində görüşün nəticələrinə dair bəyanatlar səsləndirilib, jurnalistlərin sualları cavablandırılıb.

# Gizir və miçmanlara kiçik leytenant hərbi rütbəsinin verilməsi imkanı yaradılır



**Dekabrın 14-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Ziyafət Əsgərov gündəliyə 6 məsələnin daxil olduğunu bildirib.**

Əvvəlcə Ziyafət Əsgərov Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. O, sənədin ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edildiyini söyləyib və layihədə adıçəkilən qanunvericilik aktlarına təklif olunan dəyişikliklər barədə danışıb.

Komitə sədri bildirib ki, Cinayət Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulan düzəlişlərdə Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanmasına yönələn atributları və ya simvolları nümayiş etdirmə, yayma, əldə etmə, saxlama, daşıma kimi qanunazidd əməllərə görə, habelə, Silahlı Qüvvələrin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların müharibə vaxtı və ya döyüş şəraitində yayılmasına görə cinayət məsuliyyəti müəyyən edilir.

Nəzərə çatdırılıb ki, İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişiklikdə Silahlı Qüvvələrin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların mediada, o cümlədən internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində hərbi qulluqçular və ya toplanışa çağırılmış hərbi vəzifəlilər tərəfindən yayılmasına görə inzibati məsuliyyət müəyyən edilir.

Yuxarıda göstərilənlərlə əlaqədar dövlət orqanları tərəfindən ictimaiyyətə açıqlanan məlumatların yayılması halları məsuliyyətə səbəb olmur.

Qeyd olunub ki, layihədə Silahlı Qüvvələrə dair məlumatların yayılmaması ilə bağlı "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunlara da müvafiq dəyişikliklər nəzərdə tutulub.

Məsələ ətrafında müzakirələrdə komitənin sədr müavini Hikmət Məmmədov, üzvləri Erkin Qədirli, Elşad Mirbəşir oğlu, Aqil Abbas, Nurlan Həsənov, Aydın Mirzəzadə çıxış ediblər. Deputatlar məsələnin aktuallığını və təhlükəsizlik baxımından əhəmiyyətini qeyd ediblər.

Komitə sədri Ziyafət Əsgərov və iclasda iştirak edən Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi Elçin Əliyev qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Sonra Ziyafət Əsgərov Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" qanun layihəsini (birinci oxunuş) təqdim edib. O bildirib ki, ölkə Prezidenti tərəfindən təqdim olunmuş qanun layihəsi zabitlərin həqiqi hərbi xidmətinə qəbul edilə bilən şəxslərin dairəsinin genişləndirilməsi məqsədilə hazırlanıb. Təklif edilən dəyişiklikdə, gizir və miçman vəzifələrində beş il və daha çox xidmət etmiş, zabit vəzifəsinə təyin edilmiş tam orta təhsilli (yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövr ərzində) gizir və miçmanlara hərbi hazırlıq keçdikdən və müəyyən edilmiş qaydada imtahan verdikdən sonra kiçik leytenant hərbi rütbəsinin verilməsi imkanı yaradılır.

Gündəlikdəki növbəti məsələni - "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsini (ikinci oxunuş) komitə üzvü Arzu Nağıyev diqqətə çatdırıb. Qanun layihəsində hərbi qulluqçuların pensiya hüququ, təhsil almaq hüququ və xidmətkeçmə müddətləri ilə bağlı dəyişikliklər nəzərdə tutulub.

Sonra komitə sədri Ziyafət Əsgərov "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" (ikinci oxunuş) qanun layihəsinə dair məlumat verib. O qeyd edib ki, qanun layihəsində iqtisadi sahədə dövlət sirrini təşkil edən məlumatların dairəsi dəqiqləşdirilir və buraya hərbi məhsulları işləyib hazırlayan və ya istehsal edən müəssisələrlə yanaşı, eyni zamanda bu məhsulların ixracını, satışını həyata keçirən, həmçinin bu işi təşkil edən müəssisələr və onların maliyyə hesabatları da aid edilir.

Ziyafət Əsgərov "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edərək bildirib ki, ölkəmizin qoşulduğu "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasında "dəniz ətraf mühiti" ifadəsinin işlənildiyi nəzərə alınaraq, sənəddə müvafiq dəyişikliyin edilməsi təklif olunur.

Sonra komitə sədri "Antiinhisar fəaliyyəti haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Mülki müdafiə haqqında", "Taxıl haqqında", "Milli təhlükəsizlik haqqında", "Dövlət sirri haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verib. Bildirilib ki, sənəddə "Dövlət ehtiyatları haqqında" qanunla tənzimlənən məsələlər müvafiq qanunlardan çıxarılır və bir sıra terminlər dəqiqləşdirilir.

Gündəliyə daxil olan 6 qanun layihəsinin hər biri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda komitə üzvləri Bəxtiyar Sadıqov, Əminə Ağazadə, Elman Məmmədov və digər rəsmi şəxslər iştirak ediblər.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# On bir ayda 6,7 tondan çox narkotik vasitə və psixotrop maddə qanunsuz dövriyyədən götürülüb

**Bu ilin yanvar-noyabr aylarının yekununa dair narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupu tərəfindən ümumiləşdirilib.**

Bu barədə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupundan AZƏRTAC-a məlumat verilib.

Bildirilib ki, bu ilin yanvar-noyabr ayları ərzində hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 9758 cinayət faktı aşkarlanıb. Onlardan 3158-i narkotik vasitələrin qanunsuz satışı, 6276-sı narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 294-ü qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 30-u isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 6 ton 719 kiloqram 31,413 qram narkotik vasitələrin və psixotrop maddələrin 1 ton 886 kiloqram 649,814 qramını heroin, 3 ton 961 kiloqram 758, 574 qramını marixuana, 265 kiloqram 153,968 qramını tiryək, 53 kiloqram 459,642 qramını həşiş, 750,831 qramını kokain, 407 kiloqram 951,329 qramını psixotrop maddələr, 143 kiloqram 307,255 qramını digər narkotik vasitələr təşkil edib. Həmçinin göstərilən dövr ərzində 50901 ədəd həb metadon, 95 ədəd həb psixotrop maddə, 16630 ədəd çətənə bitkisi, eləcə də 3 kiloqram 197,368 qram, 7703 ədəd kapsul, 3591 ədəd həb və 25,55 qram güclü təsir edən maddə, 1 kiloqram 613 qram zəhərli maddə və 65,68 qram prekursor qanunsuz dövriyyədən götürülüb.

Hesabat dövründə Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 420,494 hektar sahədən çəkisi 303 ton 122 kiloqram 290,98 qram olan 944.559 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilib.

Cari ilin 11 ayında qanunsuz dövriyyədən götürülmüş 6 ton 719 kiloqram 31,413 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 269 milyon 290 min manat kimi qiymətləndirilir.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı 7766 nəfər cinayət məsuliyyətinə cəlb edilib, həmin şəxslərdən 7567-si kişi, 199-u qadın olub. Cinayət məsuliyyətinə cəlb edilmiş 89 xarici ölkə vətəndaşından ümumilikdə 695 kiloqram 092,048 qram və 1990 ədəd həb müxtəlif növ narkotik vasitə və psixotrop maddə, 590 ədəd həb güclü təsir edən maddə və 568 ədəd (327 kiloqram 575 qram) narkotik tərkibli çətənə bitkisi götürülüb.

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 266 fakt aşkar edilmiş, həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 3 ton 29 kiloqram 595,76 qram və 8730 ədəd həb metadon, 95 ədəd həb müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr, 90245 ədəd həb, 7631 ədəd kapsul və 1 kiloqram 517 qram güclü təsir edən maddə, 40,682 qram prekursor çıxarılıb.

Aşkarlanmış cinayətlərin 306-sı qrup halında törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 2 ton 132 kiloqram 892,71 qram və 1270 ədəd metadon narkotik vasitə, 32 kiloqram 213,1 qram və 95 ədəd həb psixotrop maddə və 189,9 qram güclü təsir edən maddə müsadirə edilib. 3088 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilib və onlardan 1 ton 469 kiloqram 604,46 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə edilib.

Təhlil göstərir ki, 2022-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə 2023-cü ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 523, narkotiklərin qanunsuz satışı ilə bağlı faktların sayı 209, satışı məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar 149, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 100, digər növ cinayət faktlarının sayı 65, qrup halında olan cinayətlərin sayı isə 57 fakt azalıb. Qaçaqmalçılıqla bağlı cinayətlərin sayı 8 fakt, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı 168 nəfər, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin çəkisi isə 1 ton 466 kiloqram 653,751 qram artıb.

Səhiyyə Nazirliyinin məlumatına əsasən, hesabat dövründə Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 81668 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 2321 nəfərdən 1340 nəfərin istifadəçi olması müəyyən olunub və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilib.

Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə (Respublika Narkoloji Mərkəzində 379, QİÇS-lə Mübarizə Mərkəzində 446, Sumqayıt Narkoloji Mərkəzində 173 nəfər) 990 xəstə müalicə alır.

Respublika QİÇS-lə Mübarizə Mərkəzinin verdiyi məlumata əsasən, ölkədə narkomanların İnsanın İmmunçatışmazlığı Virusuna yeni yoluxma hadisələrinin sayında azalma müşahidə olunur. Ötən 11 ay ərzində İİV-ə 792 nəfər yoluxub. Onlardan 761 nəfəri Azərbaycan vətəndaşları, 31 nəfəri isə əcnəbilər olub. Azərbaycan vətəndaşları arasında 64 nəfər (8,4 faiz) İnyekson Narkotik İstifadəçiləri olub.

Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupu tərəfindən carı ilin yanvar-noyabr ayları ərzində müvafiq istiqamətdə 112 maarifləndirici görüş, 39 təlim, 3 mədəni-kütləvi tədbir, 2 infotur,1 rəsm müsabiqəsi, 7 sosial layihə, 1 veloyürüş və 1 marafon təşkil edilib.

"802 qaynar xətt" telefon zəng xidmətinə 1125 vətəndaş müraciəti daxil olub ki, onların 202-si narkotik vasitələrin qanunsuz dövriyyəsi, 384-ü narkotik asılılıqdan müalicə, 539-u isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izahı, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 586 məktub ünvanlanıb. Belə ki, 802 qaynar xətt zəng xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılıb və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələr götürülüb, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilib, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyə verilib.

# "İnflyasiya və Qiymət Monitorinqi" üzrə İşçi qrupun növbəti iclası

**Dekabrın 14-də "İnflyasiya və Qiymət Monitorinqi" üzrə İşçi qrupun növbəti iclası keçirilib.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparat rəhbəri Rüfət Məmmədovun sədrliyi ilə keçirilən İşçi qrupun iclasında 2023-cü ilin yanvar-noyabr aylarında istehlak bazarında qiymətlərin dəyişməsi, o cümlədən ərzaq və qeyri-ərzaq məhsulları, əhaliyə göstərilmiş ödənişli xidmətlər, ərzaq bazarında idxal olunan məhsulların qiymət indeksi, kənd təsərrüfatı məhsullarının istehsalçı qiyməti, hökumətin antiinflyasiya tədbirləri, habelə ötən iclasda aidiyyəti qurumlara verilmiş tapşırıqların icrası ətraflı müzakirə olunub.

Qeyd olunub ki, Dövlət Statistika Komitəsinin son məlumatına görə, 2023-cü ilin yanvar-noyabr aylarında orta illik inflyasiya birrəqəmli səviyyədə 9.4 faiz, illik inflyasiya 2.6 faiz təşkil edib. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının açıqladığı son məlumata görə, noyabr ayında ərzaq qiymətləri indeksi son bir ildə 10.6 faiz ucuzlaşıb. İnflyasiyanın dinamikası xarici amillərin və həyata keçirilən antiinflyasiya siyasətinin təsirləri ilə azalıb.

İclasda ərzaq məhsulları qrupunda ən çox qiymət artımı müşahidə edilən məhsullar üzrə bazar araşdırılması, istehsal qiymətləri ilə pərakəndə satış qiymətləri arasında fərqlərin yaranma səbəbləri, istehlak qiymətləri indeksinin hesablanmasında istifadə olunan təmsilçi məhsullar üzrə idxalda təmərküzləşmə səviyyəsi, kənd təsərrüfatı məhsullarının satışı və dərman vasitələri bazarında aparılan rəqabət təhlillərinin nəticələri, idxal və yerli istehsal məhsulu əsasında təchizat zənciri boyunca formalaşan xərclər və antiinflyasiya xarakterli pul siyasəti barədə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi və Mərkəzi Bank tərəfindən görülən işlərə dair məlumat verilib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən "Qiymət İzləmə Tətbiqinin" əsas prinsiplərinə dair metodoloji çərçivə sənədi təqdim olunub və bu istiqamətdə aidiyyəti qurumların nümayəndələrindən ibarət işçi qrupun yaradılması məqsədəuyğun hesab olunub.

İclasın yekununda "İnflyasiya və qiymət monitorinqi" üzrə İşçi qrupun rəhbəri tərəfindən növbəti ildə də antiinflyasiya tədbirlərinin davam etdirilməsi, daxili bazarda sağlam rəqabət mühitinin təmin olunması, qiymətlərin monitorinqi və onun səbəblərinin araşdırılması, inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyəsinin təmin edilməsi istiqamətində zəruri işlərin görüləcəyi qeyd olunub. Rəqabət Məcəlləsinin qəbul olunmasının da bu proseslərə müsbət təkan verəcəyi bildirilib.

# Cenevrədə "Neokolonializm: İnsan hüquqları, sülh və təhlükəsizlik" mövzusunda beynəlxalq konfrans keçirilib

**BMT-nin Cenevrədəki ofisində Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə "Neokolonializm: İnsan hüquqları, sülh və təhlükəsizlik" mövzusunda beynəlxalq konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, konfransda Fransanın keçmiş və indiki müstəmləkələrindən olan nümayəndələr rəsmi Parisin bu ölkələrdə davam etdirdiyi yeni kolonializm siyasətinin ağır fəsadları barədə məlumat veriblər. Bildirilib ki, Fransa keçmiş müstəmləkələrinin daxili işlərinə kobud şəkildə müdaxilə edir, bu ölkələrdə sabitliyin pozulması siyasətini həyata keçirir, eyni zamanda hazırda müstəmləkə altında saxladığı ölkələrdə fundamental insan hüquqlarını pozur, bu xalqların təbii sərvətlərini qanunsuz olaraq istismar edir. Təbii ehtiyatlarla zəngin olan bu ölkələrin xalqları Fransadan dəfələrlə çətin şəraitdə yaşayır, işsizlik və yoxsulluq səviyyəsi dəfələrlə yüksəkdir. Fransanın bu ərazilərdə həyata keçirdiyi nüvə sınaqları, uranın zənginləşdirilməsi istiqamətində fəaliyyəti əhalinin səhhətində ciddi fəsadlar yaradıb, ətraf mühitə böyük ziyan vurub. Bu ölkə yerli xalqların süni şəkildə assimilyasiya edilməsi siyasəti və qeyri-qanuni miqrantların bu ərazilərə köçürülməsi ilə yerli xalqların müstəqillik uğrunda mübarizəsini boğmağa çalışır.

Vurğulanıb ki, Fransa 1980-ci ildə özünün də ratifikasiya etdiyi BMT-nin Mülki və Siyasi Hüquqlar haqqında Paktı ilə xalqlar qarşısında götürdüyü bütün öhdəlikləri şüurlu şəkildə pozub. O, nəinki "xalqların öz müqəddəratını təyinetmə hüququnun həyata keçirilməsi"ni "asanlaşdırıb", əksinə, bütün vasitələrlə, o cümlədən ən ədalətsiz yollarla buna qarşı çıxıb.

Konfrans iştirakçıları Fransanın özünün geostrateji mövqeyini möhkəmləndirmək məqsədilə müstəmləkəyə çevirdiyi ölkələri hərbiləşdirməsinə, hərbi bazalarını orada yerləşdirməsinə etiraz ediblər.

İştirakçılar Fransa tərəfindən ölkələrində fundamental insan hüquq və azadlıqlarının pozulması faktlarını sadalayıb, azadlıq uğrunda mübarizədə beynəlxalq təşkilatlar çərçivəsində dövlətlərin səylərinin birləşdirilməsinin vacibliyini qeyd ediblər. BMT institutları və Qoşulmama Hərəkatı çərçivəsində hüquqi əsasda mübarizənin davam etdirilməsinin vacibliyi diqqətə çatdırılıb. Konfransda Fransanın dənizaşırı ərazilərinin təmsilçiləri Qoşulmama Hərəkatının sədri kimi Azərbaycandan bu istiqamətdə onlara dəstək göstərilməsini xahiş ediblər.

Konfransın sonunda Yekun Bəyannamə qəbul edilib.

İştirakçılar onlara göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə, eləcə də Bakı Təşəbbüs Qrupunun üzvlərinə dərin təşəkkürlərini ifadə ediblər.

Qeyd edək ki, bu, Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə 2023-cü ildə keçirilən və kolonializmə qarşı mübarizə aparan, azad olmağa çalışan xalqlara həsr olunmuş IV beynəlxalq konfransdır.

# Cenevrədə keçirilən "Neokolonializm: İnsan hüquqları, sülh və təhlükəsizlik" mövzusunda konfransın iştirakçıları Yekun Bəyannamə qəbul ediblər

Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə BMT-nin Cenevrə ofisində keçirilən "Neokolonializm: İnsan hüquqları, sülh və təhlükəsizlik" mövzusunda beynəlxalq konfransın Yekun Bəyannaməsi qəbul olunub.

AZƏRTAC bəyannaməni təqdim edir:

"1960-cı il dekabrın 14-də yenicə suverenlik əldə etmiş ölkələrin təşəbbüsü ilə BMT Baş Assambleyası "Müstəmləkə ölkələrinə və xalqlarına müstəqilliyin verilməsi haqqında Bəyannamə" adlı 1514 (XV) saylı qətnamə qəbul edib.

Bu qətnamədən əvvəl 1952-ci il dekabrın 16-da "Xalqların öz müqəddəratını təyinetmə hüququ haqqında" 637 (VII) saylı qətnamə qəbul edilib.

1960-cı il 14 dekabr tarixli qətnamədən 63 il sonra Fransa imperiyasının mənimsədiyi son müstəmləkə ölkələrinin (Polineziya, Yeni Kaledoniya, Martinika, Fransız Qvianası, Qvadelupa, Korsika, Mayot) əhalisi, keçmiş müstəmləkələrdən Seneqal və Əlcəzairin nümayəndələri və təxminən on beş başqa ölkədən iştirakçılar aidiyyəti ölkələrdə müstəmləkə sisteminin hələ də davam etdiyini bir daha təsdiqləmək, eləcə də azadlıq və demokratiya dəyərlərini uca səslə iddia edən və əsas hüquqları pozan Fransa dövlətinin siyasətini pisləmək üçün bir araya gəliblər.

Avropanı birbaşa müstəmləkəçiliyə son qoymağa məcbur etmiş Afrika və Asiyadan milyonlarla insanın mübarizələri, eləcə də fundamental insan hüquqlarını kobud və davamlı şəkildə pozmaqla keçmiş müstəmləkə imperiyaları və onların tərəfdaşları olan azsaylı güclü dövlətlər planetin böyük bir hissəsi üzərində iqtisadi, maliyyə, siyasi, hərbi və mədəni hökmranlığını qoruyub saxlayan dünya nizamı sistemi qurmuşlar.

Bu güclərin eqoist maraqlarına, qəddar gücə və ikili standartlar siyasətinə əsaslanan beynəlxalq hüquq, əslində müstəmləkə və yeni müstəmləkə hökmranlığı altında olan insanlara təsir göstərən struktur bərabərsizlik və ağlasığmaz ədalətsizlik nümunələrindən biridir.

I. Bakı Təşəbbüs Qrupunun təşəbbüsü ilə 2023-cü il dekabrın 14-də Cenevrədə təşkil olunmuş və Fransanın son müstəmləkələri olan Fransız Qvianası, Martinika, Qvadelupa, Polineziya, Yeni Kaledoniya, Korsika, eləcə də Seneqal, Əlcəzair kimi keçmiş koloniyaların nümayəndələri və təxminən on beş başqa ölkədən olan iştirakçılar dənizaşırı departamentlər, regionlar və kollektivlər süni hüquqi pərdə arxasında real hökmranlığı davam etdirən fransız müstəmləkə sisteminin ziyanlı əməllərini pisləyirlər və bu dominasiyanın davam etməsini aşağıdakı formada xarakterizə edirlər:

- Fransa inhisarlarının xeyrinə əhalinin həddindən artıq ərzaq asılılığını (ərzaq məhsullarının 80 faizdən çoxu Fransadan gəlir), həyatın yüksək qiymətini təşkil edən düşünülmüş zəif iqtisadi inkişaf strategiyasının aidiyyəti ölkələrdə həyata keçirilməsi; yoxsulluq (Fransız Qvianası əhalisinin 50 faizi yoxsulluq həddində yaşayır) və kütləvi işsizlik, beləliklə, bu ərazilərin gələcəyini ciddi şəkildə təhlükə altına alan hər cür sui-istifadələrin (zorakılıq, silah və narkotik ticarəti) həyata keçirilməsi;
- Fransız Qvianası yerli xalqlarının əsas hüquqlarının pozulması;
- Fransız mədəniyyəti hegemonluğu institutları və getdikcə yoxa çıxmaq təhlükəsi altında olan yerli dilləri arxa plana keçirən və xalqlarımızın tarixinə, coğrafiyalarımıza uyğun gəlməyən fransız məktəb proqramlarını uşaqlarımıza tətbiq edən assimilyasiya siyasəti nə xalqlarımızın tarixinə, nə coğrafiyamıza, nə mədəniyyətlərimizə, nə də gələcəyimiz üçün ambisiyalarımıza uyğun gəlir;
- Torpaqların zəbt edilməsi (Fransız Qvianası torpaqlarının 90 faizi Fransa dövlətinə aiddir), milyonlarla kvadratkilometr Eksklüziv İqtisadi Zonalarımıza (ZEE) nəzarət (bu, Fransanı 11 milyon kvadratkilometr ZEE ilə dünyada ikinci dəniz gücü edir) və onilliklər ərzində gənclərimizin Fransaya deportasiyası siyasəti vasitəsilə Qvadelupa və Martinikada görünməmiş bir demoqrafik böhrana, təbii ehtiyatların talanmasına böyük töhfə verən məskunlaşma müstəmləkəsi;
- Fransız hüquqi dövləti adı altında bütün müqavimət hərəkatlarını cinayətləşdirən və rüşvətxorları qoruyan ikisəviyyəli müstəmləkə ədliyyə sisteminin yaradılması (Martinika və Qvadelupada xlordekon zəhərlənməsi və torpaq istilasına qarşı mübarizə aparan gənclərin həbsi, korsikalılar üçün onların siyasi dustaq statusunu tanımadan onları mühakimə edən və onların dustaqlıq şəraitinə qeyri-bərabər münasibət göstərən müstəsna yuridiksiyaların yaradılması);
- Qvadelupada Mayotda içməli suya çıxışın çətinlikləri və Qvadelupa və Martinika əhalisinin 92 faizinin xlordekon zəhərlənməsi ilə bağlı böyük səhiyyə qalmaqalı, Muruoa və Fanqataufada nüvə sınaqları cinayəti, Qayanada çay suyunun civə ilə kütləvi çirklənməsi kimi çoxsaylı yaşamaq hüququ pozuntuları;
- Xalqlarımızla zərrə qədər də məsləhətləşmədən ölkələrimizdən böyük Qərb dövlətlərinin Hind-Sakit okean zonasından (Polineziya, Yeni Kaledoniya), eləcə də Karaib-Amerika zonasından (Fransız Qvianası, Martinika, Qvadelupa) və Korsikadan (Solenzara bazası) müharibə hazırlıqlarında geostrateji hərbi bazalar kimi istifadə edilməsi;

II. 1960-cı il dekabrın 14-də "Müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında Bəyannamə"nin anım mərasimi çərçivəsində son fransız müstəmləkələrinin nümayəndələri tarix, eləcə də xalqları qarşısında məsuliyyətlərini dərk edərək,

- Birləşmiş Millətlər Təşkilatına, beynəlxalq qurumlara və bütün qitə xalqlarına əsas insan hüquqlarının açıq şəkildə pozulması və xalqların inkişafı, əhalinin rifahı və xalqlar arasında sülhə mane olan, mahiyyət etibarilə fundamental insan hüquqlarının kobud şəkildə pozulmasını təşkil edən müstəmləkəçiliyə və neokolonializmə qəti şəkildə son qoyulmasına daha fəal töhfə vermək üçün rəsmi müraciət irəli sürüblər;
- Müstəmləkəçilik siyasəti ilə müstəmləkə ölkələrində yerli xalqlara qarşı törətdiyi cinayətlərə və Karib dənizi və Amerikada köləyə çevrilmiş milyonlarla afrikalının deportasiyasına səbəb olan transatlantik köləliyə görə ədalətli təzminat tələb edirlər;
- FLNKS-nin Beynəlxalq Ədalət Məhkəməsinə müraciəti və milli müstəqillik kimi ayrılmaz hüquqlarını həyata keçirmək üçün Kanak xalqının Fransa dövlətinə qarşı səfərbər edilməsini dəstəkləyirlər; onlar Martinika, Qvadelupa, Korsika və Fransız Qvianası xalqlarının öz ölkələrinin müstəmləkəsizləşdiriləcək ölkələr siyahısına daxil edilməsini və ya yenidən siyahıya alınmasını dəstəkləyirlər;
- Nüvə sınağı cinayəti ilə üzləşmiş Polineziya xalqı, eləcə də Fransada bir neçə onilliklərdir qadağan edilməsinə və yüksək kanserogen olmasına baxmayaraq, Fransa dövlətinin istifadəsinə icazə verməklə tam məsuliyyət daşıdığı xlordekon zəhərlənməsi cinayəti ilə bağlı ədalətin bərpası və Martinika, Qvadelupa xalqlarına təzminat ödənilməsi tələbi ilə həmrəy olduqlarını bildirirlər.
- Müharibə riskləri kontekstində, sülh naminə qlobal demilitarizasiyaya və Sakit Okean və Karib dənizi koloniyalarında Fransa bazalarının ləğvinə çağırırlar;
- Planetimizin tərəqqisi və insanın emansipasiyası üçün vacib şərtlərdən biri olan qadınların fundamental iqtisadi, sosial və siyasi hüquqlarına hörmət olunmasını təkid edirlər;

III. Müharibələr, artan beynəlxalq gərginlik, silahlanma yarışının yenidən başlanması, qlobal istiləşmə, davam edən geostrateji təlatümlər nəticəsində baş verə biləcək indiki və gələcək fəlakətlərlə dolu qlobal kontekstdə Bakı Təşəbbüs Qrupu və müstəmləkə və neokolonial hökmranlıq altında olan xalqların nümayəndələri

- Mali, Burkina Faso və Niger xalqlarının öz sərvətlərinin talanmasından, fransız imperialist hökmranlığından xilas olmaq üçün apardıqları mübarizəni alqışlayırlar;

- Ədalətə, hər cür hökmranlıqdan imtinaya, qarşılıqlı hörmətə və insan həmrəyliyinə əsaslanan xalqlar arasında həqiqi qlobal əməkdaşlığa çağırırlar.

IV. Cenevrədə keçirilən bu toplantının bütün iştirakçıları gələn il COP29-a evsahibliyi etmək missiyası həvalə edilmiş Azərbaycan Respublikasını ürəkdən təbrik edirlər. Onlar əmindirlər ki, Azərbaycan bu qlobalmiqyaslı və planetimizin gələcəyi üçün vacib olan hadisə çərçivəsində həm qlobal istiləşmə, həm də müstəmləkəsizləşdirmə çağırışlarını nəzərə alacaq.

# Sülhə yaxınlaşırıq

## Əsirlərin dəyişdirilməsi Azərbaycanla Ermənistan arasında vasitəçiyə ehtiyac olmadığını göstərir

**"Regionda sülhün bərqərar olması üçün humanist addımların atılması mühüm əhəmiyyət kəsb edir. Bir neçə gün əvvəl Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında danışıqlar aparılması nəticəsində humanizm prinsiplərinə sadiqlik nümayiş etdirilərək, Azərbaycan tərəfindən 32 erməni hərbçinin, Ermənistan tərəfindən isə iki azərbaycanlı hərbçinin azad edilməsi barədə razılıq əldə olundu".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat xatırladıb ki, Ermənistana qaytarılmış 32 nəfərin 26-sı 2020-ci ilin dekabrında Hadrut istiqamətində keçirilmiş antiterror tədbirləri zamanı həbs edilənlər, qalanı isə müxtəlif vaxtlarda sərhədi keçərkən saxlanılanlardır ki, onlar da cəzalarının böyük hissələrini çəkiblər. A.Nağıyev diqqətə çatdırıb ki, 32 nəfərlik siyahıya Azərbaycan xalqına qarşı müharibə cinayətləri və bəşəriyyət əleyhinə cinayət törətmiş qondarma rejimin rəhbərləri daxil deyillər.

Əsirlərin dəyişdirilməsinin əhəmiyyətindən bəhs edən deputat qeyd edib ki, bu mübadilə gələcəkdə iki ölkə arasında sülhün bərqərar olması baxımından əhəmiyyətlidir. "Dumanlı şəraitdə yolu azaraq Naxçıvan tərəfdən Ermənistana keçmiş iki azərbaycanlı hərbçi əsir götürülərək onlara qarşı bir sıra cinayətlərin törədilməsinə dair saxta ittihamlar irəli sürülmüş, qurama məhkəmələrin qərarları əsasında həbs olunmuşdular. 44 günlük Vətən müharibəsindən, həmçinin bu ilin antiterror tədbirlərindən sonra Azərbaycan ərazisinə keçərək təxribatlar törətməyə cəhd edən bir qrup erməni hərbçi də saxlanılmışdır", - deyə A.Nağıyev əlavə edib. O bildirib ki, Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılığa əsasən, bu mübadilə humanist bir addımdır və gələcəkdə iki ölkə arasında sülh müqaviləsinin imzalanması istiqamətində atılacaq addımlarda çox mühüm əhəmiyyət kəsb edəcək. Bundan başqa, Ermənistan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf dövlətlərin 29-cu konfransına evsahibliyinə öz namizədliyini geri götürərək Azərbaycanın namizədliyini dəstəkləyib. Bu da çox mühüm addımdır və Azərbaycan-Ermənistan arasında, həmçinin regionda sülhün bərqərar olması üçün önəmli bir hadisədir. Deputat əlavə edib ki, mübadilə prosesi vaxtilə Xocalıda, Xankəndidə cinayət törətmişlərə və separatçıların rəhbərliyinə şamil olunmur. "Cənab Prezidentin bu humanist addımı iki hərbçimizin ailəsinə böyük sevinc, səadət, xoşbəxtlik gətirdi. Bu, dövlətimizin əsgərinə, zabitinə, Vətən keşiyində duran hər bir şəxsə qarşı atdığı humanist addımdır və təqdirəlayiq hal kimi dəyərlənməlidir", - deyə o bildirib.

Mübadilənin heç bir vasitəçi olmadan Azərbaycan və Ermənistan arasında birbaşa danışıqlar nəticəsində baş tutduğunu xatırladan A.Nağıyev regionda sülhün bərqərar olması üçün vasitəçilər olmadan addımlar atmağın mümkünlüyündən də bəhs edib. O vurğulayıb ki, istər ABŞ, istər Qərb dövlətləri vasitəçilik missiyasını həyata keçirərək özlərinin bu rolundan istifadə etməyə, bu və ya digər şəkildə Cənubi Qafqazda aparılan siyasətə öz təsirlərini göstərməyə çalışırlar. Lakin Azərbaycanın öz daxili və xarici siyasəti var, birbaşa danışıqlar da bunun təzahürüdür.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın hərbi-siyasi gedişlərinin uğurlu nəticəsi

**Azərbaycan xoşməramlı addım olaraq 32 erməni hərbçini, Ermənistan isə 2 azərbaycanlı hərbçini azad edib. Bu, Azərbaycanla Ermənistan arasında etimad mühitinin yaradılması istiqamətində atılmış mühüm addımdır. Prezident İlham Əliyevin uğurlu hərbi-siyasi gedişlərinin və diplomatik bacarığının nəticəsi kimi təzahür edən əsir mübadiləsi iki ölkə arasında sülh müqaviləsinin imzalanması ehtimalını da artırır.**



Bu mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş nazirinin Aparatının dekabrın 7-də birgə açıqlamasında da ifadə olunduğu kimi, artıq hər iki ölkə regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün tarixi fürsətin yarandığı fikrini bölüşərək münasibətləri normallaşdırmaq, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında sülh sazişinə nail olmaq niyyətini bir daha təsdiq edir: "Bu gün əsirlərin mübadiləsi etimad quruculuğu prosesində mühüm addım, bizi yekun sülhə yaxınlaşdıran ciddi amil kimi dəyərləndirilə bilər. Əsirlər arasında say nisbətinə gəlincə, unutmamalıyıq ki, bu, əsirlərin dəyişdirilməsi yox, humanizm dəyərlərinin rəhbər tutularaq etimad quruculuğuna yönəlik və sülhü hədəfləyən xoşməramlı addımdır. Həmçinin Azərbaycan tərəfi xalqa və dövlətə qarşı konkret cinayətlərə görə ittiham olunan şəxsləri, o cümlədən separatçıların liderləri və digər terrorçuları təhvil vermir".

Deputat qeyd edib ki, əsirlərin mübadiləsi 7 dekabr birgə bəyanatının ardınca Qafqazda sülhə doğru aparan ikinci addımdır: "Razılığa müvafiq olaraq, bundan öncə Ermənistan COP29-a evsahibliyinə öz namizədliyini geri götürərək, Azərbaycanın namizədliyini dəstəkləmişdi. Azərbaycan isə xoş niyyətin təzahürü olaraq, Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyinə dəstək vermişdi. Əlbəttə, bu kimi nəticələr iki ölkə arasında qarşılıqlı etimadın yaradılmasına töhfə verir. Beynəlxalq ictimaiyyət də bu səyləri dəstəkləməlidir".

Bəhruz Məhərrəmovun sözlərinə görə, mövcud situasiya proseslərin təbii axarının nəticəsi deyil, bu reallığa Prezident İlham Əliyev hərbi-siyasi yolla nail olub. Əgər Azərbaycanın istər Vətən müharibəsindəki qələbəsi, dövlət başçısının qətiyyəti ilə aprel ayında Laçın sərhəd-buraxılış məntəqəsinin təsis edilməsi olmasaydı, habelə antiterror tədbirləri ilə cəmi 23 saata separatizmə öldürücü zərbə vurulmasaydı, bu gün etimad quruculuğu prosesi və yekun sülhə doğru real addımlardan danışa bilməzdik.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Azərbaycan və Qazaxıstan arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub

**Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə işgüzar səfərdə olan Qazaxıstan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini - Əməliyyat Planlaşdırılması Departamentinin rəisi general-mayor Marat Aymaşevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyəti əvvəlcə Şəhidlər xiyabanına gələrək ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, üzərinə gül dəstələri düzüb, xatirələrinə ehtiram nümayiş etdirib.

General-polkovnik K.Vəliyev qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Azərbaycan və Qazaxıstan arasında ikitərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib. Bu cür görüşlərin hərbi əməkdaşlığın genişləndirilməsi baxımından zəruriliyi xüsusi vurğulanıb.

Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən general-mayor M.Aymaşev qarşılıqlı təcrübə mübadiləsinin vacibliyini diqqətə çatdırıb.

Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilib.

Qazaxıstanlı nümayəndə heyəti daha sonra Əməliyyat Baş İdarəsinə gəlib. Baş idarə rəisi general-leytenant Azər Əliyevlə keçirilən görüşdə hərbi və hərbi təhsil sahələrində əməkdaşlığa, o cümlədən 2024-cü il ərzində birgə təlimlərin keçirilməsinə dair geniş fikir mübadiləsi aparılıb.

Sonda Müdafiə Nazirliyinin və Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda məntəqələrinə, Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzinə gələn qonaqlara buranın əsas fəaliyyət istiqamətləri, imkan və qabiliyyətləri barədə ətraflı məlumatlar verilib.



# MÖHTƏŞƏM 20 İL 2003 2023

# Xalqına və dövlətinə xidmət etməkdən şərəf duyan Prezident

**Bu gün Azərbaycan dünyada sabitlik və inkişaf dövrünü yaşayan ölkə kimi tanınır. Bu inkişafın qarantı, qazanılan uğurların memarı birmənalı olaraq Prezident İlham Əliyevdir. Dövlət başçısının siyasi qətiyyəti, iradə və cəsarəti nümunəvi iqtisadi siyasət yürütməyə, idarəçilik modeli isə Azərbaycanın inkişaf yolunda iri addımlar atmağa imkan verir.**



Ötən iki onillikdə Azərbaycan bütün sahələrdə inkişaf edib, çoxsaylı uğurlara imza atıb. 2003-cü ildə İlham Əliyevin prezident seçildiyi ilk gündən həyata keçirdiyi sosial-iqtisadi siyasətin nəticəsidir ki, bu gün Azərbaycan regionun ən güclü dövləti kimi bütün sahələrdə müqayisəyəgəlməz inkişafa nail olub. Həmin il oktyabrın 31-də keçirilən andiçmə mərasimində Ulu Öndərin siyasətini davam etdirəcəyini bəyan edən İlham Əliyev demişdir: "Biz neft strategiyasını davam etdirərək, qısa müddət ərzində ölkəmizi hərtərəfli inkişaf etdirəcəyik. Xüsusilə qeyri-neft sektoruna böyük diqqət göstəriləcəkdir. Yeni zavodlar, fabriklər istifadəyə veriləcəkdir. Sahibkarlığın inkişafı üçün tədbirlər planı, Azərbaycanda iqtisadi inkişaf proqramı hazırlanır. Bu çoxşaxəli inkişaf proqramı Azərbaycanı qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan verəcəkdir. Bizdə bütün imkanlar - təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik". Nitqinin sonunda söylədiyi "Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm. Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik" fikirləri isə İlham Əliyevin gələcək yolunun anonsu oldu.

Dövlət başçısının verdiyi sözə əməl etməsinin nəticəsində birinci prezidentlik dönəmində Azərbaycanda ümumi daxili məhsul istehsalı 7,3 milyard manatdan 30,7 milyard manatadək yüksəldi. Adambaşına düşən ümumi daxili məhsulun həcmi 5800 dollara çatdı ki, bu da keçid dövründə yaşayan dövlət üçün çox böyük rəqəm idi. Həmin dövr iqtisadi artım sürətinə görə dünyada öncül yerlərdə qərar tutan Azərbaycanda sənaye məhsulları istehsalı 2,7 dəfə artdı. Yenə də statistikaya müraciət edək: Azərbaycan iqtisadiyyatına 44 milyard dollar sərmayə qoyuluşu nəticəsində İlham Əliyevin birinci prezidentliyi dövründə qeyri-neft sektorunun inkişafında böyük uğurlar əldə edildi, minimum pensiya 4, minimum əməkhaqqı 8, orta əmək haqqı 3,6 dəfə artdı. Əgər 2003-cü ildə yoxsulluq şəraitində yaşayanların sayı əhalinin 49 faizini təşkil edirdisə, 2008-ci ilin yekunlarına görə, bu rəqəm 14 faizə düşdü.

Məlumdur ki, hər bir ölkənin siyasi müstəqilliyinin təmin olunması və qlobal miqyasda nüfuzunun artması böyük dərəcədə onun iqtisadi inkişaf səviyyəsindən asılıdır. Müasir dünya iqtisadiyyatını mükəmməl bilən Prezident İlham Əliyev hələ 2003-cü ildə seçkiqabağı təbliğat-təşviqat kampaniyası çərçivəsində bəyan etmişdi ki, əgər biz iqtisadi müstəqilliyə nail olmasaq, siyasi müstəqilliyimiz də yarımçıq olacaq. Azərbaycan ötən 20 ildə bunların hər birinə nail oldu. Dönüb arxaya baxanda həmin dövrün iqtisadi göstəriciləri hər bir vətəndaşda ruh yüksəkliyi yaradır, ölkədəki yerüstü və yeraltı sərvətin sosial rifaha xidmət etdiyi görünür.

Yenə də rəqəmlərə müraciət edək. Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycan 2002-2022-ci illərdə yuxarı orta gəlirli ölkələr qrupuna daxil olub. Son 20 il ərzində ümumi daxili məhsul (ÜDM) istehsalı 6,2 milyard dollardan 78,7 milyard dollara çatıb, ÜDM-nin real həcmi 4 dəfə artıb. Adambaşına ÜDM 769 dollardan 7798 dollara yüksəlib. Qeyri-neft-qaz ÜDM-i 4,1 milyard dollardan 41,1 milyard, ölkənin xarici ticarət dövriyyəsi 3,8 milyard dollardan 52,7 milyard dollaracan artıb. İxracın həcmi 2,2 milyard dollardan 38,1 milyard, qeyri-neft məhsullarının ixracı 0,26 milyard dollardan 3,05 milyard dollara yüksəlib. Xarici ticarətin profisiti isə 0,5 milyard dollardan 23,6 milyard dolları dək artıb. 2003-2022-ci illər ərzində Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalı 2,2 dəfə çoxalıb. Ölkəmizin strateji valyuta ehtiyatları da 1,4 milyard dollardan 58,5 milyard dollara çatıb.

Bütün bu statistik rəqəmlər quru görünsə də, bir dövlətin 20 ildə əldə etdiyi inkişafda payı olan xalqın xoşbəxtliyinə hesablanmış iqtisadi göstəricilərdir. Həmin göstəricinin məntiqi davamını dövlət başçısının soylədiyi bu fikirlərdə görmək mümkündür: "Azərbaycan müasir, güclü dövlətə çevrilməlidir. Bunu etmək üçün bizim bütün imkanlarımız var: həm iqtisadi, həm siyasi imkanlar, həm də insanların intellektual səviyyəsi, dövlət siyasəti, dövlətin iradəsi və açıq-aydın görünən gələcəyin üfüqləri".

Bu gün Azərbaycan hər mənada qalib dövlətdir. Qalib dövlətin Zəfər sevincini xalqına yaşadan Prezident İlham Əliyev iqtisadi siyasətin konturlarını isə hələ 20 il əvvəl çəkmişdi. Güclü iqtisadiyyat yaratmaq üçün çəkilmiş konturların müəllifi ötən iki onillikdə iqtisadiyyatı şaxələndirməyə, neft-qaz sektorundan asılılığı azaltmağı nail olub. Məhz həmin güclü iqtisadiyyat sahəsində əhalinin rifahı, ölkənin sabitliyi və dövlətin təhlükəsizliyi təmin edilib. Və bir də ən yaxın tarixdə baş verən Vətən müharibəsində Böyük Zəfər qazanılıb. Güclü iqtisadiyyat Azərbaycanın milli maraqlarına uyğun siyasət aparmağın da təminatçısıdır. Bu siyasətin müəllifi isə müdrik, praqmatik, güclü Prezident İlham Əliyevdir. Dövlət başçısı 20 il əvvəl verdiyi vədinə heç vaxt xilaf çıxmadı. Hər gün, hər saat, hər an güclü Azərbaycan dövləti yaratmaq üçün çalışdı, xalqına və dövlətinə xidmətdən şərəf duydu.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan yoxsulluğa "yox" deyir

## Prezident İlham Əliyevin sosial-iqtisadi islahatları sayəsində ölkədə yoxsulluğun səviyyəsi 5,5 faizə enib

**Azərbaycan dövlətinin siyasətinin mərkəzində vətəndaşın maraqları, sosial rifahı dayanır. Odur ki, ölkə iqtisadiyyatı yeni zirvələrə çatdıqca buna paralel olaraq sosial sahə də inkişaf etdirilir. Prezident İlham Əliyev hələ neçə il bundan əvvəl bildirmişdi ki, ölkənin iqtisadi gücü artdıqca insanların sosial müdafiəsi daha da güclənəcək, onların maddi rifah halına daha çox vəsait ayrılacaq. Bu gerçəkliyi indi hər bir vətəndaş öz gündəlik həyatında hiss edir.**



Dövlət başçısının həyata keçirdiyi sosial islahatların uğurunu insanların yaşayışına aid bütün sahələrdə - məşğulluq probleminin həllində, maaşların və pensiyaların artırılmasında, səhiyyə və təhsildə, sosial infrastrukturda, digər istiqamətlərdə reallaşdırılan çoxsaylı layihələrdə aydın görmək mümkündür. Bu işlərə vaxtilə Ulu Öndərimiz Heydər Əliyev başlamış və onlar Prezident İlham Əliyev tərəfindən ardıcıllıqla, böyük müvəffəqiyyətlə davam etdirilməkdədir. Odur ki, ölkədə yoxsulluğun 1996-cı illərin ikinci yarısından başlayaraq, xüsusilə də son 20 ildə sürətlə azaldılması təmin edilib.

Xatırladaq ki, Ümummili Lider Heydər Əliyevin səyləri nəticəsində 1996-2002-ci illər ərzində Azərbaycanda ümumi daxili məhsul 1,7, iqtisadiyyata kapital qoyuluşu 7,8, əhalinin nominal pul gəlirləri 3, orta aylıq əməkhaqqı və pensiya 5 dəfə artmışdır. Lakin ondan əvvəlki dövrdə yaranmış gerilik belə tez bir zamanda ölkədə iqtisadiyyatın yüksək inkişaf səviyyəsini və əhalinin beynəlxalq standartlara uyğun həyat tərzini tam təmin etməyə imkan verməmişdir. Odur ki, Ulu Öndər 2023-cü il fevralın 20-də "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında fərman imzalamışdır.

Proqramın həyata keçirilməsi nəticəsində 2005-ci ildə yoxsulluq səviyyəsi 2002-ci ildəki 46,7 faizdən 29,3 faizə düşmüşdür. Prezident İlham Əliyevin bu sahədə də apardığı ardıcıl siyasətin nəticəsində 2007-ci ilin axırına yoxsulluq səviyyəsi artıq 15,8 faizə enmişdir.

2008-ci il sentyabrın 15-də isə Prezident "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzaladı. Bu sənəd əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində əldə olunmuş nailiyyətləri davam etdirmək, yoxsulluq səviyyəsinin daha da azaldılmasını, habelə bununla bağlı BMT-nin qəbul etdiyi "Minilliyin İnkişaf Məqsədləri"ndən irəli gələn vəzifələrin ölkəmizin xüsusiyyətləri nəzərə alınmaqla yerinə yetirilməsini təmin etmək məqsədini daşıyırdı.

Yoxsulluğun azalmasında regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramları misilsiz rol oynadı. Bölgələrin tarazlı inkişafı təmin edildi, təkcə iri şəhərlərdə deyil, rayonlarda da çoxsaylı sənaye, emal, xidmət müəssisələri açıldı. Unudulmuş, tənəzzülə uğramış kənd təsərrüfatı sahələrinin dirçəldilməsi ilə minlərlə insanın məşğulluq problemi həll olundu. 2004-cü ildən bəri regionlarda 52 mindən artıq yeni müəssisənin açılması və burada milyonlarla iş yerinin yaradılması şərhə ehtiyacı olmayan faktdır. Yeri gəlmişkən, qeyd edək ki, təkcə bu ilin birinci yarısında ölkədə 38,9 min yeni iş yeri açılıb.

Son illərdə özünüməşğulluq proqramının həyata keçirilməsi, ictimai iş yerlərinin yaradılması kimi addımlar da yoxsulluğun azaldılmasına dəstək verir. Belə ki, insanlar ələbaxımlıqdan uzaq olur, dövlətin köməyi ilə özləri şəxsi bizneslərini quraraq dolanışıqlarını təmin edirlər. Hərçənd dövlət öz dəstəyi ilə, sosial yardımları, müavinətləri, təqaüd və pensiyaları ildən-ilə artırmaqla da daim vətəndaşının yanındadır.

Son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) dörd dəfə artıb. Ölkəmizin həyata keçirdiyi qlobal neft-qaz və ixrac layihələri Avropanın enerji xəritəsini dəyişdirib. Ölkə iqtisadiyyatının bel sütununu təşkil edən "Azəri-Çıraq-Günəşli" yataqları milyardlarla dollar gəlir gətirib. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, üç böyük boru xəttinin birləşməsindən yaranan "Cənub qaz dəhlizi" bir çox ölkənin enerji təhlükəsizliyində mühüm rol oynayaraq Azərbaycanın iqtisadi qüdrətini getdikcə daha da artırır. Bu layihələr ölkəmizə rifah gətirir və dövlətimiz eyni zamanda uğurlu sosial siyasət yeridərək neft kapitalını insan kapitalına çevirib. Elə keçən ay Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində bu məsələyə də toxunaraq dedi: "Son 20 ildə biz yoxsulluq səviyyəsində yaşayan əhalinin sayını təqribən 50 faizdən 5,5 faizə endirə bilmişik. Bu onu nümayiş etdirir ki, enerji layihələrinin həyata keçirilməsi nəticəsində əldə edilmiş sərvət əhalimizin bütün seqmentləri arasında ədalətli bölünüb".

Yoxsulluğun minimuma endirilməsi prioritet olaraq qalır. Təsadüfi deyil ki, "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də bu məsələ özünə geniş yer alıb. Burada dövlətin vətəndaşın rifahını nə qədər yüksək tutması bir daha aydın görünür. Qeyd edilir ki, davamlı və yüksək iqtisadi artım dinamik və inklüziv cəmiyyətin formalaşmasına xidmət etməli, hər bir vətəndaş öz həyatında bu inkişafı hiss etməlidir. İnsanların sosial statusundan və yaşadığı ərazidən asılı olmayaraq iqtisadi imkanlara çıxışı bərabər və ədalətli olmalıdır. İnkişafdan hər bir vətəndaşın bəhrələnməsi yenə də diqqət mərkəzindədir. Dövlət yüksək inkişaf üçün yalnız iqtisadi artımı deyil, cəmiyyətin bütün üzvlərinin sosial rifahını mühüm amil sayır: "İqtisadiyyat inkişaf etdikcə vətəndaşların sərvət və gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılaraq layiqli səviyyəsi təmin edilməli, əməkhaqqının artımı əmək məhsuldarlığının artımı ilə uzlaşdırılmalıdır. Ölkədə artan gəlirlər daha geniş iqtisadi imkanlar yaratmalı, bütün əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunmalı, xüsusilə qadınların iqtisadi imkanlara çıxışı yaxşılaşmalıdır... İqtisadiyyatın davamlı inkişafı gəlirlərin ədalətli bölgüsünü təmin etməli, əhalinin aşağıgəlirli təbəqəsinin sosial-iqtisadi rifahını artırmalıdır".

"Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" bir daha təsdiqləyir ki, ölkənin bütün təbəqələri cəmiyyətin ayrılmaz hissəsidir və dövlət onların qayğısına qalır. Ölkədə yoxsulluq səviyyəsinin minimuma endirilməsi və aşağı işsizlik səviyyəsi, eləcə də yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı yardımların əhatə dairəsinin genişləndirilməsi vətəndaşların sosial müdafiəsinə əlavə imkanlar yaradır. Bundan sonra da "sosial təminat sisteminin daha effektiv və ədalətli olması hesabına aşağıgəlirli və yoxsulluğa həssas təbəqənin, əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların sosial müdafiəsi və sosial təminatı gücləndirilməlidir. Bu məqsədlə ölkədə pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin minimum məbləğlərinin layiqli səviyyəsinə nail olunmalıdır. Pensiya təminatı sisteminin uzunmüddətli inkişafı üçün onun maliyyə dayanıqlığı gücləndirilməli, pensiya məbləğinin ödənilən sığorta haqqına mütənasibliyi artırılmalıdır". Sözügedən sənəddə həmçinin əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar üçün tələb olunan sosial reabilitasiya infrastrukturunun əlçatan olması, bu şəxslərin məşğulluğuna dəstək proqramlarının genişləndirilməsi, sosial təminatının gücləndirilməsi nəzərdə tutulur. Qeyd edək ki, sosial cəhətdən həssas əhali qruplarının maraq və mənafelərinə cavab verən, onlara bərabər iştirak imkanları yaradan sosial xidmətlər sistemi təmin olunmalıdır.

Deyilənlərə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin bu ilin əvvəlində dediyi fakt və rəqəmləri əlavə etmək istərdik: "Hazırkı paket son beş ildə həyata keçirilən dördüncü sosial islahat paketidir. Bundan qabaq əvvəlki üç sosial islahat paketi ümumilikdə 40 faizi əhatə edib. Bu məqsədlə 6 milyard manatdan çox vəsait ayrılmışdı və onların hər birində ilk növbədə əməkhaqqı sistemi önə çəkilirdi. Birinci növbədə vətəndaşların məşğulluğu, aşağı əməkhaqqının artırılması, aşağı əməkhaqqı alanlara əlavə dəstək verilməsi yolunu tuturuq. İkinci seqment hər zaman pensiyaçılar və onların pensiyalarının artırılmasıdır. Əgər rəqəmlərə nəzərə salsaq, 2018-ci ildə minimum əməkhaqqı Azərbaycanda 130 manat idi, bu gün artıq 345 manatdır. Minimum pensiya Azərbaycanda 110 manat idi, artıq 280 manata çatıb. Bunun üzərindən orta aylıq əməkhaqqı və orta pensiyaya da nəzər saldıqda çox ciddi şəkildə artımları görürük. Bununla yanaşı, pensiya almayan, amma sosial cəhətdən həssas olan böyük bir kəsim var: əlilliyi olan və müavinətlər alanlar, müxtəlif növ Prezident təqaüdü alanlar, şəhid ailələri, çoxuşaqlı ailələr, tələbələr və digər seqmentlər. Bu böyük kəsim də məhz bu sosial paketlərdə hər zaman əhatə olunub".

Azərbaycanda, əslində, qısa zaman kəsiyində yoxsulluğun səviyyəsinin 50 faizdən 5,5 faizə enməsi, bax, belə çoxşaxəli tədbirlər sayəsində mümkün olub. Ən başlıcası isə bu, ona görə mümkün olub ki, ölkəmizin "Mən hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm " deyən və dediyi hər sözü də imzası qədər dəyərli olan dövlət başçısı var.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# 7 FEVRAL AZƏRBAYCANDA NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

## "Bu seçki Prezident İlham Əliyevə xalqın etimadının və inamının növbəti ifadəsi kimi tarixə düşəcək"

**"Prezident İlham Əliyevin 2024-cü il fevralın 7-də növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə bağlı sərəncamı Azərbaycan xalqının həyatında yeni bir hadisə olacaq. Bu seçkilər müstəqillik tariximizin ən şərəfli səhifələrindən biri kimi yaddaşlarda qalacaq. Çünki bu dəfə biz qalib xalqın nümayəndələri kimi Zəfər seçkisinə qatılacaq və öz liderimizə səs verəcəyik. Fikrimcə, bu seçki ölkə vətəndaşlarının siyasi iradəsinin ifadəsi olmaqla, Prezident İlham Əliyevə xalqın etimadının və inamının növbəti ifadəsi kimi tarixə düşəcək".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Komitə sədri bildirib ki, növbədənkənar seçkilərin keçirilməsi dünyada qəbul olunmuş siyasi təcrübədir və beynəlxalq normalara tam uyğundur, eyni zamanda bu seçkilərin keçirilməsi Prezidentin özünə inamının və xalqın dəstəyinə əminliyinin təzahürüdür.

Komitə sədrinin sözlərinə görə, İlham Əliyev qalib ölkənin qalib Prezidenti, Müzəffər Ali Baş Komandanıdır: "Dövlətimizin başçısı dünyada baş verən hadisələri diqqətlə analiz edir və xalqımızın xoşbəxtliyini, dövlətimizin suverenliyini və müstəqilliyini özünün həyat amalına çevirib. Otuz il işğal altında qalan torpaqlarımızın azad edilməsi, antiterror tədbirləri nəticəsində Qarabağda separatizmin kökünün kəsilməsi, Azərbaycanın bütün dünyada tanıdılması və beynəlxalq aləmdə böyük nüfuz qazanması məhz Prezidentin əvəzolunmaz xidmətlərinin nəticəsidir. Bu gün Azərbaycan dünyada iqtisadi cəhətdən inkişaf edən ölkələrdən biri olmaqla bərabər, həm də sülhün, əmin-amanlığın və təhlükəsizliyin təminatçısı kimi çıxış edir. Prezident İlham Əliyev ən mötəbər tədbirlərdə ölkəmizi layiqincə təmsil edir, özünün bəşəri dəyərlərini ortaya qoyur və insanların xoşbəxt yaşayışı naminə sülhün təmin edilməsi istiqamətində bütün gücünü səfərbər edir. Azərbaycan Prezidenti beynəlxalq təşkilatların tribunalarından bəşəriyyəti sülhə səsləyir. Belə addımlar, sözsüz ki, sülhsevər xalqlar tərəfindən yüksək qiymətləndirilir".

İlham Əliyevin bu gün dünyada sayılıb-seçilən dövlət rəhbərlərindən biri olduğunu bildirən Tahir Rzayev əlavə edib: "Azərbaycanı istəməyən bir çox qüvvələr, Qərbin bəzi siyasi dairələri ölkəmiz haqqında bu gün böhtan və şantaj xarakterli materiallar yaymaq, əsassız qətnamələr, qərarlar çıxarmaq, eləcə də Ermənistana dəstək göstərmək üçün əllərindən gələni edir və bizə qarşı düşmən mövqeyində dayanırlar. Belə bir dövrdə növbədənkənar seçkilər Azərbaycanın demokratik dəyərlərə sadiq olduğunu göstərəcək".

Komitə sədri həmçinin hər zaman olduğu kimi, bu seçkilərdə də namizədlərə bərabər imkanların yaradılacağını bildirib. Qeyd edib ki, vətəndaşlar siyasi iradələrini sərbəst formada ifadə edərək, öz namizədlərinə səs vermək imkanına malik olacaqlar.

Tahir Rzayev vurğulayıb ki, Prezident həmişə xalqla bir sırada dayanıb və xalqın mənafeyi uğrunda əlindən gələni edib: "Azərbaycanı işıqlı sabaha aparan, torpaqlarımızı düşməndən xilas edən, ölkəmizi qlobal aləmdə tanıdan və şöhrətləndirən məhz Prezident İlham Əliyevdir. Sözsüz ki, Azərbaycan xalqı bu dəfə də özünün xoşbəxt və firavan gələcəyinin qarantı olan müzəffər liderimiz İlham Əliyevə səs verəcək.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

## Qlobal Liderə etimad böyükdür

### Azərbaycan İlham Əliyevlə daha möhtəşəm zəfərlərə doğru addımlayır




**Şanlı Zəfərimizdən sonra yaranan yeni reallıqlar fonunda tərəqqi və inkişaf yolu ilə irəliləyən, geoiqtisadi və geosiyasi proseslərdə mühüm rol oynayan Azərbaycan fəal beynəlxalq aktora çevrilib. Bütün bunlar İlham Əliyevin Azərbaycanı inkişaf və yüksəlişə aparan mükəmməl siyasətinin nəticəsidir.**

Əlverişli coğrafi mövqeyi, regional və beynəlxalq nəqliyyat yollarının üstündə yerləşməsi, təbii resursları, iqtisadi və hərbi gücü ilə Cənubi Qafqazın lider dövləti hesab olunan Azərbaycan məhz İlham Əliyevin yürütdüyü qətiyyətli, tam müstəqil siyasətlə dünyada etibarlı tərəfdaş statusuna da sahiblənib.

Azərbaycan Prezidentinin sözünə və vədinə sadiqliyi, irəli sürdüyü qlobal təşəbbüsləri ölkəmizin nüfuzunu və siyasi çəkisini gündən-günə artırmaqdadır. Bu gün dünyanın siyasi xəritəsində elə bir Azərbaycan var ki, onun dəstəyi olmadan, rəyi nəzərə alınmadan Cənubi Qafqazdakı hər hansı regional prosesləri müzakirə və həll etmək mümkün deyil. İstənilən mövzulu qlobal danışıqların aparıldığı platformalarda Azərbaycan mütləq təmsil olunur və söz sahibi kimi çıxış edir. Buna görə də dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı regionun təhlükəsizlik zəmanəti adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər. Bütün bunlar bir daha təsdiq edir ki, İlham Əliyevin tam müstəqil siyasəti Azərbaycanı müasir dünyanın yeni çağırışlarına cavab verən ölkəyə çevirib.

Bu gün elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud problemlərinin həlli yolları barədə fikirlər, təkliflər səsləndirməsin. Yəni İlham Əliyev təkcə regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunə olur. Buna tək bir misal olaraq İlham Əliyevin Qoşulmama Hərəkatının Sədri kimi irəli sürdüyü qlobal təşəbbüsləri, mühüm təklifləri göstərmək olar.

Mühüm qlobal layihələrin müəllifi və təşəbbüskarı kimi dünyada tanınan İlham Əliyevin həyata keçirdiyi enerji siyasəti ilə ölkəmizin geosiyasi mövqeyi getdikcə möhkəmlənir, xüsusən də Avropa ölkələri ilə strateji əməkdaşlıq daha da güclənir. İmzalanan enerji sazişləri, həyata keçirilən mühüm qlobal layihələr bunu təsdiqləyən reallıqdır. Təsadüfi deyil ki, Avropa Komissiyası, onun yüksəkvəzifəli şəxsləri Azərbaycanı etibarlı tərəfdaş və Pan Avropa qaz təchizatçısı kimi dəyərləndirirlər.

Məhz cənab İlham Əliyevin yürütdüyü tam müstəqil siyasətlə Azərbaycanın təkcə son 20 ildə əldə etdiyi tarixi uğurları, möhtəşəm zəfərləri bəlkə də dünyanın bir çox ölkələri son 100 ildə qazana bilməyiblər.

Azərbaycan xalqını son 20 illik zaman ərzində uzun, bir o qədər də məsuliyyətli yol qət edərək tarixində bənzərinə rastlanmayan qələbə günlərinə qovuşduran İlham Əliyev adını tariximizə Qarabağın xilaskarı, suverenliyin təminatçısı, ən qüdrətli Sərkərdə kimi yazdırıb.

20 il öncə, 2003-cü il oktyabrın 31-də Prezident kimi əlini "Qurani-Kərimə" basaraq and içən İlham Əliyev xalqa söz verdi ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı davam etdirəcək və Azərbaycanı möhtəşəm zəfərlərə doğru aparacaq. Azərbaycan Ermənistanın işğalçı siyasəti ilə barışmayacaq və nəyin bahasına olursa-olsun, işğal altında olan torpaqlarını azad edəcək.

İlham Əliyevin 20 illik fəaliyyətinin əsas mahiyyəti də məhz bu iki fikrin doğrulmasına yönəldi. Bu fikirlər, əslində, həm də Ulu Öndərin layiqli varisi qarşısında müəyyənləşdirdiyi tarixi vəzifələr idi. Ümummilli Liderin özü qədər inandığı İlham Əliyevə xalqımız inandı, güvəndi, etimad göstərdi. Xalqdan güc alan İlham Əliyev isə həyata keçirdiyi siyasətlə tarixin ən qüdrətli Azərbaycanını qurdu. Yəni Ulu Öndərin axıra çatdıra bilmədiyi taleyüklü məsələləri İlham Əliyev başa çatdırdı və Azərbaycanın tam suverenliyini təmin edən zəfərlərlə dünyaya gücünü, qüdrətini göstərdi.

Əlbəttə ki, xalqımızın ən böyük problemi keçmiş Dağlıq Qarabağ münaqişəsi idi. Bu problemin sülh yolu ilə həlli məsələsi İlham Əliyevin yürütdüyü siyasətin daim prioriteti idi. Bütün beynəlxalq konfranslarda Azərbaycan həqiqətlərini dünyaya bəyan edən qətiyyətli Prezidentimiz Ermənistanın işğalçı dövlət kimi tanınmasına müvəffəq oldu. Bununla bağlı qətnamələr, qərarlar qəbul edildi. Amma həmin sənədlər uzun illər kağız üzərində qaldı, icrası təmin edilmədi. İşğalçı Ermənistan isə bu cəzasızlıq mühitindən lazımınca yararlandı və hətta bu ölkə elə zənn etdi ki, Azərbaycan mövcud vəziyyətlə həmişəlik barışıb. Lakin zaman yetişdi və bütün sözlərinə sadiq lider kimi İlham Əliyev 2003-cü ildə xalqa verdiyi vədini gerçəkləşdirdi. 2020-ci ildə düşmənin işğalçılıq siyasətinə son qoyan Zəfər yürüşümüz dünyaya səs saldı. 2023-cü ildə isə hazırladığı mükəmməl planla 200 illik erməni xülyasına birdəfəlik son qoyaraq Azərbaycanın tam suverenliyini bərpa etdi. Bununla da İlham Əliyev adını tariximizə həm də Müzəffər Sərkərdə kimi yazdırdı. Bu möhtəşəm zəfərlərlə İlham Əliyev qədirbilən xalqının qəlbində əbədi heykəlini ucaltdı. Xalqın İlham Əliyevə olan inamı, etibarı daha da yüksəldi. Çünki o, sözünün sahibi kimi gələcək nəsillərə bütöv Azərbaycanı ərmağan elədi.

Qarşıda yenə seçim anı var. Gələn il fevralın 7-də ölkəmizdə növbədənkənar prezident seçkiləri keçiriləcək. Birmənalı şəkildə deyə bilərik ki, Azərbaycanda İlham Əliyevə alternativ ola biləcək siyasətçi yoxdur. Bunu Azərbaycan xalqı çox yaxşı bilir. İllər öncə xalq inanaraq, güvənərək etimad mandatı verdiyi İlham Əliyevə bu gün daha çox güvənir, etibar edir və yürütdüyü siyasətə daim dəstək verir. Məhz bu birliyin, bu güvənin nəticəsidir ki, Şanlı Zəfərdən sonra Azərbaycana qarşı yönələn bütün iyrənc kampaniyalar iflasa məhkum olub və bundan sonra da belə olacaq. Azərbaycanla artıq hədə-qorxu, təhdid dili ilə danışmaq qeyri-mümkündür.

Əminliklə deyə bilərik ki, 2024-cü il fevralın 7-də xalq bir daha güvəndiyi, inandığı Liderə etimad mandatı verərək işıqlı, inamlı sabaha səs vermiş olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Seçkilərə möhtəşəm uğurların fonunda gedirik

### Xalqımız şanlı Zəfərimizin memarına səs verəcək

**2024-cü ildə ilk dəfə suverenliyi tam bərpa olunan Azərbaycanın bütün ərazilərində prezident seçkiləri keçiriləcək. İlham Əliyevin sərəncamı ilə növbədənkənar prezident seçkiləri növbəti il fevralın 7-də baş tutacaq. Bu dəfə qalib xalqın nümayəndələri seçkilərdə qalib vətəndaşlar kimi səs verəcəklər.**



Yeni Azərbaycan Partiyasının növbədənkənar prezident seçkilərində namizədi İlham Əliyev olacaq. Mövzu ilə əlaqədar "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Vüqar İskəndərov qeyd edib ki, Azərbaycan öz tarixinin şanlı dövrünü yaşayır və ölkəmiz bütün sahələrdə bir-birini əvəz edən uğurlar əldə edir: "2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkilərinə də bu uğurlar fonunda gedirik. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib. Buna Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli siyasət nəticəsində nail olunub".

Deputat vurğulayıb ki, 2018-ci ildə İlham Əliyev yenidən Prezident seçildikdən sonra xalqımızın qarşısında duran ən mühüm problem - ərazi bütövlüyümüzün bərpası prosesinin son tamamlama mərhələsinə start verərək qısa zamanda ölkəmizin, xalqımızın bütün potensialını vahid məqsəd uğrunda səfərbər etdi. Həmin seçkilərdən cəmi iki il sonra - 2020-ci il sentyabrın 27-də başlamış Vətən müharibəsi Azərbaycanın tarixi qələbəsi ilə başa çatdı. 2023-cü il sentyabrın 20-də lokal antiterror tədbirləri isə ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası prosesini tamamladı.

V.İskəndərovun sözlərinə görə, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası həm regionda, həm də ölkəmizdə yeni reallıqlar yaradıb. Məhz bu kontekstdən yanaşanda bu seçkilərin tarixi əhəmiyyəti bir daha önə çıxır. Çünki müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq seçkilər bütün ölkə ərazisində keçirilir. "Bu seçkilər ərazi bütövlüyümüzün və suverenliyimizin təsbitidir. Xalqımız bu seçkilərə xüsusi əhvali-ruhiyyə ilə gedir. Qalib ölkənin vətəndaşları bütün ərazilərində suverenliyi bərpa edilən ölkənin növbəti prezidentini seçəcək. Təbii ki, xalqımız Azərbaycanın tarixinə şanlı Zəfəri yazan cənab İlham Əliyevə səs verəcək", - deyə deputat əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycanda könüllülük hərəkatı daha da geniş vüsət alır

**Ötən əsrin sonlarında Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra ölkəmizin güclənməsində, insanların rifahının getdikcə yaxşılaşmasında, dövlətimizin daha da qüdrətlənməsində könüllülərin də xidməti oldu. Bəs nədir könüllülük? Könüllülük öz iradəsi və sərbəst seçimi əsasında heç bir maddi xeyirə əsaslanmayan və cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan sosial fəaliyyətdir.**

Hazırda ölkəmizdə geniş yayılmış və cəmiyyətdə böyük rəğbət qazanmış könüllülər hərəkatının bünövrəsi Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qoyulub. Elə buna görə də könüllülük hərəkatının inkişafı və yüksəlişi Ümummilli Liderin adı ilə bağlıdır. Böyük şəxsiyyətin idarəçiliyinin ilk illərindən başlayaraq, hərtərəfli və davamlı inkişaf məqsədilə dövlət və özəl sektorlar, vətəndaş cəmiyyətləri arasında əməkdaşlıq daim diqqət mərkəzində saxlanıldı. İnsanları bu prosesə könüllü şəkildə cəlb etməyə, onların zəngin təcrübəsindən yararlanmağa mühüm önəm verildi. 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi, BMT İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsi fəaliyyətə başladı. 1998-2000-ci illərdə bu proqramın nəticəsi olaraq ölkəmizdə güclü könüllülər komandası yaradıldı.

Azərbaycanda könüllülük fəaliyyətinin yeni inkişafına 2009-cu ildə Milli Məclisin qəbul etdiyi "Könüllü fəaliyyət haqqında" qanun daha güclü təkan verdi. 10 maddədən ibarət bu əsaslı qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu. 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yanında aktiv və konstant könüllü təşkilat olan ASAN Könüllüləri Təşkilatı (AKT) yaradıldı.

1 saylı "ASAN kommunal" mərkəzinin açılışında Prezident İlham Əliyev könüllülərin "ASAN xidmət"dəki rolunu yüksək qiymətləndirərək demişdir: "Əlbəttə ki, biz "ASAN xidmət"i könüllülər hərəkatından ayıra bilmərik. Bu da bir yenilikdir... Bu gün artıq bu hərəkat Azərbaycanda yaşayır. Mənə verilən məlumata görə, 10 min gənc artıq könüllü kimi "ASAN xidmət" mərkəzlərində işləyib və bu insanların bir çoxu bu gün müxtəlif vəzifələrdə, müxtəlif işlərdə ölkəmizin gələcək inkişafı üçün çalışırlar".

Ölkəmizin evsahibliyi etdiyi "Eurovision-2012" mahnı müsabiqəsi, 2015-ci il birinci Avropa Oyunları, 2017-ci il IV İslam Həmrəyliyi Oyunları, "Formula -1" və digər mötəbər və irimiqyaslı tədbirlərə on minlərlə könüllü cəlb olunmuşdu. Bu tədbirlərin keçirilməsi nəticəsində Azərbaycanın beynəlxalq miqyasa çıxarılacaq böyük potensiala malik, eyni zamanda təcrübəli könüllü bazası yaranıb formalaşdı. Qazanılmış bu uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da çox böyük əməyi və rolu var.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə ölkəmizdə 2020-ci ilin "Könüllülər ili" elan edilməsi gəncliyin potensialından respublikamızın dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək baxımından mühüm əhəmiyyət kəsb etdi. Həmin il bütün dünyanı bürüyən koronavirus (COVID-19) pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin çağırışına cavab olaraq Azərbaycan könüllüləri hökumətə dəstək fəaliyyətində xüsusi olaraq seçildilər.

Ölkəmizin "ASAN Könüllüləri" Təşkilatı, "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyi, "Könüllü DOST" Proqramı, "Aqrar İnkişaf Könüllüləri" İctimai Birliyi, "İslahat Könüllüləri" Təşkilatı, "Nəqliyyat Könüllüləri" Proqramı, Könüllülük Proqramı, "Miqrasiya Könüllüsü" İctimai Birliyi, "Könüllü gömrükçü" Dəstəsi, "Turizm Könüllüləri" Təşkilatı, "Eko könüllüləri" Qrupu, Könüllülər Proqramı Qrupu, "Gənc Könüllülər" Hərəkatı, "Azərbaycan Diaspor Könüllüləri" Proqramı və digər könüllü təşkilatlarında fəaliyyət göstərən yüz minlərlə könüllü Azərbaycan gəncliyinin parlaq gələcəyi, ölkəmizin inkişafı, xalqımızın rifahının yaxşılaşması istiqamətində öz əvəzolunmaz töhfələrini verməsi çox sevindiricidir.

Dekabrın 13-də Bakı Konqres Mərkəzində Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunan və ölkəmizdə fəaliyyət göstərən 3 minə yaxın Azərbaycan könüllüsünü bir araya toplayan "Azərbaycan Könüllülərinin VI Həmrəylik Forumu" keçirilib.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev forum iştirakçılarına müraciət ünvanlayıb. Müraciətdə deyilir: "Əziz gənclər!Sizi - Azərbaycan könüllülərinin VI həmrəylik forumunun iştirakçılarını salamlayır, Beynəlxalq Könüllülər Günü münasibətilə təbrik edir və hamınıza cansağlığı, gələcək işlərinizdə nailiyyətlər arzulayıram.

Forumun Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar ölkəmizdə elan olunmuş "Heydər Əliyev İli" çərçivəsində təşkili xüsusi əhəmiyyət daşıyır. Könüllülük hərəkatı məhz Ulu Öndərin xeyir-duası ilə geniş vüsət alaraq Azərbaycan gənclərini vahid platformada birləşdirmiş və ötən müddət ərzində ictimai həyatımızın ən müxtəlif sahələrini əhatə etmişdir. Zəngin mədəni-mənəvi dəyərlərimizi rəhbər tutan hərəkat əməli fəaliyyətində xeyirxahlıq, fədakarlıq və təmənnasız yardım kimi ali bəşəri keyfiyyətləri təcəssüm etdirmiş, cəmiyyətin etimadını layiqincə doğrultmuşdur".

Könüllülərin il ərzində göstərdikləri nəcib fəaliyyətləri diqqət mərkəzində saxlamaq və onlara təşəkkür etmək məqsədilə təşkil edilən forum Karyera Sərgisi ilə başlayıb. Sərgi zamanı könüllülər 40-a yaxın müxtəlif yerli və xarici şirkətlərin iş imkanları barədə ətraflı məlumat əldə ediblər. Çıxış edənlər Ulu Öndər Heydər Əliyevin gənclərə ünvanladığı dəyərli tövsiyələrin Azərbaycan gənclərinin və könüllülərinin inkişafında hər zaman müstəsna əhəmiyyətə malik olduğunu diqqətə çatdırıblar. Forumda çıxış edənlər xüsusi olaraq bildiriblər ki, Prezident İlham Əliyevin rəhbərliyi dövründə yetişən gənclər, könüllülər Vətən müharibəsi gedişində böyük şücaət və qəhrəmanlıq göstərərək möhtəşəm Zəfərin qazanılmasına böyük töhfə veriblər.

Forumda ölkə ictimaiyyətinin diqqətinə çatdırılıb ki, həmişə olduğu kimi, 2023-cü ildə də Prezident İlham Əliyevin könüllülüyün təşviqi və təbliği ilə bağlı müvafiq tapşırıqları və çağırışları əsas götürülərək həyata keçirilən fəaliyyətlər ölkənin 65 şəhər və rayonunu, eyni zamanda Azərbaycan gənclərinin həm müddət, həm də say baxımından mütəşəkkil formada xarici ölkədə humanitar yardım istiqamətində təşkil olunmuş ilk könüllü fəaliyyətini əhatə edib.

Forum çərçivəsində Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə 100 Azərbaycan könüllüsü il ərzindəki fəal təşəbbüslərinə görə mükafatlandırılıblar. Mükafatlandırılan könüllülərin çıxışları ilə davam edən forumun gedişatında Azərbaycan könüllüləri adından Prezident İlham Əliyevə müraciət ünvanlanıb.

Forumda Ulu Öndər Heydər Əliyevə, o cümlədən könüllülərin müxtəlif dövrlərdə fəaliyyətinə həsr olunmuş videoçarxlar nümayiş etdirilib.

Azərbaycan Könüllülərinin VI Həmrəylik Forumu ölkəmizdə könüllülük hərəkatına böyük təkan verəcək və bu hərəkat daha da geniş vüsət alacaq. Könüllülərin sırasına yüzlərlə, minlərlə gənc qatılacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 451

QƏRAR

Bakı şəhəri, 13 dekabr 2023-cü il

## Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının yaradılması, Koordinasiya Şurasının iş Qaydasının təsdiq edilməsi və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin risk qiymətləndirilməsinin dövri qaydada keçirilməsinin təmin edilməsinə, müvafiq sahədə həyata keçiriləcək qiymətləndirilməyə hazırlığın təşkil olunmasına və bu məqsədlərlə koordinasiya mexanizminin yaradılmasına dair bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 oktyabr tarixli 404 nömrəli Qərarının ləğv edilməsi barədə

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2007 nömrəli Fərmanının 2.1.5-ci və 2.1.6-cı yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurası yaradılsın.

2. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının tərkibi" təsdiq edilsin (1 nömrəli əlavə).

3. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının iş Qaydası" təsdiq edilsin (2 nömrəli əlavə).

4. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin risk qiymətləndirilməsinin dövri qaydada keçirilməsinin təmin edilməsinə, müvafiq sahədə həyata keçiriləcək qiymətləndirilməyə hazırlığın təşkil olunmasına və bu məqsədlərlə koordinasiya mexanizminin yaradılmasına dair bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 oktyabr tarixli 404 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1292) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 dekabr tarixli 451 nömrəli Qərarı ilə təsdiq edilmişdir. 1 nömrəli əlavə

## Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının tərkibi

**Koordinasiya Şurasının sədri**

Əli Əhmədov - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Koordinasiya Şurasının üzvləri:**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Azərbaycan Respublikası baş prokurorunun müavini
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri
Azərbaycan Respublikası Mərkəzi Bankının sədrinin müavini
Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri
Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri
Azərbaycan Respublikası Auditorlar Palatasının sədri
Notariat Palatasının İdarə Heyətinin sədri
Azərbaycan Banklar Assosiasiyasının prezidenti
Azərbaycan Fond Bazarı İştirakçıları Assosiasiyasının İdarə Heyətinin sədri
Azərbaycan Sığortaçılar Assosiasiyasının icraçı direktoru

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 dekabr tarixli 451 nömrəli Qərarı ilə təsdiq edilmişdir. 2 nömrəli əlavə

## Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının iş qaydası

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 20.3-cü maddəsinə əsasən hazırlanmışdır və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının (bundan sonra - Koordinasiya Şurası) fəaliyyətinin təşkili ilə bağlı qaydaları müəyyən edir.

1.2. Koordinasiya Şurası öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, bu Qaydanı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərar və sərəncamlarını rəhbər tutur.

1.3. Bu Qaydada istifadə olunan anlayışlar Qanunla müəyyən olunmuş mənaları ifadə edir.

### 2. Koordinasiya Şurasının funksiyaları və hüquqları

2.1. Koordinasiya Şurası aşağıdakı funksiyaları yerinə yetirir:

2.1.1. cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində (bundan sonra - müvafiq sahədə) ölkə risk qiymətləndirilməsinin (bundan sonra - ölkə risk qiymətləndirilməsi) həyata keçirilməsi üçün zəruri metodologiyaların müəyyən edilməsi;

2.1.2. ölkə risk qiymətləndirilməsinin həyata keçirilməsi, bu məqsədlə ölkədaxili əlaqələndirmənin təmin edilməsi, işçi qrupların yaradılması və onların fəaliyyətinə nəzarət edilməsi;

2.1.3. ölkə risk qiymətləndirilməsinin həyata keçirilməsi məqsədilə zəruri statistik və digər məlumatların əldə edilməsi, habelə bu prosesdə aidiyyəti dövlət orqanları (qurumları) və özəl sektor nümayəndələri ilə müsahibə və görüşlərin təşkili üçün tədbirlərin görülməsi;

2.1.4. ölkə risk qiymətləndirilməsinin yekunlarına dair hesabatın hazırlanması və qəbulu, bu hesabatın ölkə risk qiymətləndirilməsinin bütün iştirakçılarına, o cümlədən nəzarət orqanları vasitəsilə öhdəlik daşıyan şəxslərə, habelə Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərə göndərilməsinin təmin edilməsi;

2.1.5. ölkə risk qiymətləndirilməsi nəticəsində aşkar olunmuş risklərin idarə edilməsi məqsədilə hədəflərin müəyyən edilməsi, qısamüddətli hədəflərə münasibətdə zəruri tədbirlərin görülməsi, orta və uzunmüddətli hədəflərə münasibətdə müvafiq plan layihələrinin hazırlanması;

2.1.6. ölkə risk qiymətləndirilməsi nəticəsində müəyyən edilmiş hədəflərə nail olunmasına cari nəzarətin həyata keçirilməsi və bu barədə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına illik əsasda məlumat verilməsi;

2.1.7. müvafiq sahədə fəaliyyət planlarının icrasına nəzarət edilməsi, aidiyyəti qurumlar tərəfindən təqdim edilən hesabatların qəbulu və görülmüş işlərin icrasının mütəmadi qiymətləndirilməsi;

2.1.8. müvafiq sahədə qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə normativ hüquqi aktların layihələrinin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi;

2.1.9. müvafiq sahədə milli səviyyədə fəaliyyət effektivliyinin artırılması məqsədilə təkliflərin verilməsi, qərarların qəbul edilməsi və həmin qərarların icrasına nəzarətin həyata keçirilməsi;

2.1.10. müvafiq sahədə beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan Respublikasına münasibətdə təqdim edilmiş tövsiyələrin icrası üçün ölkədaxili əlaqələndirmənin təmin edilməsi və bu çərçivədə fəaliyyətlərin icrasına nəzarət edilməsi;

2.1.11. müvafiq sahədə aidiyyəti qurumlar arasında ölkədaxili cari fəaliyyətin əlaqələndirilməsinin təmin edilməsi və bu məqsədlə formalaşdırılmış əməkdaşlıq platformalarının fəaliyyətinə nəzarət edilməsi;

2.1.12. öhdəlik daşıyan şəxslərin, Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin, habelə vətəndaş cəmiyyəti institutlarının və aidiyyəti qeyri-kommersiya təşkilatlarının Koordinasiya Şurasının səlahiyyətlərinə aid edilmiş fəaliyyətlərə cəlb olunması üçün tədbirlərin görülməsi.

2.2. Koordinasiya Şurası bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulan funksiyaların həyata keçirilməsi məqsədilə sistemli və müntəzəm hesabatlılığı təşkil edir, habelə bu çərçivədə zəruri məlumatların daimi toplanmasına və yenilənməsinə nəzarət edir.

2.3. Koordinasiya Şurasının bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulan funksiyaların həyata keçirilməsi üçün aşağıdakı hüquqları vardır:

2.3.1. Koordinasiya Şurasında təmsil olunan qurumlara (bundan sonra - üzv qurumlar), öhdəlik daşıyan şəxslərə və Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərə, həmçinin digər dövlət və qeyri-dövlət qurumlarına öz funksiyalarının icrası ilə əlaqədar zəruri məlumat və sənədlərin alınması üçün sorğuların göndərilməsi və arayışların əldə edilməsi;

2.3.2. qəbul etdiyi qərarların, habelə müvafiq sahədə fəaliyyət planlarının icrasına dair hesabatlılıq formasının, prosedurunun və qiymətləndirmə indikatorlarının müəyyən edilməsi;

2.3.3. ölkə risk qiymətləndirilməsinə öhdəlik daşıyan şəxslərin və Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin cəlb olunmasının təmin edilməsi;

2.3.4. müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən öz fəaliyyət istiqamətləri üzrə aparılan strateji təhlillərə dair məlumatların əldə edilməsi;

2.3.5. nəzarət orqanlarından aparılmış nəzarət yoxlamalarının sayı, onların əhatə dairəsi, tətbiq edilən sanksiyaların sayı və xarakteri barədə illik əsasda statistik məlumatların əldə edilməsi;

2.3.6. fəaliyyətinin təşkili məqsədilə yerli və xarici ekspertlərin, mütəxəssislərin, beynəlxalq təşkilatların, elmi-tədqiqat müəssisələrinin və ictimai birliklərin cəlb edilməsi;

2.3.7. bu Qaydanın 3.12-ci bəndində nəzərdə tutulmuş qaydada qəbul edilmiş qərara əsasən Koordinasiya Şurasının tərkibində dəyişiklik edilməsi məsələsinə baxılması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təklif verilməsi;

2.3.8. Qanunla və bu Qayda ilə müəyyən edilmiş digər hüquqların həyata keçirilməsi.

### 3. Koordinasiya Şurasının fəaliyyətinin təşkili

3.1. Koordinasiya Şurasına rəhbərliyi onun sədri olan Azərbaycan Respublikası Baş nazirinin müavini həyata keçirir.

3.2. Koordinasiya Şurasının üzvləri təmsil etdikləri qurumların səlahiyyətli nümayəndələri kimi çıxış edirlər.

3.3. Koordinasiya Şurasının iclasları üzvlərinin azı üçdə ikisi iştirak etdikdə səlahiyyətli sayılır.

3.4. Koordinasiya Şurasının üzvü iclasda iştirak edə bilmədikdə, onu təmsil etdiyi qurumda bərabər səlahiyyətə malik olan digər şəxs əvəz edə bilər.

3.5. Koordinasiya Şurasının sədrinin səlahiyyətləri aşağıdakılardır:

3.5.1. Koordinasiya Şurasının iclasına sədrlik edir;

3.5.2. Koordinasiya Şurasının işini təşkil edir və ona nəzarət edir, fəaliyyətinə rəhbərliyi həyata keçirir;

3.5.3. Koordinasiya Şurasının növbəti və növbədənkənar iclaslarını çağırır;

3.5.4. Koordinasiya Şurasının iclaslarında qəbul edilən qərarları və protokolları imzalayır.

3.6. Koordinasiya Şurasının üzvlərinin səlahiyyətləri aşağıdakılardır:

3.6.1. Koordinasiya Şurasının səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edir və Koordinasiya Şurasının iclasında baxılması üçün təkliflər verirlər;

3.6.2. Koordinasiya Şurasının iclasının gündəliyi və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

3.6.3. Koordinasiya Şurası tərəfindən qəbul ediləcək qərar layihələrinə dair fikir bildirirlər;

3.6.4. Koordinasiya Şurasının qərarları, iclas protokolları və digər sənədləri ilə tanış olurlar;

3.6.5. Koordinasiya Şurası tərəfindən qəbul edilən qərarların icrasını təmsil etdikləri qurumlarda təmin edirlər.

3.7. Koordinasiya Şurasının iclasları 6 (altı) ayda bir dəfədən az olmayaraq keçirilir.

3.8. Koordinasiya Şurasının növbəti iclaslarının çağırılması vaxtı və müzakirəyə çıxarılan məsələlər barədə üzv qurumlara və bu iclasda iştirakı nəzərdə tutulan digər şəxslərə iclasa ən geci 15 (on beş) gün qalmış məlumat verilir, zəruri materialların təqdim edilməsi təmin olunur.

3.9. Üzv qurumlar tərəfindən müvafiq sahədə fəaliyyət istiqamətləri üzrə yaranan sistem əhəmiyyətli çağırışların (müvafiq sahədə yeni texnologiyalardan, davranış və ya biznes modellərinin tətbiqindən qaynaqlanan və ölkədə kriminogen mühitə, iqtisadi sistemə və ümumilikdə ölkənin beynəlxalq imicinə xələl gətirə bilən proses və yeniliklər), habelə bu istiqamətdə zəruri fəaliyyətlərin əlaqələndirilməsi məsələlərinin müzakirəsi məqsədilə Koordinasiya Şurasının növbədənkənar iclasının keçirilməsi üçün Koordinasiya Şurasının sədrinə müraciət edilə bilər.

3.10. Koordinasiya Şurasının növbədənkənar iclaslarının keçirilməsinə dair əsaslandırılmış müraciət daxil olduqdan sonrakı 3 (üç) iş günü ərzində növbədənkənar iclasın təşkilinə dair Koordinasiya Şurasının sədri qərar qəbul edir. Növbədənkənar iclasın təşkilinə dair qərar qəbul edildikdən sonra 3 (üç) iş günü ərzində Koordinasiya Şurasının iclası çağırılır, müzakirəyə çıxarılan məsələlər barədə Koordinasiya Şurasının üzvlərinə və bu iclasda iştirakı nəzərdə tutulan digər şəxslərə məlumat verilir.

3.11. Koordinasiya Şurasının növbəti və növbədənkənar iclaslarında üzv olmayan qurumların iştirakına dair müraciət edən üzv qurumlar tərəfindən zəruri məlumat - iştirakın zərurəti barədə əsaslandırma Koordinasiya Şurasına təqdim edilir. Koordinasiya Şurasının növbəti və növbədənkənar iclaslarında üzv olmayan qurumların iştirakı barədə qərar Koordinasiya Şurasının sədri tərəfindən qəbul edilir.

3.12. Koordinasiya Şurasının iclaslarında baxılan məsələlər üzrə qərarlar qəbul edilir. Koordinasiya Şurasının iclaslarının qərarları açıq səsvermə yolu ilə səsvermədə iştirak edənlərin sadə səs çoxluğu ilə qəbul olunur. Qərar qəbul edilərkən səslər bərabər olduqda Koordinasiya Şurasının sədri həlledici səsə malikdir. Səsvermə zamanı xüsusi rəyi olan Şura üzvü öz rəyini qəbul edilmiş qərara əlavə edir. Koordinasiya Şurasının iclasında iştirak edən üzv olmayan şəxslər səsvermədə iştirak edə bilməzlər.

3.13. Koordinasiya Şurasının qərarları və iclas protokolları 2 (iki) iş günü müddətində Koordinasiya Şurasının Katibliyi (bundan sonra - Katiblik) tərəfindən hazırlanır. Qərar və iclas protokolları Koordinasiya Şurasının sədri tərəfindən imzalandıqdan sonra üzv qurumlara təqdim edilir.

3.14. Koordinasiya Şurasının iclaslarında qəbul olunmuş qərarlar barədə məlumat Koordinasiya Şurasının sədrinin razılığı ilə digər dövlət orqanlarına (qurumlarına) göndərilə və mediada dərc edilə bilər.

3.15. Koordinasiya Şurasının sədri hər il mayın 1-dək Koordinasiya Şurasının illik fəaliyyəti barədə məlumatı Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim edir.

### 4. Katiblik

4.1. Koordinasiya Şurasının fəaliyyətinin təşkili Katiblik tərəfindən həyata keçirilir.

4.2. Katibliyin funksiyası Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti tərəfindən yerinə yetirilir.

4.3. Katibliyin rəhbəri və üzvləri Koordinasiya Şurasının qərarı ilə təsdiq edilir.

4.4. Katiblik Koordinasiya Şurasının fəaliyyətinin təşkili ilə bağlı aşağıdakı işləri həyata keçirir:

4.4.1. Koordinasiya Şurasına daxil olan sorğuların cavablandırılmasını (zəruri hallarda bu sorğularla bağlı üzv qurumlara müraciət ünvanlamaqla) və ya aidiyyəti üzrə göndərilməsini təmin edir;

4.4.2. Koordinasiya Şurasının iclaslarının keçirilməsi və məsələlərin müzakirəyə hazırlanması işini təşkil edir;

4.4.3. üzv qurumların Koordinasiya Şurasının fəaliyyətinə dair rəy və təkliflərini qəbul edir və onları Koordinasiya Şurasının sədrinə təqdim edir;

4.4.4. Koordinasiya Şurasının iclaslarının protokollarını və qərar layihələrini hazırlayır, Koordinasiya Şurasının sədrinə və üzv qurumlara təqdim edir;

4.4.5. Koordinasiya Şurasının qərarlarının icrasına nəzarət edir, habelə Koordinasiya Şurası tərəfindən yaradılmış işçi qrupların fəaliyyəti üzrə hesabatları rüblük əsasda qəbul edir və bununla bağlı Koordinasiya Şurasının sədrini və üzvlərini məlumatlandırır;

4.4.6. Koordinasiya Şurası tərəfindən qəbul edilən qərarların və müvafiq sahədə müəyyən edilmiş tədbirlərin icrası ilə bağlı hesabatlılıq formasına və proseduruna dair təkliflər hazırlayaraq Koordinasiya Şurasına təqdim edir;

4.4.7. ölkə risk qiymətləndirilməsinin həyata keçirilməsi ilə əlaqədar işçi qrupların formalaşdırılması ilə bağlı Koordinasiya Şurasına təkliflər verir;

4.4.8. Koordinasiya Şurası tərəfindən yaradılmış işçi qrupların fəaliyyətini əlaqələndirir;

4.4.9. Koordinasiya Şurasının səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə Koordinasiya Şurasının sədrinin göstərişi əsasında aidiyyəti dövlət orqanlarına (qurumlarına) zəruri məlumatların əldə edilməsi və digər müvafiq tədbirlərin görülməsi üçün Koordinasiya Şurasının adından müraciət edir;

4.4.10. müvafiq sahədə fəaliyyət planları çərçivəsində icraçı qurumlar tərəfindən təqdim edilən hesabatlar üzrə zəruri dəqiqləşdirmələrin aparılması məqsədilə əlavə məlumatlar əldə etmək üçün aidiyyəti qurumlara sorğu verir;

4.4.11. Koordinasiya Şurasının fəaliyyəti ilə bağlı kargüzarlıq və arxiv işini həyata keçirir;

4.4.12. Koordinasiya Şurası tərəfindən müəyyən edilən digər hüquq və vəzifələri yerinə yetirir.

4.5. Katiblik Koordinasiya Şurası və işçi qrupların fəaliyyətinin əlaqələndirilməsinə və Koordinasiya Şurası tərəfindən müəyyən edilmiş hesabatlılığın təmin edilməsinə məsuldur.

4.6. Katiblik işçi qruplar üzrə hesabatlılığı işçi qrupların rəhbərləri və əlaqələndirici şəxsləri vasitəsilə təmin edir.

### 5. Ölkə risk qiymətləndirilməsi prosesinin təşkili və icrası

5.1. Nəzarət orqanları hər il aprelin 1-dək ötən il üzrə aparılmış sahəvi risk qiymətləndirməsinin nəticələrinə dair hesabatı Koordinasiya Şurasına təqdim edir.

5.2. Qanunun 21.8-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Baş Prokurorluğu məhkəmələr və cinayət təqibi orqanlarından zəruri statistik məlumatları öz informasiya sistemi vasitəsilə toplayır, emal edir, ümumiləşdirir və ölkə risk qiymətləndirilməsinin həyata keçirilməsi üçün Koordinasiya Şurasına təqdim edir.

5.3. Aidiyyəti üzv qurumlar müvafiq sahədə bir neçə sektor üzrə nəzarət orqanı funksiyası daşıdıqda, Koordinasiya Şurası tərəfindən sahəvi risk qiymətləndirməsi üzrə müəyyən edilən hesabat formasına uyğun olaraq hər bir sektor üzrə məlumatları Koordinasiya Şurasına təqdim edir.

5.4. Koordinasiya Şurasının sədri risk qiymətləndirmələrinin yekun nəticələrinin müzakirəsi, habelə ölkə risk qiymətləndirilməsinin yenilənməsi ehtiyaclarının və görülməli işlərin müəyyən edilməsi məqsədilə Koordinasiya Şurasının iclasını çağıra bilər.

5.5. Ölkə risk qiymətləndirilməsi ən azı 3 (üç) ildə bir dəfə aparılır. İllik sahəvi və institusional risk qiymətləndirmələrinin nəticələrindən asılı olaraq Koordinasiya Şurasının qərarı əsasında ölkə risk qiymətləndirilməsinin yekunlarına dair hesabatın yenilənməsi həyata keçirilə bilər.

5.6. Aşağıdakı istiqamətlər üzrə ölkə risk qiymətləndirilməsi həyata keçirilir:

5.6.1. cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə;

5.6.2. terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə;

5.6.3. kütləvi qırğın silahlarının yayılması və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə.

5.7. Ölkə risk qiymətləndirilməsi Koordinasiya Şurası tərəfindən yaradılmış işçi qruplar vasitəsilə həyata keçirilir.

5.8. Koordinasiya Şurasının ölkə risk qiymətləndirilməsinin aparılmasına dair qərarı qəbul edildikdən dərhal sonra müvafiq işçi qruplar tərəfindən hazırlıq proseslərinə başlanılır.

5.9. İşçi qruplar ölkə risk qiymətləndirilməsinin metodologiyası və zəruri təhlil istiqamətləri ilə bağlı Koordinasiya Şurasına təkliflər verirlər.

5.10. Ölkə risk qiymətləndirilməsi prosesində üzv qurumlar tərəfindən zəruri statistik və digər məlumatlar işçi qruplara təqdim olunmalıdır. Müvafiq məlumatların əldə edilməsi üçün Koordinasiya Şurasına üzv olmayan dövlət orqanlarına (qurumlarına), özəl sektor nümayəndələrinə və ictimai birliklərə Katiblik vasitəsilə sorğu göndərilə bilər.

5.11. İşçi qruplar Koordinasiya Şurası tərəfindən müəyyən edilən metodologiya əsasında müvafiq istiqamətlər üzrə məlumatları toplayır, təhlil və müzakirələri aparır, qiymətləndirilmə nəticələrini sənədləşdirir, aşkar olunan risklərin idarə edilməsi, aradan qaldırılması və ya azaldılması məqsədilə təkliflərini hazırlayır və Koordinasiya Şurasına təqdim edir.

5.12. Koordinasiya Şurası konfidensiallıq rejimini müəyyən etməklə ölkə risk qiymətləndirilməsinin nəticələri barədə ətraflı məlumatları Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına və aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərir.

5.13. Koordinasiya Şurası ölkə risk qiymətləndirilməsinin nəticəsində aşkarlanan risklərə münasibətdə müvafiq tədbirlərin görülməsi üçün qərarlar qəbul edir. Aşkar edilmiş risklərə münasibətdə görülməli tədbirlər Koordinasiya Şurası tərəfindən müəyyənləşdirilir və onların icrasına nəzarət edilir.

5.14. Ölkə risk qiymətləndirilməsinin yekunlarına dair hesabat Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin rəsmi internet informasiya ehtiyatında dərc edilir, ölkə risk qiymətləndirilməsinin bütün iştirakçılarına, o cümlədən nəzarət orqanları vasitəsilə öhdəlik daşıyan şəxslərə, habelə Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərə göndərilir.

### 6. İşçi qrupların fəaliyyətinin təşkili

6.1. Koordinasiya Şurasının işçi qrupları üzv qurumların nümayəndələrindən ibarət tərkibdə formalaşdırılır. Zəruri olduqda Koordinasiya Şurasına daxil olmayan qurumların nümayəndələri işçi qruplarda iştiraka dəvət edilə bilərlər.

6.2. İşçi qrupa rəhbərliyi onun fəaliyyət istiqaməti üzrə əsas məsul üzv qurumun səlahiyyətli nümayəndəsi həyata keçirir. Səlahiyyətli nümayəndənin namizədliyi təmsil etdiyi qurum tərəfindən Koordinasiya Şurasına təqdim edilir və Koordinasiya Şurasının qərarı ilə təsdiq olunur.

6.3. İşçi qruplarda iştirak üçün üzv qurumlar tərəfindən aidiyyəti təhlil istiqamətləri üzrə zəruri sayda əməkdaşlar təklif olunur və Koordinasiya Şurasının qərarı ilə təsdiq edilir. İşçi qrupda bir qurumdan bir neçə əməkdaş təmsil olunursa, onlardan biri həmin qurum tərəfindən məsul şəxs kimi müəyyən edilir. Bu məsul şəxs həmin qurum əməkdaşlarının işçi qrupda təmsilçiliyi ilə bağlı zəruri əlaqələndirməni həyata keçirir. Üzv qurumlar işçi qruplara təyin edilən əməkdaşlarının fəaliyyətinə görə məsuldurlar.

6.4. İşçi qruplarda iştirak üçün namizədliyi irəli sürülmüş şəxslər həmin qurumların fəaliyyət istiqamətləri üzrə zəruri statistik və digər məlumatlarla işçi qrupu təmin etmək, habelə ölkə risk qiymətləndirilməsi çərçivəsində zəruri təhlilləri aparmaq və işlədikləri qurumların mövqeyini ifadə etmək səlahiyyətinə malik olmalıdırlar.

6.5. İşçi qrupların rəhbəri və üzvləri ictimai əsaslarla fəaliyyət göstərirlər.

6.6. İşçi qrupların üzvləri tərəfindən işçi qrupun fəaliyyəti çərçivəsində təqdim edilən məlumatlar və təhlil sənədləri təmsil etdikləri qurumların mövqeyi kimi qəbul edilir.

6.7. İşçi qrupun rəhbəri tərəfindən işçi qrupda üzvlər arasından qrupdaxili kargüzarlığın və əlaqələndirmənin həyata keçirilməsi üçün əlaqələndirici şəxs müəyyən edilir. Əlaqələndirici şəxs həmçinin işçi qrupla Katiblik arasında cari fəaliyyət üzrə əlaqələndirməyə məsuldur.

6.8. Əlaqələndirici şəxs işçi qrup daxilində əldə edilmiş və hazırlanmış təhlil hesabatlarının və statistikanın arxivləşdirilməsini təmin edir və illik əsasda yekun sənədləri Katibliyə təqdim edir.

6.9. İşçi qrupun rəhbəri qrup daxilində görüş və müzakirələrin keçirilməsini təşkil edir, işçi qrup üzvlərinin fəaliyyətinə, habelə işçi qrup daxilində əldə edilmiş və hazırlanmış təhlil hesabatlarının və statistikanın arxivləşdirilməsinə nəzarəti həyata keçirir.

6.10. İşçi qrupun səlahiyyətlərinə aid olan məsələlərə onun iclaslarında baxılır. İclaslar işçi qrupun rəhbərinin təşəbbüsü əsasında çağırılır və onun tərəfindən aparılır.

6.11. İşçi qrupun iclası fiziki iştirak və ya videokonfrans formatında keçirilir.

6.12. İşçi qrupun iclası onun üzvlərinin ən azı üçdə ikisi iştirak etdikdə səlahiyyətli sayılır. İşçi qrupun iclası haqqında qrup üzvlərinə iclas gününə ən azı 3 (üç) iş günü qalmış məlumat verilir.

6.13. İşçi qrupun üzvləri bərabərhüquqludur və işçi qrupun fəaliyyətinə dair bütün məsələlərin müzakirəsində iştirak etmək hüququna malikdirlər.

6.14. İşçi qrup üzvünün iclaslarda iştirakı məcburidir. İşçi qrupun üzvü üzrlü səbəbdən iclasda iştirakı mümkün olmayacağı təqdirdə, bu barədə işçi qrupun rəhbərinə məlumat verməlidir. İşçi qrupun iclaslarında üzrsüz səbəbdən ardıcıl olaraq 2 (iki) dəfədən artıq iştirak etməyən üzvün qrupdan kənarlaşdırılması ilə bağlı işçi qrupun rəhbəri Koordinasiya Şurasının sədrini təmsil etdiyi qurum vasitəsilə məlumatlandırır. Koordinasiya Şurasının sədri bu müraciət əsasında həmin qrup üzvünün təmsil etdiyi quruma zəruri tədbirlərin görülməsi ilə bağlı müraciət edir.

6.15. İşçi qrup iclasda müzakirə etdiyi məsələlərə dair qərarlar qəbul edir. İşçi qrupun qərarları iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. İşçi qrupun rəhbəri sonda səs verir. Qərar qəbul edilərkən səslər bərabər bölündükdə, işçi qrupun rəhbəri həlledici səs hüququna malikdir. İşçi qrupun üzvü qrupun qəbul etdiyi qərarla razılaşmadıqda xüsusi rəy işçi qrupun qərarına əlavə edilir və bu barədə məlumat protokolda qeyd olunur.

6.16. İşçi qrupların bütün iclasları və qəbul edilən qərarları protokolla rəsmiləşdirilir. Protokol işçi qrupun əlaqələndirici şəxsi tərəfindən hazırlanır, işçi qrupun rəhbəri tərəfindən imzalanır və 1 (bir) iş günü müddətində qrup üzvlərinə və Katibliyə təqdim edilir.

6.17. İşçi qrupun rəhbəri rüblük əsasda işçi qrup tərəfindən görülən işlərə dair Katibliyə elektron formada hesabat təqdim edir.

# REGİONLAR

## Qazaxlı gənclər nümunə göstərirlər

**Qazax rayonunun gəncləri öz fəallıqları ilə həmişə seçiliblər. Onlar istər Birinci Qarabağ savaşında, istərsə də Vətən müharibəsi və lokal antiterror tədbirləri zamanı əsl fədakarlıq nümunəsi göstərmişlər. Rayon iqtisadiyyatının yüksəlməsində də nümunə olan qazaxlı gənclər onlara yaradılan bütün imkanlara görə dövlət başçısına minnətdardırlar.**

Bütün bunlar barədə Qazaxda gənclərlə keçirilən görüşdə daha ətraflı söhbət açılmışdır. Görüşü giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov ölkəmizdə həyata keçirilən gənclər siyasəti nəticəsində qazanılan uğurlardan danışmışdır. Qeyd etmişdir ki, ölkəmizdə həyata keçirilən gənclər siyasəti Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır: "Dahi rəhbərin hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsası qoyuldu. Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".



Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən gənclər siyasətinin Azərbaycanın inkişafına təkan verdiyini, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynadığını qeyd edən natiq Prezident İlham Əliyevin apardığı daxili və xarici siyasətin uğurlarından da danışmışdır. Bildirmişdir ki, 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində bunun bir daha əyani şahidi olduq: "Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qələbə əldə etməsində ordu sıralarında olan gənclərimizin Vətənə sevgisi, vətənpərvərlikləri əsas amilə çevrildi. Bu haqq savaşı bir daha sübut etdi ki, Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə edilmiş, öz torpağı, Vətəni uğrunda qanından keçməyə hazır olan gənclər yetişmişdir".

Sonra söz gənclərə verilmişdir. Onlar çıxış edərək göstərilən qayğıya, dəstəyə görə ölkə rəhbərinə, Birinci vitse-prezidentə təşəkkürlərini bildirmişlər.

Səmimi keçən görüşdə gənclərin təklifləri və problemləri dinlənildikdən sonra bu sahədə nəzərdə tutulan işlərlə bağlı müzakirələr aparılmışdır.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## Adı və statusu bir neçə dəfə dəyişsə də...

### Əli Bayramlı kimi tanınıb, Şirvan kimi inkişaf edən şəhərin 60 yaşı tamam olur

**Şirvan respublikamızın inzibati coğrafiyasında yer alan ən gənc şəhərlərdəndir. 1930-cu ilə qədər Ərəbşahverdi, Qırxçıraq, Zubovka, Papanino adlanmış bu yaşayış məntəqəsi 1931-ci ildə kolxozlaşma ilə əlaqədar rayon mərkəzinə çevrilmiş, 1938-ci ildən Əli Bayramlı qəsəbəsi adlandırılmışdır. 28 iyul 1954-cü ildə Əli Bayramlı rayon tabeliyində şəhər statusu almaqla böyük bir kənd təsərrüfatı rayonu mərkəzi olmuşdur.**









1963-cü ilin yanvar ayında Əli Bayramlı rayonu ləğv edilərək onun kəndləri ətraf rayonların tabeçiliyinə verilmişdir. Həmin tarixdən respublika tabeliyində şəhər olmuş Əli Bayramlı 2008-ci ildən Şirvan adlandırılır.

Şəhər Şirvan düzündə, Kür çayının şərq sahilində yerləşir. Son statistikaya görə, əhalisi 85 min nəfərdir. Ərazisi faydalı qazıntılardan neft və qazla zəngin olduğundan keçən əsrin 50-ci illərində burada ilk neft quyusu qazılmışdır. Quyuların sayı artdıqca neft istehsalı da artmış və o üzdən respublikanın bütün rayonlarından gənclər işləməyə bura gəmişlər. Ovaxtkı Neft və Kimya İnstitutunu bitirən məzunların da bir çoxunun təyinatı indiki Şirvandakı neft və qazçıxarma müəssisələrinə verilirdi.

Neft və qaz hasilatının artması şəhərin şöhrətini aydan-aya, ildən-ilə artırırdı. Neçə-neçə qabaqcıl əmək adamı o dövrün yüksək mükafatları ilə təltif olunur, fəxri adlara layiq görülürdü. 1956-cı ildə şəhərin həyatında yeni mühüm bir hadisə baş verdi: ərazidən keçən Kür çayının sol sahilində Avropada birinci olan açıq tipli Dövlət İstilik Elektrik Stansiyasının təməli qoyuldu və 28 fevral 1962-ci ildə onun birinci bloku istismara verildi. Stansiyanın gücü o vaxt çox məşhur olan Mingəçevir Su-Elektrik Stansiyasının gücündən 3 dəfə çox idi.

Bu iki sahənin inkişafı şəhərin gələcək həyatında mühüm rol oynadı. Şəhər sürətlə inkişaf etməyə başladı. Yeni yaşayış evləri, sosial əhəmiyyətli binalar, xidmət obyektləri tikildikcə şəhər öz ərazisinin hüdudlarını aşdı, Şirvan kanalının sol sahilində - Muşovdağın ətəyində yeni, planlı şəkildə indi də "Təzə şəhər" adlanan böyük yaşayış massivi salındı.

Sənayenin inkişafı məqsədilə Şirvanda daha bir neçə müəssisə - Mexaniki-Təmir İstehsalat Birliyi, Sənaye Avtomatikası və Telemexanika Zavodu, Dəmir-Beton Evtikmə Kombinatı, Dəzgahqayırma zavodu, Yeyinti Konsentratları Kombinatı tikildi. Paralel olaraq 250 çarpayılıq xəstəxana, məişət evi, məktəblər, uşaq bağçaları və s. sosial obyektlər istifadəyə verildi. Beləliklə, Şirvan respublikanın iri sənaye mərkəzlərindən birinə çevrildi.

Açılan yeni müəssisələrdə, xüsusilə Telemexanika Zavodunda işləmək üçün Rusiyanın və keçmiş SSRİ-nin digər respublikalarından gənclər bura axın etməyə başladılar. Onların çoxu həyatlarını birdəfəlik bu şəhərlə bağladı. Evlənib ailə qurdular, ev-eşik, oğul-qız sahibi oldular. Neftçilər, energetiklər şəhəri olmaqla bərabər, keçmiş Əli Bayramlı bir status da qazandı - beynəlmiləl gənclər şəhəri.

Şəhərin qısa tarixçəsini nəzərdən keçirərkən keçən əsrin 90-cı illərini yada salmamaq mümkün deyil. O zaman məlum səbəblər üzündən Şirvanda da xaotik vəziyyət yaranmışdı. Onilliklər ərzində tikilib qurulanlar dağıdılır, məhv edilirdi. Sənaye müəssisələrinin fəaliyyətini dayandırması nəticəsində şəhərdə işsizlərin sayı artmışdı. Respublikanın ozamankı rəhbərliyinin səbatsızlığı, səriştəsizliyi, hakimiyyət hərisliyi ucbatından Qarabağda da ərazilərimiz erməni qəsbkarları tərəfindən işğal edilirdi. Bütün bunları görən xalq çıxış yolunu Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü.

1993-cü il iyun ayının 15-də xalqın təkidli tələbi ilə Ulu Öndər Naxçıvandan Bakıya gəlir və uzaqgörən siyasəti, polad iradəsi, yenilməz mübarizliyi ilə qardaş qırğınının qarşısını alır. Ölkəmizdə siyasi sabitlik yaranır. Çox keçmir ki, "Əsrin müqaviləsi" imzalanır, islahatlar həyata keçirilir, Azərbaycan addım-addım irəliləməyə başlayır.

2003-cü il oktyabr ayının 15-də Prezident seçilən İlham Əliyevin təşəbbüsü ilə 2004-cü il fevral ayının 11-də regionların sosial-iqtisadi inkişafına dair ilk dövlət proqramı qəbul edildi. Sonrakı illər daha 3 proqram təsdiqləndi. Bu proqramların Şirvan şəhərinin də inkişafında müstəsna rolu oldu. 90-cı illərdə bərbad hala salınmış şəhər yenidən dirçəlməyə başladı. Şəhərdə ölkə əhəmiyyətli "Cənub" Elektrik Stansiyası, Olimpiya İdman Kompleksi, Müalicə Diaqnostika Mərkəzi, qaçqın və köçkünlər üçün yaşayış kompleksi, Ticarət Mərkəzi, Müdafiə Sənayesi Nazirliyinin "Araz" zavodu, onlarca məktəb, uşaq bağçası, səhiyyə, mədəniyyət ocağı tikilib istifadəyə verildi, köhnələri əsaslı şəkildə təmir edildi, yollar, küçələr, körpülər, bağlar, xiyabanlar yüksək səviyyədə yenidən quruldu. Hazırda regional idarələrin bir çoxu Şirvanda yerləşir. Onların hər biri üçün müasir memarlıq üslubunda inzibati binalar tikilib.

Bu gün Şirvan şəhəri 60 yaşını qeyd edir. Onu da deyək ki, 2008-ci ilin may ayında şəhərin əvvəlki adı ilə vidalaşması şəhər sakinlərinin arzu və təklifləri ilə reallaşmışdır. Yeni ad şəhər üçün daha düşərli olmuşdur desək, səhv etmərik. Ona görə ki, şəhər hər ayı, ili uğurla yola salır. Sənaye müəssisələri istehsal gücünü durmadan artırır. Aparılan tikinti-quruculuq işləri bir an belə səngimir. Prezident İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi 20 il ərzində Şirvan şəhərində dəfələrlə olmuş, şəhərin inkişafı üçün sərəncamlar imzalamış, əhali ilə görüşüb söhbətlər aparmışdır.

Bu illər ərzində şəhərin mərkəzində yerləşən və uzun illərdən bəri bərbad vəziyyətdə olan M.Füzuli adına şəhər mədəniyyət və istirahət parkı əsaslı şəkildə yenidən qurularaq sakinlərin istifadəsinə verilmişdir. Tamamilə yeni görkəm almış parkda "Qarabağ" və "Zəfər" xiyabanları yaradılmış, cəsur əsgərlərimizin göstərdiyi qəhrəmanlığı əks etdirən abidə ucaldılmışdır.

Bir neçə il əvvələcən içməli su şəhərin məhəllələrinə növbə ilə verilirdi. Artıq iki ildir bu problem həll edilmişdir. "IDEA" İctimai Birliyinin təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində isə Bakıdan kənarda ilk dəfə Şirvan şəhərində məhəllələrin abadlaşdırılması işləri həyata keçirilir. Sözügedən abad məhəllələrdə söhbətgahlar qurulur və yeniyetmələrin, gənclərin asudə vaxtının səmərəli keçirilməsi üçün müxtəlif növ idman qurğuları quraşdırılır, yaşıllıqlar salınır, ağaclar əkilir. Şəhərin küçələrində də asfaltlaşdırma, işıqlandırma işləri görülür.

Bax beləcə, 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il ərəfəsində Şirvan şəhərinin 60 illik yubileyi qeyd olunur. Gələcək günlərin, ayların, illərin daha uğurlu olsun, sabahların xoş xəbərlərlə, müjdələrlə açılsın, neftçilər, energetiklər və gənclər şəhəri!

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

◆ İlə yekun vurulur

## Tovuzlu fermer üçün başa çatan təqvim ilidir

### Təsərrüfat mövsümü isə davam edir

**Həyata keçirilən iqtisadi islahatlar Tovuz rayonunun da sosial-iqtisadi inkişafına dinamik xarakter verib. Rayon mərkəzi ilə yanaşı, kənd və qəsəbələrdə yenidənqurma, tikinti-quruculuq və abadlıq işləri aparılır, infrastruktur layihələri həyata keçirilir, yeni istehsal müəssisələri istifadəyə verilir, sahibkarlıq inkişaf edir. Qazanılan nailiyyətlər söz yox ki, dövlət başçısınn bölgələrin inkişafına göstərdiyi diqqət və qayğının nəticəsidir.**











Rayonun iqtisadiyyatında əkinçilik və heyvandarlıq aparıcı rol oynasa da, son illər kənd təsərrüfatının başqa sahələri də inkişaf edir. Kartofçuluq, taxılçılıq, üzümçülük, tütünçülük və digər kənd təsərrüfatı bitkilərinin əkin sahələri genişləndirilir, idxalı əvəz edən yerli istehsala daha çox diqqət verilir. Hər il aqrar sahədə yüksək göstəricilər qazanan tovuzlular demək olar ki, əhalinin ərzaqla təminatında üzərlərinə düşən işin öhdəsindən gəlməyə çalışırlar.

Tovuzlu fermerlər cari il taxıl əkini sahələrini genişləndirərək 18454 hektara çatdırmışlar ki, bunun da 15644 hektarı buğda, 2810 hektarı arpa olmuşdur. Məhsuldarlıq buğda üzrə 41,9, arpa üzrə 29,3 sentnerə çatmışdır.

Ölkəmizdə kartof istehsalına görə ön sırada gedən rayonlardan biri də Tovuzdur. Hər il kartofdan yaxşı qazanc əldə edən rayon sakinləri bu il əkin sahələrinin həcmini bir qədər də artıraraq 5947,1 hektara çatdırmışlar. Nəticədə indiyədək hər hektardan 291 sentner olmaqla 173,5 min ton məhsul götürmüşlər.

İqtisadi cəhətdən gəlirli olan üzümçülüyə də rayonda maraq çoxdur. Yerli şəraitə uyğun məhsuldar üzüm sortları tinglərinin yetişdirilməsi, beton dayaqların istehsal edilməsi, yeni salınmış bağların suvarma suyu ilə təminatının yaxşılaşdırılması, eləcə də təcrübəli mütəxəssislərin bu sahəyə cəlb edilməsi kimi vacib məsələlər diqqət mərkəzində saxlanılır. Bütün bu işlərin ardıcıl həyata keçirilməsi nəticəsində qısa vaxt ərzində üzüm bağlarının sahəsi xeyli genişləndirilmişdir. Hazırda rayonda 822,4 hektardan çox üzüm bağı var. Bağların 680,4 hektarı süfrə, 142 hektarı isə texniki sortlardır. Bu il üzümçülər hər hektardan 288,1 sentner olmaqla ümumilikdə 21 min 751 ton məhsul istehsal etmişlər ki, bu da keçənilki göstəricidən çoxdur. Aşağı Quşçu, Düz Qırıxlı, Dondar Quşçu, Aşağı Mülkülü, Dönük Qırıqlı və digər kəndlərdə salınmış plantasiyalarda hər il bol məhsul yetişdirilir.

Tovuzda gəlirli sahələrdən biri də baramaçılıqdır. Rayonda elə bir kənd yoxdur ki, orada barama saxlamağa maraq göstərilməsin. Bunun sayəsindədir ki, cari il kümçülər 7 ton yaş barama istehsal etmişlər. Baramaçılığı inkişaf etdirmək üçün rayon ərazisində 30 mindən çox tut ağacı əkilmişdir.

Rayonda tütünçülüklə 250 nəfərin çalışdığı "Tovuz Aqro Sənaye" MMC məşğul olur. Cari il 95 hektarda tütün şitili basdırılmışdır. Yaz və yay aylarında havaların sərt və yağmurlu keçməsinə baxmayaraq, tütünçülər aqrotexniki tədbirləri vaxtında apara bilmişlər. Nəticədə hər hektardan 9,6 sentner olmaqla 91,15 ton tütün yarpağı yığılmışdır. Yığılmış yarpağın qurudulmasında da heç bir problem yaşanmır. Artıq 3 ildir ki, MMC-nin nəzdində ən müasir tütünqurutma məntəqəsi yaradılmışdır.

Bu il rayonda 1076,5 hektarda tərəvəz bitkiləri əkilmişdir. İndiyədək 17 min tondan çox məhsul toplanmışdır ki, bu da keçənilki göstəricidən xeyli çoxdur.

Rayonda əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi, meliorativ tədbirlərin həyata keçirilməsi sahəsində fermerlərə hər cür kömək göstərilir. Bu işdə fevral ayında dövlət başçısı İlham Əliyevin iştirakı ilə istifadəyə verilmiş "Tovuzçay" dəryaçasının böyük əhəmiyyəti var.

Heyvandarlıq tovuzlular üçün ənənəvi sahədir. Artıq xaricdən lizinq yolu ilə alınmış damazlıq inəklərin rayonda üçüncü nəsli yetişmişdir. Heyvandarlar mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində başladıqları işi davam etdirirlər. Bu hesaba heyvanların cins tərkibi xeyli yaxşılaşmışdır. Yeni doğulan hər baş cins buzova görə dövlət tərəfindən ödənilən 100 manat subsidiya heyvandarlıqla məşğul olan təsərrüfat sahiblərinin xeyli əlindən tutur. Hazırda rayonda 41,7 min başdan çox mal-qara var ki, bu da əvvəlki illə müqayisədə 1,5 min baş çoxdur. Qoyun və keçilərin baş sayında da artım var. Onu da qeyd edək ki, rayonda heyvandarlığın sürətli inkişafı ət və süd istehsalını xeyli artırmışdır. Belə ki, cari ildə tovuzlular 8333,5 ton ət istehsal etmişlər.

Göründüyü kimi, Tovuzda intensiv üsullardan istifadə etməklə aqrar sektorda qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilir. Qazanılan uğurlar isə ilk növbədə həm ölkənin ərzaq təhlükəsizliyini təmin edir, həm də əhalinin güzəranını yaxşılaşdırır. Aqrar sektora hər cür dəstək verən dövlətin əsas məqsədi də elə budur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Gələn il Ağdamda divar kağızlarının istehsalına başlanılacaq

**Ağdam Sənaye Parkında "Mister dekor" MMC tərəfindən divar kağızları istehsalı müəssisəsinin inşasının ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur. Fabrik təkcə Azərbaycanda deyil, Qafqazda divar kağızı istehsal edən ilk müəssisə olacaq.**



MMC-nin rəhbəri Əli Əliyev AZƏRTAC-a bildirib ki, investisiya dəyəri 7 milyon manat olan müəssisənin 2024-cü ilin yazında istehsala başlaması planlaşdırılır: "Artıq avadanlıqlar gətirilib. Xaricdən mütəxəssislər dəvət edilib. Müəssisədə filizilin tərkibli yuyulan və yuyulmayan divar kağızları istehsal olunacaq. Müəssisə tam gücü ilə işə düşəndə illik 2 milyon rulon divar kağızı istehsal etməyi hədəfləmişik. Məhsulların daxili bazarın tələbatını ödəməklə yanaşı, ixracı da nəzərdə tutulur. Fabrikdə 60 nəfər işlə təmin olunacaq".

## Sosial xidmət infrastrukturu genişləndirilir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 18 yaşınadək əlilliyi olan şəxslər üçün yeni sosial xidmət mərkəzləri yaradılacaq.**

Yeni müəssisələrin Bakının Yasamal rayonu ilə yanaşı, Hacıqabul və Ağdam rayonlarında yaradılması nəzərdə tutulub. Yaxın vaxtlarda istifadəyə veriləcək 3 yeni ixtisaslaşmış sosial xidmət mərkəzlərində 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə sosial reabilitasiya xidmətləri göstəriləcək.

Bu mərkəzlərdə sosial işçi, psixoloq, sosial pedaqoq, loqoped və aktiv terapevt tərəfindən əlilliyi olan şəxslərin reabilitasiya ehtiyaclarının qiymətləndirilməsi aparılacaq.

Elm xadimləri

# Təbiəti həyatından artıq sevirdi

**Böyük alim və ziyalı, sadə, təvazökar insan akademik Həsən Əliyev təbiətşünaslıq və ekologiya elminin bir çox sahəsində ömrünün sonuna qədər dəyərli tədqiqatlar aparmış, yüzlərlə əsərin və təbiət abidələrinin müəllifi olmuşdur. O, təbiəti həyatından artıq sevirdi. Torpaqşünaslar, meşəçilər, melioratorlar, bioloqlar, coğrafiyaşünaslar, aqronomlar onun elmi əsərləri, nəzəriyyələri ilə tanış olduqca təbiətə daha yaxın olur və bu sahədə əzmlə çalışırdılar.**



Alim ilk dəfə dağ yamaclarında az istifadəli torpaqlarda quru fitomeliorasiya işlərinin həyata keçirilməsinin elmi təşkilini işləmiş və bu sahədə xeyli tövsiyələr verməklə ömrünün sonuna qədər həmin işi davam etdirmişdir.

Görkəmli alim 1950-ci ildə Azərbaycan Elmi Tədqiqat Meşə Təsərrüfatı və Aqromeşəmeliorasiya İnstitutunun yaradılmasında, Azərbaycan EA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun təşkili və inkişafında, elmi kadrların hazırlanmasında, elmi-tədqiqat mövzularının və laboratoriyaların formalaşmasında böyük işlər görmüşdür. 1949-1952-ci illərdə Azərbaycan EA Botanika İnstituna rəhbərlik etdiyi zaman institutun meşəçilik laboratoriyası və həmin ətrafda Botanika bağının, Mərdəkan qəsəbəsində isə Dendralogiya bağının yaradılmasına nail olmuş H.Əliyev bütövlükdə dağlıq və düzən ərazilərin ekocoğrafi problemlərini kifayət qədər öyrənmişdir. Alimin bu baxımdan "Böyük Qafqazın şimal-şərq hissəsinin meşə və meşə-bozqır torpaqları" adlı monoqrafiyası bu gün də torpaqşünasların və meşəçi mütəxəssislərin geniş istifadə etdiyi mənbədir.

Həsən Əliyev 1949-1952-ci illərdə Azərbaycan EA Nəbatat İnstitutunun direktoru olan zaman onun rəhbərliyi altında "Azərbaycan florası" kitabı hazırlanmışdır. Bu da alimin dendralogiya elminə dərindən bələd olduğunu sübut edirdi. Alim kitabında ağac və kol cinslərinin dendraloji xüsusiyyətlərini açıqlamaqla bitki örtüyünü elmi əsaslarla qiymətləndirmişdir. Kitabda Azərbaycanın Kiçik Qafqaz, Talış dağlıq zonası və Mərkəzi Aran ərazilərində bitki örtüyü təhlil edilməklə onların ekocoğrafi və dendraloji əhəmiyyətlərinin ətraflı şəkildə elmi izahı verilmişdir.

1952-1957-ci illərdə Həsən müəllim Elmlər Akademiyasının akademik katibi vəzifəsində işləmişdir. Həmin illər o, meşə torpaqlarının öyrənilməsini ən vacib tədqiqat işi hesab edərək meşə torpaqşünaslığı laboratoriyasını yaratmışdır. Laboratoriyada Böyük Qafqazın torpaqlarının genetik - coğrafi cəhətləri araşdırılmışdır.

Həsən müəllim 1959-cu ildə Mərdəkan qəsəbəsindən Bərdə şəhərinə köçürülən Azərbaycan Elmi Tədqiqat Meşə Təsərrüfatı və Aqromeşəmeliorasiya İnstitutunun dövrün tələblərinə cavab verən laboratoriyalarının, həmin əraziyə münasib dendralogiya bağının yaradılması üçün 150 hektarlıq ərazinin müəyyənləşdirilməsinə nail olmuş və lazımi elmi məsləhətlər vermişdir.

Akademik Həsən Əliyev Bakıda və respublikanın digər şəhər və rayonlarında ekoloji tədbirlərin həyata keçirilməsində elmi seminarlara rəhbərlik edərək maraqlı mühazirələr və çıxışlar edirdi. 1970-ci illərəcən Abşeron yarımadasının, xüsusilə Bakı şəhərinin yaşıllaşdırılması demək olar ki, tələblərə cavab vermirdi. Onun 10 ildən artıq yaşıllaşdırma işləri sahəsində apardığı elmi və təşkilati işin bəhrəsi olaraq 1982-ci ildə Bakıda adambaşına düşən yaşıllıq norması 7-8 m2-dən 18-20 m2-ə çatdı. Bu hal isə ekoloji baxımdan hər adama düşən yaşıllıq normasına uyğun idi. Alim Coğrafiya İnstitutuna rəhbərlik etdiyi illərdə torpaq-ekoloji tədqiqatları və meşəçilik elminin inkişafına geniş yer vermiş, Azərbaycanda 40 min hektardan artıq meşə altından çıxmış torpaqlardan daha səmərəli istifadə etməyin yollarını müəyyənləşdirmişdir.

Həsən Əliyev Azərbaycan Təbiəti Mühafizə Cəmiyyətinin Mərkəzi Şurasını təşkil edərək onun 20 il rəhbəri olmuşdur. O, yaradıcı alimləri, təbiətsevərləri həmin cəmiyyətin ətrafında toplayaraq geniş ictimaiyyətin səyini Azərbaycan təbiətinin mühafizəsi işinə cəlb etmişdir. Daha sonra "Azərbaycan təbiəti" jurnalını təsis etməklə bütün respublika ictimaiyyətinin diqqətini həmin sahəyə yönəltmişdir. Həmin vaxtlarda Xalq şairi, təbiət vurğunu Məmməd Arazla birlikdə "Azərbaycan təbiəti" ən çox sevilən jurnallardan biri idi. Jurnalda elm adamları, mütəxəssislər və ekoloqlar təbiətsevərləri düşündürən və möcüzəli təbiətin sirlərini açıqlayan məqalələrlə çıxış edirdilər.

Akademik Azərbaycanda ətraf mühitin mühafizəsi və təbiəti bərpa məsələlərinin elmi-praktiki əsaslarını yaratmış və çox uzaqgörənliklə bu sahədə kadr hazırlığına böyük ehtiyac olduğunu göstərmişdir. Məhz bu ideya ilə əlaqədar 1979-cu ildə respublikamız üçün indiki Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsinin nəzdində "Ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə" kafedrasının yaradılması təklifini vermiş və həmin kafedranın açılmasında səyini əsirgəməmişdir. Həmin vaxtdan bugünəcən kafedrada onun davamçıları, yetirmələri - müəllim-professor heyəti fəaliyyət göstərir.

Lakin onun elmi fəaliyyəti, təşkilatçılıq bacarığı bunlarla məhdudlaşmamışdır. Həsən Əliyev 1980-ci illərdən başlayaraq Azərbaycan Təbiəti Mühafizə Cəmiyyətinin Bilik Cəmiyyəti ilə birgə keçirdiyi elmi seminarlarda təbiətsevərlərin, ekoloqların qarşısında elmi-praktiki əhəmiyyət kəsb edən mühazirələrlə çıxış etmişdir. O, çıxışlarında Azərbaycan flora və faunasının ciddi mühafizəsini təşkil etməklə yanaşı, bir sıra vacib işlərin başlanmasının lazım olduğunu bildirirdi. Deyirdi ki, dünya meşələrinin çox kiçik tərkib hissəsi olan Azərbaycan meşələri cins tərkibi ilə yüksək zənginliyə malikdir. Ümumi ərazimizin 12 faizə qədərini təşkil edən meşə fondunda dünyada nəsli kəsilməkdə olan 70-dən artıq ağac və kol cinsləri mövcuddur. Akademikin təşəbbüsü ilə 1982-ci ildə Azərbaycan hökuməti belə əraziləri təbiət abidələri kimi qiymətləndirərək onun pasportlaşdırılmasını həyata keçirdi.

Həsən müəllim ictimaiyyət qarşısındakı mühazirələrində meşələr və onlardan istifadə mədəniyyətindən də geniş danışırdı. O, meşələrin necə gəldi qırılmasını, həmin sahəyə yersiz texnika ilə "hücum" çəkməyin yolverilməz olduğunu videokameralarla lentə alır, çəkdiyi epizodlar ətrafında müzakirələr aparırdı.

Həsən Əliyev Tuqay meşələrinin seyrəlməsinə və onların yarımsəhralara çevrilməsinə daim diqqət yetirir, bu bəlanın qarşısını almaq üçün elmi təhlillər aparır, yüksək ixtisaslı mütəxəssislərin fikirlərini öyrənirdi. Tuqay meşələrinin genofonduna daxil olmayan, torpaq və iqlim şəraitinə uyğunlaşmayan ağac və kol cinslərinin bərpasına etiraz edən alim Tuqay meşələrinin yerində alma, armud, nar bağlarının salınmasına qarşı çıxırdı. O, həmin ərazilərdə uzunsaplaq palıdın, qovağın, saqqızın, qarağacın və əraziyə uyğun olan digər bitkilərin əkilməsini məsləhət bilirdi. Əkinlərə baxış zamanı bildirirdi ki, Kür boyu Eldar şamı əkilməsi təqdirəlayiqdir. Lakin onun yanğın təhlükəsi daha böyük olduğu üçün müxtəlif cinslərlə qarışıq əkilməsi məsləhətdir.

Akademiki Azərbaycandan kənarda da yaxşı tanıyırdılar. Alimin əsərləri, xüsusilə biogeosenologiya, biocoğrafiya, torpaq eroziyası sahələrində apardığı elmi tədqiqat işləri rus, ingilis və b. dillərdə çap olunaraq ABŞ-də, Almaniyada, Rusiyada, Fransada, Yaponiyada və b. ölkələrdə yayılmışdır. Hələ 1960-cı ildə Brüsseldə "Azərbaycanın dağlıq rayonlarında torpaq eroziyasının inkişafı və bu prosesin qarşısının alınması cəhdi" adlı monoqrafiyası çap olunmuş və əsər elm adamları tərəfindən yüksək qiymətləndirilmişdir.

Azərbaycanın müxtəlif ərazilərində, xüsusilə aran Qarabağda daha böyük massivə malik saqqız meşələri alimin daim diqqət mərkəzində idi. O, 1970-ci illərdən başlayaraq 400 ildən də yuxarı yaşı olan saqqız, palıd, qarağac və s. cinslərdən ibarət Soltanbud meşəsində stasionar təcrübə sahəsi yaratmışdır. Həsən Əliyev mütəmadi olaraq həmin sahənin müşahidəsi ilə məşğul olur, burada əsasən təbii bərpanın gedişatını izləyirdi. Hətta vəhşi heyvanların (eləcə də ev heyvanlarının) təbii bərpaya mane olmasının qarşısını almaq məqsədilə qaratikan kollarından meşə daxilində çəpərlər çəkdirirdi. Həmin sahələr onun təşəbbüsü ilə təbiət abidəsi kimi 1982-ci ildə dövlət tərəfindən pasportlaşdırılmışdır.

Həsən Əliyev Kiçik Qafqazın da ən qiymətli meşə sahələrinin ciddi qorunmasını və onun bərpasını arzulayırdı. O, çinarın, qırmızı palıdın və ayıfındığı kimi baş cinslərin Kiçik Qafqazda böyük meşə əmələgətirmə funksiyasını həmişə qeyd edirdi və bildirirdi ki, bu ərazilər ciddi mühafizə və təbii bərpa üçün yüksək təsərrüfat fəaliyyəti tələb edir.

Həsən Əliyevi ən çox düşündürən Bakının ümumi ekoloji vəziyyəti idi. O, neft tullantılarına, mədən sularına, külək və su eroziyalarına və digər antropogen təsirlərə məruz qalmış əhalisi sıx, sənayesi müxtəlif texnoloji proseslərə malik olan şəhərə xüsusi diqqət göstərməyi vacib sayır və bildirirdi ki, əhalinin sağlamlığı naminə yaşıllaşdırma işlərinə geniş yer verilməlidir. Odur ki, çirklənmiş torpaqlar təmizlənməli və həmin ərazilərdə fitokultivasiya işləri yerinə yetirilməlidir.

Akademik təəssüf hissi ilə qeyd edirdi ki, Mərdəkan Dendralogiya bağı, Nəbatat bağı və Bakı ətrafında olan parklarımız və bağlarımız elmi-tədqiqat işləri aparmaq, təcrübə aparmaq və tədrisdə istifadə etmək üçün azlıq təşkil edir. Odur ki, Sumqayıt və Bakı şəhərləri arasında Ceyranbatan gölünün ətrafında adi meşə əkinləri ilə yanaşı, həm də elmi-tədqiqat işləri aparmaq məqsədilə dendralogiya bağı salınmasını məsləhət bilirdi. O, bu zaman Krımda Qara dəniz sahillərində olan Botanika bağının həm mədəni, həm də təbii funksiyalarını əks etdirməklə orada yüzlərlə alimlərin fəaliyyət göstərməsindən danışırdı. Belə bir bağın Abşeronda da yaradılması onun böyük arzularından biri idi.

Alim elmin bir çox sahəsində fundamental tədqiqatlar aparmaqla təbiətşünaslıqda, ekologiya və ətraf mühitin mühafizəsi sahəsində kadr hazırlığını yüksək səviyyədə həyata keçirməklə böyük irs yaratmışdır. Onun nümunəvi xidmətlərindən bu gün də elmimizin və təhsilimizin inkişafında, kadr hazırlığında istifadə edilir.

***Şövqi GÖYÇAYLI,***
***Bakı Dövlət Universitetinin professoru***

***Tahir İBRAHİMOV,***
***coğrafiya üzrə fəlsəfə doktoru, dosent***

# Qızılbaş irsinin izi ilə...

**"Qızılbaş" deyəndə istər-istəməz ilk xatırlanan, yada düşən Azərbaycan Səfəvilər dövlətinin ərazilərini genişləndirən, torpaqlarımızı birləşdirib mərkəzləşdirilmiş nəhəng Azərbaycan dövlətini yaradan tarixi şəxsiyyət Şah İsmayıl Xətai olur.**





Xalqın tarixini və yaddaşını unutmayan insan özünü bu tarixin bir hissəsi kimi dərk edir. Əsrlərboyu vahid məkanda yaşayan, eyni dildə danışan və ümumi dəyərləri bölüşən milyonlarla insanı bir ideya ətrafında birləşdirən tarixi şəxsiyyətlər çox olub. Bu şəxsiyyətlər əbədiyaşarlıq ömrü qazanaraq bir istinad mənbəyinə çevrilmişlər.

Şah İsmayıl Xətai böyük dövlət xadimi və sərkərdə, birləşmiş Azərbaycan dövlətini yaradan şəxsiyyət kimi yaddaşımızda əbədiyaşarlıq ömrü qazanan nadir insanlardandır. Şah İsmayıl Səfəvi xanədanını yaradan Ərdəbil şeyxləri nəslindəndir. Səfəviliyin Azərbaycanın mənəvi mühitinə gətirdiyi mübarizliyin, döyüşkənliyin və mənəvi zənginliyin mahiyyətini dərk etmək həm də Qızılbaşlığın mahiyyətini dərk etməkdir.

Əslində, Şah İsmayılın tarixi yükünü mənsub olduğu mənəvi qaynaq müəyyənləşdirmişdir. Təsadüfi deyil ki, tarixi mənbələr Şah İsmayılın gücünü onun özündə yox, əsaslandığı və mənəvi güc aldığı Səfəviyyə təriqətində görmüşdür.

Xalqımızın qəhrəmanlıq tarixinin şanlı səhifəsini yazan Qızılbaş irsi həmişə tarixçilərin, elm adamlarının diqqət mərkəzində olan, aktuallığını itirməyən mövzulardan olub. Azərbaycan Diasporuna Dəstək Fondunun və "Qızılbaş" Qlobal İrsi Şurası Təşkilatının birgə dəstəyi ilə "Heydər Əliyev İli" çərçivəsində "Azərbaycanda Qızılbaş irsi: tarixin izi ilə" mövzusunda Bakıda keçirilmiş beynəlxalq konfransın iştirakçıları xalqımızın tarixində önəmli yer tutan bu hərəkatın daha geniş coğrafiyada tədqiqi və elmi araşdırmaların daha geniş arealda yayılmasının vacib olduğundan bəhs etdilər.

Konfrans iştirakçısı, Qızılbaş nəslinin nümayəndəsi, Türkiyənin Ankara Hacı Bayram Veli Universitetinin professoru Ahmet Taşğın bizimlə söhbətində bildirdi ki, qızılbaşların dünyanın böyük bir hissəsində, İraqda, Suriyada, Əfqanıstanda, Pakistanda, Hindistanda, Yunanıstanda, Bolqarıstanda yaşayaraq fəaliyyət göstərmələrini təsdiq edən tarixi abidələr, türbələr, sərdabələr mövcuddur. Qızılbaşlıq xalqımızın qəhrəmanlıq tarixinin ən yaddaqalan şərəfli bir dövrünü əhatə edir.

"Qızılbaşlıq bir ideyadır" deyən Ahmet Taşğın bildirdi ki, ən cəsur oğullarımız, ölümdən qorxmayan qəhrəmanlarımız zamanında bu ideya ətrafında birləşərək böyük bir xanədan qurmuşdular. Xalqımızın qəhrəmanlıq tarixinin və ənənələrinin bərpa olunduğu bir zamanda dünyada olan qızılbaşların Bakıda bir araya gəlməsinin çox böyük rəmzi mənası var: "Bu, uzun illərdən sonra bərpa olunan qəhrəmanlıq tarixinin bizə bəxş etdiyi birliyin nümunəsidir. Bütün dünya azərbaycanlılarının Lideri, Qarabağın xilaskarı İlham Əliyevin azərbaycançılıq ideyası ətrafında dünya azərbaycanlılarını birləşdirərək ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etməsini XV əsrdə baş verən hadisələrlə müqayisə etsək, heç də səhv etmərik. Zaman sübut edir ki, böyük ideyaları yalnız güclü liderlər reallaşdıra bilirlər".

"Biz Şuşada da olduq" dedi professor A.Taşğın. "Şuşaya gedərkən yolboyu, eləcə də gözəl təbiəti, bənzərsiz coğrafiyada yerləşən bu gözəl məkanda erməni vandalizminin sarsıdıcı nümunələrini gördük. Qızılbaş ənənəsini yaşadan, ölümün üstünə məğrurcasına gedən Azərbaycan əsgərinin qəhrəmanlıq tarixi yazdığı yerlərlə tanış olduq. O yerləri gördəndən sonra bir daha əmin oldum ki, yaşadığımız dünyada "möcüzə" deyiləcək bir şey yoxdur. İnsan Liderinə inananda, güvənəndə "möcüzə" yarada bilir. Qəhrəmanlıq sarsılmaz inamdan yaranır. Xalqın inamını bərpa edən, yaşadan, yeni qəhrəmanlıq səhifəsi yazan Liderimiz İlham Əliyevə minnətdaram".

Konfrans iştirakçısı, Qızılbaş Qlobal İrsi Təşkilatının sədr müavini doktor Arşi Qızılbaşla da söhbət etmək imkanımız oldu. Məlumat üçün bildirək ki, Arşi Qızılbaş Harvard Universitetinin məzunudur. Hazırda Amerikanın məşhur "Delta Hels" tibb şirkətinin Kanadanın Toronto şəhərində təmsilçisi olaraq baş direktor vəzifəsində çalışır. Arşi bəy dedi ki, soyadından da göründüyü kimi, Qızılbaş nəslindən, məşhur Şeyx Əliqulu xan Ovşarın səcərəsindəndir. "İki il əvvəl də Azərbaycanda olmuşam. Sonralar dəfələrlə işlə əlaqədar Bakıya gəlmişəm. Azərbaycan mənim vətənimdir. Yaşadığım və işlədiyim şəhərdə Azərbaycan diasporunun bütün tədbirlərində fəal iştirak edir, eləcə də Kanadada fəaliyyət göstərən "Azərbaycan evi" ilə də əməkdaşlıq edirəm. Qeyd etmək istəyirəm ki, konfransdan sonra Şuşaya da səfərimiz oldu. Bu, mənim Şuşaya üçüncü səfərim idi. İlk dəfə iki il bundan əvvəl orada keçirilən Dünya azərbaycanlılarının qurultayında iştirak etmişdim. Bu gözəl məkana hər səfərimdə qəribə hisslər keçirirəm. Nədənsə mənə elə gəlir ki, Şuşaya avtomobillə yox, at belində, ulu babam Əliqulu xanla birlikdə gedirəm. Qəribədir, hər səfərimdə də ulu babamın ruhunu öz canımda hiss edirəm. Şübhəsiz ki, Şuşa bir qəhrəmanlıq şəhəri, zəngin tarixi keçmişin, müasir hərb tarixinin şanlı səhifəsinin yazıldığı bir məkan olduğu üçün canında vətən sevgisi, ruhunda tarixinə bağlılıq varsa, bu ad çəkiləndə qan qaynamalıdır".

Arşi bəy dedi ki, Azərbaycanımızın böyük qələbəsindən sonra dünyada artan nüfuzu, şübhəsiz ki, təşkilatımızın da fəaliyyətinə ciddi təsir göstərib: "Məqsədimiz təşkilatı daha da inkişaf etdirmək, BMT və UNESCO tərəfindən dünya irsini qoruyan bir qurum kimi tanınmasına nail olmaqdır".

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanlı heykəltaraşa "Cəngavər rütbəli İtaliyanın Ulduzu" ordeni təqdim olunub

**Dünyaşöhrətli azərbaycanlı heykəltaraş, Xalq rəssamı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, "Şöhrət" ordenli Natiq Əliyevə "Ordine della Stella della Solidarieta Italiana" ("Cəngavər rütbəli İtaliyanın Ulduzu") ordeni təqdim olunub.**




AZƏRTAC xəbər verir ki, ordenin təqdimatı İtaliyanın Azərbaycandakı səfirliyinin iqamətgahında dövlət rəsmilərinin, ölkənin yaradıcı ziyalılarının, Azərbaycanın İtaliyadakı keçmiş səfiri Məmməd Əhmədzadə və ADA-nın prorektoru Fariz İsmayılzadənin iştirakı ilə keçirilib.

Ordeni Xalq rəssamına təqdim edən İtaliyanın Azərbaycandakı səfiri Klaudio Taffuri Natiq Əliyevi xüsusi bir insan, incəsənətin, mədəniyyətin bir hissəsi adlandırıb. "O, sənətdə öz istiqaməti olan bir sənətkardır. Natiq Əliyev İtaliyanın intibah dövrünü tərənnüm edən bir heykəltaraşdır. Həmin dövr - mənim ölkəmin ən böyük sənətkarlarının dövrüdür. Onun bütün əsərlərində intibah dövrünün izi var".

Səfir bildirib ki, İtaliya Prezidenti heykəltaraşı İtaliya ilə Azərbaycan arasında dostluq münasibətlərinin və əməkdaşlığın inkişafında xüsusi xidmətlərinə görə bu yüksək ordenlə təltif edib.

Təltifə görə minnətdarlığını bildirən Azərbaycanın Xalq rəssamı Natiq Əliyev İtaliya incəsənətinin bütün dünyanın ilham mənbəyi olduğunu qeyd edib: "Öyrəndiyim, qibtə etdiyim heykəltaraşların, rəssamların vətənindən təqdim olunan bu orden mənim üçün böyük şərəfdir. Onu həmişə üzərimdə daşıyacağam".

Natiq Əliyev məlumat verib ki, hazırda italiyalı heykəltaraş Albano Poli ilə müştərək layihə üzərində işləyir. "Layihəyə görə İtaliyanın Verona şəhərində Şekspir və Nizaminin heykəlləri ucaldılacaq. Şekspirin heykəlini italiyalı heykəltaraş, Nizaminin heykəlini isə mən hazırlayacağam", - deyə Xalq rəssamı bildirib.

Professor Natiq Əliyev diqqətə çatdırıb ki, rəhbərlik etdiyi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında tələbələrə intibah dövrünün sənət əsərləri ilə yanaşı, müasir İtaliya incəsənəti də öyrədilir.

Natiq Əliyevi yalnız ölkəmizdə yox, onun hüdudlarından kənarda da yaxşı tanıyırlar. Onun monumental əsərləri Azərbaycanla yanaşı, dünyanın bir çox ölkəsində də ucaldılıb. 1990-cı ildə heykəltaraş Rahib Həsənovla birgə yaratdığı Əliağa Vahidin abidəsi bir sıra məziyyətlərinə görə Azərbaycan heykəltaraşlıq sənətində əlamətdar hadisə kimi qəbul edilib. Həmin abidənin qarşısında hər zaman xarici turistlərin ona maraqla baxdığını görmək olur.

Natiq Əliyev Ümummilli Lider Heydər Əliyevin bir neçə abidəsinin, o cümlədən xaricdə - Kiyev, Tbilisi, Həştərxan və Belqradda ucaldılmış abidələrinin, Həştərxanda knyaz Vladimirin böyük (pyedestaldan yuxarı hissəsinin hündürlüyü 4,5 metr olan) abidəsinin, Bakıda böyük rumın bəstəkarı Corce Yeneskunun abidəsinin, Şəkidə dünyaşöhrətli norveçli arxeoloq və səyyah Tur Heyerdalın büstünün, yenə Şəkidə şair Bəxtiyar Vahabzadənin heykəlinin, Bakıda memar Zivərbəy Əhmədbəyovun və bəstəkar V.A.Motsartın, Belqradda serb yazıçısı Milorad Paviçin, Serbiyanın Novi-Sad şəhərində dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin, Ankara, Sarayevo, Mexiko və Qızılca Hamam (Türkiyə) şəhərlərində Xocalı soyqırımı qurbanlarının, Podqoritse şəhərində böyük Azərbaycan şairi və mütəfəkkiri Hüseyn Cavidin, "Bakı-Həştərxan" dostluq abidəsinin müəllifidir.

Memorial heykəltaraşlıq janrı Natiq Əliyevin yaradıcılığında xüsusi yer tutur. Onun yaratdığı heykəltaraşlıq nümunələri Bakıda Məmməd Səid Ordubadi, Abdulla Şaiq, Xurşidbanu Natəvan, Cəlil Məmmədquluzadə, Hüseyn Rəsulbəyov, Afiyəddin Cəlilov, Lətif İmanov, İlyas Əfəndiyev, Mirvarid Dilbazi, Əli Tudə, Cabir Novruz, Nəsrulla Nəsrullayev, Zeynal Cabbarzadə, Amaliya Pənahovanın yaşadıqları binalara vurulmuş memorial xatirə lövhələrinin bəzəyidir.

İlyas Əfəndiyev, Həqiqət Rzayeva, Cabir Novruz, Bəşir Səfəroğlu, Osman Mirzəyev, Habil Əliyev, Zəlimxan Yaqub, Cavad Heyət, Cəlal Əliyev, Rəfiqə Əliyeva, Amaliya Pənahova, Fikrət Qoca, Musa Yaqub və Aydın Balayevin qəbirüstü abidələrinin də müəllifi Xalq rəssamı Natiq Əliyevdir.

# Daha 20 ailənin Laçın sevinci





**"Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim, deyirdim ki, qayıdacağıq, qayıdacağıq!"**

Prezident İlham Əliyev bu sözləri mayın 28-də Laçın şəhərinə qayıdan ilk məcburi köçkünlərlə görüşü zamanı demişdi. Dövlət başçısı həmçinin bildirmişdi: "Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız. Biz çalışacağıq ki, bunu bundan sonra da təmin edək".

İllər öncə doğma torpaqlarından didərgin düşən laçınlılar bu gün el-obalarına dönərək, orada tikilmiş rahat və təhlükəsiz evlərində yeni həyata başlayırlar. İşğaldan azad edilmiş digər şəhər və kəndlərimizlə yanaşı, Laçına da mütəmadi olaraq köçlər təşkil olunur. Bu köç karvanları həyatın ən ağır üzünü görmüş insanları yurdlarına qovuşdurur.

Dünən daha bir köç karvanı Laçın şəhərinə yola salınıb. Bu mərhələdə şəhərə 20 ailə - 86 nəfər köçürülüb. Doğma yurda qovuşan keçmiş məcburi köçkünlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər. Onlar bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbr diləyiblər. Artıq Laçın şəhərində 383 ailənin, yəni 1475 nəfərin daimi məskunlaşması təmin edilib. Köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb. Burada, həmçinin vətəndaşların rifahının yüksəldilməsi və işlə təminatı istiqamətində də mühüm tədbirlər görülüb, rahat və firavan həyat şəraiti üçün lazım olan infrastruktur yaradılıb və proses davam edir.

Laçında aparılan genişmiqyaslı quruculuq işləri intensiv şəkildə həyata keçirilir, müasir innovasiyalar əsasında müəssisələr yaradılır, fərqli təyinatlı layihələr reallaşdırılır. Şəhərdə xəstəxana, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də istifadəyə verilib və ya inşası aparılır.

Bu günə qədər şəhərdə 620-si fərdi yaşayış binası və 144 mənzilli 9 çoxmənzilli bina olmaqla 700 bina tikilib və bu istiqamətdə işlər davam etdirilir.

Xatırladaq ki, bugünədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 383 ailə (1475 nəfər) Laçın şəhərinə, 358 ailə (1298 nəfər) Füzuli şəhərinə, 121 ailə (475 nəfər) Laçın rayonunun Zabux kəndinə köçürülüb. Ümumilikdə 1057 ailə (4209 nəfər) keçmiş məcburi köçkün doğma yurduna qovuşub.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# XIX Beynəlxalq Müsəlman Forumu keçirilib

Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) rektoru, dosent Aqil Şirinov "Dini-mənəvi dəyərlərin qorunması: sülh və təhlükəsizliyin möhkəmləndirilməsində dini liderlərin rolu" mövzusunda təşkil olunan XIX Beynəlxalq Müsəlman Forumunda iştirak edib. Beynəlxalq Forum Rusiya Federasiyası (RF) Müsəlmanları Ruhani İdarəsinin təşkilatçılığı ilə Moskva şəhərində baş tutub.

Forum Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin və Rusiya Müftilər Şurasının sədri, müfti Şeyx Ravil Qaynutdinin çıxışı ilə başlayıb.



Tədbirdə Azərbaycan, Türkiyə, Rusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Birləşmiş Ərəb Əmirlikləri, İran, İraq, Suriya, Fələstin, Misir, Qətər, Küveyt və dünyanın müxtəlif ölkələrini təmsil edən alimlər çıxış ediblər.

Beynəlxalq Forumda Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Aqil Şirinov "Qloballaşan dünyada mədəniyyətlərarası əməkdaşlığın əhəmiyyəti" mövzusunda məruzə edib. Rektor mədəniyyətlərarası əməkdaşlığın əhəmiyyəti və mahiyyətindən söhbət açıb. Mədəniyyətlərarası əməkdaşlığın teoloji əsasları və zorakılığa qarşı mübarizədə bu əsasların oynadığı rola diqqət çəkib.

Forum dünyanın müxtəlif universitetlərindən və təşkilatlarından olan alimlərin çıxışları ilə davam edib.

*"Azərbaycan"*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

struktur idarələri üçün mismar, bolt, qayka, sancaq, şurup, şayba və dəmir kələpçə satın alınması məqsədi ilə

**müsabiqə elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 20 dekabr 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047**

***Tender komissiyası***

# NATO hərbi büdcəsini artıracaq

**NATO hərbi büdcəsini 2,3 milyard avroya çatdıracaq. Bunun 2023-cü illə müqayisədə 12 faiz çox olduğu bildirilir. Blokun bəyanatında deyilir ki, ümumi alyans maliyyələşdirməsinin artırılması və ondan istifadənin genişləndirilməsi müttəfiqlərə ortaq təhlükəsizlik problemlərini daha effektiv şəkildə həll etməyə imkan verir.**

Bundan əlavə, mülki büdcə 18,2 faiz artaraq 438,1 milyon avroya çatdırılacaq.

Daha əvvəl bildirilmişdi ki, Ukraynaya yardım nəticəsində boşalmış Avropa İttifaqı (Aİ) üzvlərinin ordularının hərbi anbarları və arsenalları Aİ üzvlərinin ordu komandanlığının narahatlığına səbəb olur.

"The Wall Street Journal" (WSJ) yazır ki, Birləşmiş Ştatlar Kiyevə davamlı hərbi və maliyyə dəstəyindən uzaqlaşdıqca bu narahatlıq daha da güclənir. Yazıda deyilir



ki, soyuq müharibənin bitməsindən sonrakı onilliklər ərzində hökumətlər zəifləmiş Avropa ordularına dözümlülük nümayiş etdiriblər, çünki nəhəng hərbi gücü olan Amerika NATO-nu və Avropada müdafiə siyasətini dəstəkləyib. Avropanın silah istehsalı üzrə sənaye potensialının çox hissəsi büdcənin illərlə kəsilməsi nəticəsində xeyli zəifləyib və vəziyyəti dəyişmək heç də asan deyil.

Qeyd edilir ki, qalan sursat ehtiyatları Avropada mümkün hərbi münaqişə üçün kifayət etməyəcək və buna görə də Qərb hökumətləri Kiyevə 155 mm-lik mərmi tədarük etmək vədinə yox, onların yerini doldurmağa daha çox diqqət yetirəcəklər. İndiyə qədər vəd edilənlərin təxminən üçdə bir hissəsi Ukraynaya göndərilib.

Bundan əvvəl "Bloomberg" xəbər vermişdi ki, ABŞ hərbi-sənaye kompleksinin imkanları müttəfiqlərinə yardım sayəsində öz ehtiyaclarını ödəmək üçün kifayət etmir. Agentliyin məlumatına görə, Birləşmiş Ştatlar ölkənin ehtiyacları üçün lazım olan silah-sursat istehsal etməkdə çətinlik çəkəcək.

Vaşinqton qarşıdakı iki ildə 155 mm-lik artilleriya mərmilərinin istehsalını 500 faiz artırmağı planlaşdırır və hazırda bununla bağlı xərclər 1,5 milyard dollar təşkil edir.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

**OXUCULARIN NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (**Tel.: (012) 539-59-33**) zəng vura bilərsiniz.*

# Xalq artisti Ramiz Məlik son mənzilə yola salınıb

**Dekabrın 14-də Heydər məscidində Azərbaycanın görkəmli teatr və kino aktyoru, Dövlət mükafatı laureatı, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli Xalq artisti Ramiz Məliklə vida mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, mərasimdə mərhumun yaxınları, sənət dostları, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbəri, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə deyib ki, bu gün görkəmli teatr və kino aktyoru, Xalq artisti Ramiz Məliklə vidalaşırıq: "O, Azərbaycanın korifey sənətkarlarındandır. Uzun müddət idi ağır xəstəlikdən əziyyət çəkirdi. Əlamətdar günlərdə onu daim diqqətdə saxlayırdıq. Yaradıcılığını davam etdirmək üçün ömür vəfa etmədi. Onun xatirəsi əbədi olaraq xalqımızın qəlbində yaşayacaq. Allah rəhmət eləsin".

Ramiz Məlikin Azərbaycan teatrının çox dəyərli simalarından biri olduğunu söyləyən Xalq artisti Nurəddin Mehdixanlı deyib ki, o, Azərbaycan kinosunun və teatrının inkişafı naminə kifayət qədər ciddi işlər görüb, bənzərsiz obrazlar qalereyası yaradıb: "Geriyə böyük mədəniyyət xəzinəsi qaldı. Təəssüf ki, xəstəlik onu bizdən ayırdı. Xəstə olduğu müddətdə o, Mədəniyyət Nazirliyi və Akademik Milli Dram Teatrının kollektivi tərəfindən daim diqqətdə saxlanılıb. Bütün problemləri həll etməyə çalışırdıq. Ramiz Məlik kimi sənətkarları tamaşaçılar ürəklərində, xatirələrində hər zaman yaşadacaqlar".

Xalq artisti Hacı İsmayılov bir çox tamaşalarda Ramiz Məliklə tərəf müqabili olduğunu söyləyib. Onun sözlərinə görə, Ramiz Məliki başqa sənətkarlardan fərqləndirən onun kübarlığı olub: "Ramiz çox dözümlü, iradəli adam idi. Uzun müddətdir xəstə olmasına baxmayaraq, ümid edirdi ki, sağalacaq və yenidən səhnəyə qayıdacaq. Təəssüf ki, bu, mümkün olmadı. Akademik Milli Dram Teatrı və Azərbaycan Teatr Xadimləri İttifaqı adından Ramiz Məlikin ailəsinə, doğmalarına başsağlığı verirəm. Allah rəhmət eləsin".

Ramiz Məliklə ilk görüşünün Hüseyn Cavidin yubileyi ərəfəsində hazırlanan "İblis" tamaşası zamanı olduğunu bildirən Əməkdar artist Ayşad Məmmədov deyib ki, mərhum sənətkarla eyni səhnəni bölüşüblər. Daha sonralar Cəfər Cabbarlının "Yaşar" pyesində tərəfmüqabili olduq. Allah rəhmət eləsin, ruhu şad olsun.

Qeyd edilib ki, Ramiz Məlik 4 avqust 1943-cü ildə Bakıda doğulub. 1963-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun Dram və kino aktyorluğu fakültəsinə daxil olub. Rza Təhmasibdən, Tofiq Kazımovdan, Məlik Dadaşovdan dərs alıb. 1967-ci ildə həmin ali təhsil ocağının məzunu olub.

1967-ci ildə Akademik Milli Dram Teatrının truppasına aktyor götürülüb. Ramiz Məlik ötən illər ərzində bu sənət ocağının səhnəsində dünya və milli dramaturgiya nümunələri əsasında hazırlanmış tamaşalarda 100-ə yaxın rolda uğurla çıxış edib.

Aktyorluq etməklə yanaşı, Leonard Frankın "Yad adam" (quruluşçu rejissor Oruc Qurbanov), İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" (quruluşçu rejissor Mərahim Fərzəlibəyov) və s. pyeslərinin tamaşaya hazırlanmasında rejissor və rejissor assistenti kimi çalışıb.

Ramiz Məlik Azərbaycan Dövlət Televiziyasının hazırladığı Ənvər Məmmədxanlının "Şərqin şəhəri" (Bəhruz), Əlibala Hacızadənin "İnanmırsansa…"(Adil), Nəriman Həsənzadənin "Kimin sualı var?" (Ədalət) və s. əsərlərin tamaşalarında oynayıb.

O, 1984-cü ildə Azərbaycan Dövlət mükafatına layiq görülüb, 1982-ci ildə Əməkdar artist, 1998-ci ildə isə Xalq artisti fəxri adları ilə təltif olunub.

Vida mərasimi başa çatandan sonra görkəmli sənətkarın ruhuna dualar oxunub və cənazəsi son mənzilə yola salınıb.

Mərhum İkinci Fəxri xiyabanda torpağa tapşırılıb.

Azərbaycan Respublikasının Prezidenti və Birinci vitse-prezidenti adından sənətkarın məzarı önünə əklil qoyulub.

Məzarın ətrafına müxtəlif təşkilatlar və kollektivlər adından da əklillər düzülüb.

**Allah rəhmət eləsin!**

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Gülnar Novruzovaya bacısı

**GÜLŞƏN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli, Həmkarlar İttifaqı Komitəsi və universitetin kollektivi İctimai fənlər kafedrasının professoru

**FƏXRƏDDİN MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Memarlıq və İnşaat Universitetinin Mexanika kafedrasının müdiri, professor

**İSMAYIL SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru və kollektivi Uşaq cərrahiyyəsi şöbəsinin həkimi Sona İlham qızı Cəbiyevaya atası

**İLHAM AZƏR OĞIU CƏBİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5270
Sifariş 3270

Qiyməti 40 qəpik